## “Statistika xəbərləri” elmi-praktik jurnalının redaksiya heyəti

### Baş redaktor

| | |
|---|---|
| **Sakit YAQUBOV** | *iqtisad elmləri doktoru, professor* |

### Redaksiya heyəti:

| | |
|---|---|
| **Ziyad SƏMƏDZADƏ** | *iqtisad elmləri doktoru,*<br>*Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü* |
| **Şahin SADIQOV** | *iqtisad elmləri doktoru, professor* |
| **Ədalət MURADOV** | *iqtisad elmləri doktoru, professor* |
| **Vahid NOVRUZOV** | *iqtisad elmləri doktoru, professor* |
| **Nazim İMANOV** | *iqtisad elmləri doktoru, professor* |
| **Süleyman QASIMOV** | *iqtisad elmləri doktoru, professor* |
| **Səlim MÜSLÜMOV** | *iqtisad elmləri doktoru, professor* |
| **Tahir BUDAQOV** | *tibb üzrə fəlsəfə doktoru* |
| **Azər ƏMİRASLANOV** | *iqtisad üzrə fəlsəfə doktoru* |
| **Mehman TAĞIYEV** | *iqtisad üzrə fəlsəfə doktoru* |
| **Saleh MÖVLAMOV** | *iqtisad üzrə fəlsəfə doktoru* |
| **Aleksey PONOMARENKO** | *iqtisad elmləri namizədi, dosent* |
| **Alxan MANSUROV** | *məsul katib* |

***"Statistika xəbərləri" elmi-praktik jurnalının rubrikaları***

- Statistikanın inkişaf strategiyası və taktikası
- Statistik təsnifatlar, standartlar və registrlər
- Statistik müşahidə metodları
- Statistik məlumatların toplanması, işlənməsi, saxlanması və yayılması texnologiyası
- İnformasiya şəbəkəsi, məlumat bazası, məlumat bankları
- Statistik informasiya sisteminin təkmilləşdirilməsi
- Milli Hesablar Sistemi
- Statistik tədqiqatlar
- Statistika sahəsində beynəlxalq əməkdaşlıq
- Statistika: xronika, informasiya
- Biblioqrafiya: yeni nəşrlər
- Oxucuların rəy və təklifləri
- Statistika: rəsmi sənədlər
- Statistika: metodoloji təminat (metodoloji əlavələr)
- Statistika: faktlar və proqnozlar (statistik əlavələr)

# Mündəricat

**İQTİSADİ-STATİSTİK TƏDQİQATLAR**

***Sakit Yaqubov, Ramiz Cavadov***
Azərbaycanın əmək bazarının müasir vəziyyətinin statistik tədqiqi.......................................... 4
***Vahid Abbasov, Sevil Məhərrəmova***
Qiymətlər kənd təsərrüfatında geniş təkrar istehsalın tənzimlənməsi vasitəsi kimi.................... 13
***Sədi Əbdürəhmanov, Fuad Mahmudov***
Kruizlərin dünya turizmində rolu........................................................................................ 20
***Saleh Mövlamov, Şahin Mustafayev***
Azərbaycanda su istehlakının statistik tədqiqi.................................................................. 27
***Aida İbrahimova, Zərifə Nağıyeva***
Ticarətdə statistik tədqiqatlar............................................................................................. 38
***Sədaqət Əhmədova, Könül Əliyeva***
İqtisadi artım və ona təsir edən əsas amillər..................................................................... 45
***Lalə Vəliyeva***
Makroiqtisadi tarazlığın təmin olunmasında maliyyə mexanizmlərinin rolu............................. 52
***Fərhad Qubatov***
Azərbaycanda əhalinin sağlamlıq statistikası.................................................................... 59

**METODOLOGİYA**

***Səyavuş Əhmədov***
Mühafizə edilən informasiyalarla işləyən istifadəçilərin İnternetdə təhlükəsizliyini təmin edən sistemin konseptual modeli........................................................................ 66
***Aynur Sultanova***
Statistik fəaliyyətin keyfiyyətinin təkmilləşdirilməsi məsələləri.............................................. 73
***Zülfüqar Məhərrəmov***
Əhalinin siyahıyaalınmasının bəzi məsələləri...................................................................... 80

**2018-ci İLİN YEKUNU ÜZRƏ ÖLKƏNİN SOSİAL-İQTİSADİ İNKİŞAFINA DAİR GÖSTƏRİCİLƏR**

Makroiqtisadi göstəricilər.................................................................................................. 87
Ümumi Daxili Məhsul istehsalı........................................................................................... 89
Maliyyə mənbələri üzrə əsas kapitala yönəldilmiş vəsaitlər................................................. 89
İqtisadiyyatın sahələri üzrə əsas kapitala yönəldilmiş vəsaitlərin dəyəri................................. 90
Bütün təsərrüfat kateqoriyaları üzrə bitkiçilik məhsullarının yığımı........................................ 91
Pərakəndə ticarət dövriyyəsinin məhsullar üzrə strukturu.................................................... 91
İqtisadiyyata kredit qoyuluşu.............................................................................................. 92
Dövlət büdcəsinin gəlirləri................................................................................................. 92
Dövlət büdcəsinin xərcləri.................................................................................................. 93
Nəqliyyat sektorunda yük dövriyyəsi................................................................................... 93
Nəqliyyat sektorunda sərnişin dövriyyəsi............................................................................. 94
Azərbaycanın tərəfdaş ölkələrlə xarici ticarət göstəriciləri.................................................... 94
İxrac olunan mühüm növ məhsullar..................................................................................... 95
İdxal olunan mühüm növ məhsullar..................................................................................... 96
Məqalələrin təqdimolunma qaydaları................................................................................... 97

"Statistika xəbərləri, № 1/2019"
İl 5, Cild 1, Yanvar-mart, səh. 4-12

*İQTİSADİ-STATİSTİK TƏDQİQATLAR*

# AZƏRBAYCANIN ƏMƏK BAZARININ MÜASİR VƏZİYYƏTİNİN STATİSTİK TƏDQİQİ

**Sakit Yaqubov**
*Azərbaycan Dövlət İqtisad Universitetinin*
*Elm və innovasiyalar üzrə prorektoru, iqtisad elmləri doktoru, professor*
*AZ 1001, Bakı şəhəri, İstiqlaliyyət küçəsi 6*
*e-poçt: sakit.yaqubov@gmail.com*

**Ramiz Cavadov**
*Azərbaycan Dövlət İqtisad Universitetinin*
*İqtisadiyyat kafedrasının (rus dilində) dosenti, i.ü.f.d.*
*AZ 1001, Bakı şəhəri, İstiqlaliyyət küçəsi 6*
*e-poçt: ramiz-dzhavadov@mail.ru*

**Açar sözlər**: əmək ehtiyatları, iqtisadi fəallıq, məşğulluq, işsizlik, muzdlu işçi.
**Ключевые слова:** трудовые ресурсы, экономическая активность, занятость, безработица, наемный работник.
**Keywords:** labour resources, economic activity, employment, unemployment, employees.

1995-ci ildən başlayaraq, Azərbaycanda əhalinin səmərəli məşğulluğunun təmin edilməsinə xüsusi diqqət ayrılmış, dövlət mülkiyyətinin özəlləşməsi prosesinə start verilmişdir. Ölkədə dinamik sürətlə artan əmək resurslarının əmək bazarında işçi qüvvəsi təklifinə müsbət təsir göstərməsini nəzərə alaraq məşğulluğun təmin edilməsi ilə bağlı dövlət proqramları uğurla həyata keçirilmiş və bu sahədə işlər hazırda da davam etdirilir.

Hər hansı bir ölkədə baş verən demoqrafik dəyişikliklər birinci növbədə əhalinin sayının və quruluşunun dəyişilməsinə təsir göstərir [3, səh.38-39]. Rəsmi statistika məlumatlarına əsasən 2005-ci illə müqayisədə 2017-ci ildə Azərbaycanda əhalinin sayı mütləq ifadədə 1450,7 min nəfər, nisbi ifadədə isə 17,2% artaraq 9 milyon 898 min nəfərdən çox olmuşdur. 2016-cı illə müqayisədə 2017-ci ilin sonuna ölkə əhalisinin sayı 0,9% artaraq mütləq ifadədə ötən ilki səviyyəni 88,1 min nəfər üstələmişdir. Araşdırılan 13 il ərzində ölkə əhalisinin ortaillik mütləq artım sürəti 1,3%, ortaillik mütləq artımı isə 120,9 min nəfər təşkil etmişdir [11].

**Cədvəl 1**

**2005-2017-ci illərdə Azərbaycanda əmək ehtiyatlarının sayı və quruluşunun dinamikası (min nəfər)**

| Göstəricilər \ İllər | | 2005 | 2010 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|---|
| Əmək ehtiyatlarının sayı | | 5421,3 | 6015,0 | 6335,9 | 6350,4 | 6408,1 |
| o cümlədən | Əmәkqabiliyyətli yaşda əməkqabiliyyətli əhalinin sayı | 5304,0 | 5875,7 | 6198,7 | 6207,0 | 6262,2 |
| | İqtisadiyyatda məşğul olan əməkqabiliyyətli yaşdan yuxarı şəxslər | 103,8 | 133,1 | 137,2 | 143,4 | 145,9 |
| | İqtisadiyyatda məşğul olan yeniyetmələr | 13,5 | 6,2 | - | - | - |

Əmək bazarında işçi qüvvəsi təklifinin əsas mənbəyi kimi ölkədə formalaşan əmək ehtiyatları çıxış edir [8, səh. 236-237]. Demoqrafik proseslər fonunda əhalinin təbii artımının müsbət dinamikası ölkəmizdə əmək ehtiyatlarının dinamikasına da müsbət təsir göstərmişdir.

2005-ci ildə əhalinin ümumi sayında əmək ehtiyatlarının xüsusi çəkisi 63,4%, 2017-ci ildə isə 64,7% təşkil etmişdir. Əmək ehtiyatlarının əhalinin tərkibində xüsusi çəkisinin 1,3 faiz bəndi qədər artmasının səbəblərindən biri kimi əməkqabiliyyətli yaşdan yuxarı yaşda olub işləyən pensiyaçıların sayının artmasını göstərmək olar. Digər tərəfdən ölkədə aparılan pensiya islahatları nəticəsində əməkqabiliyyətli yaş həddinin artırılması da əməkqabiliyyətli əhalinin sayına müsbət təsir göstərmişdir. Əmək pensiyaları haqqında qanunvericilik aktlarına edilmiş əlavə və dəyişikliklərə əsasən 2027-ci ilə qədər ölkədə həm kişilər, həm də qadınlar üçün əməkqabiliyyətliliyinin maksimal həddinin 65 yaşa qədər artırılması nəzərdə tutulmuşdur.

2017-ci ildə Azərbaycanda əmək ehtiyatlarının sayı 2005-ci illə müqayisədə nisbi ifadədə 18,2 faiz, mütləq ifadədə isə 986,8 min nəfər artmışdır. 2016-cı illə müqayisədə 2017-ci ildə ölkədə əmək resurslarının sayı 0,9% və ya mütləq ifadədə 57,7 min nəfər artmışdır. 2005-2017-ci illəri əhatə edən zaman kəsiyində əmək ehtiyatlarının ortaillik artım sürəti 1,5% təşkil etmişdir. Bu zaman kəsiyində əmək ehtiyatlarının sayında orta hesabla ildə 82,2 min nəfərə qədər artım müşahidə olunur.

Əmək ehtiyatlarının tərkibinə daxil olan əhali kateqoriyaları haqqında əldə olunan statistik məlumatlar ölkənin əmək resurslarının quruluşunu və quruluşunda baş verən dəyişkənlikləri təhlil etməyə imkan verir. 2005-ci ildə ölkənin əmək resurslarının 97,8%-ni əməkqabiliyyətli yaşda olan əməkqabiliyyətli şəxslər məcmusu, 1,9%-ni əməkqabiliyyətli yaşdan yuxarı yaşda olub işləyən pensiyaçılar, 0,3%-ni isə işləyən yeniyetmələr qrupu təşkil etmişdir. 2017-ci ildə ölkənin əmək resurslarının 97,7 faizini əməkqabiliyyətli yaşda əməkqabiliyyətli şəxslər məcmusu, 2,3%-ni isə əməkqabiliyyətli yaşdan yuxarı yaşda olub işləyən pensiyaçılar məcmusu təşkil etmişdir. 2011-ci ildən etibarən ölkənin əmək resursları yalnız iki əhali kateqoriyası hesabına formalaşmağa başlamışdır.

2005-ci ildə ölkə əhalisinin 51,5%-ni iqtisadi fəal əhali, 48,5%-ni isə iqtisadi qeyri-fəal əhali təşkil etmişdir. İqtisadi fəal əhalinin (işçi qüvvəsinin) tərkibinə iqtisadiyyatda məşğul olanlar və işsizlər daxil edilir. Statistik baxımdan əhalinin məşğulluq səviyyəsi araşdırılan dövrdə iqtisadiyyatda məşğul olanların sayının iqtisadi fəal əhalinin sayına nisbətinin faizlə ifadəsi kimi müəyyən edilir.

**Cədvəl 2**

**2005-2017-ci illərdə Azərbaycanda iqtisadi fəal əhalinin sayı və quruluşunun dinamikası**

| | 2005 | 2010 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|
| Əhalinin ortaillik sayı, min nəfər | 8500,3 | 9054,3 | 9649,3 | 9757,8 | 9854,0 |
| İqtisadi fəal əhalinin sayı, min nəfər | 4380,1 | 4587,4 | 4915,3 | 5012,7 | 5073,8 |
| İqtisadiyyatda məşğul olanların sayı, min nəfər | 4062,3 | 4329,1 | 4671,6 | 4759,9 | 4822,1 |
| İşsizlər, min nəfər | 317,8 | 258,3 | 243,7 | 252,8 | 251,7 |
| Məşğulluq xidmətləri orqanlarında rəsmi işsiz statusu alan şəxslər, nəfər | 56343 | 38966 | 28877 | 32972 | 38481 |

2 saylı cədvəlin məlumatlarının təhlili göstərir ki, 2005-ci ildə ölkəmizdə iqtisadi məşğulluq səviyyəsi 92,7% təşkil etmişdir. 2017-ci ildə iqtisadi fəal əhalinin tərkibində məşğulların xüsusi çəkisi 95,0% təşkil etmişdir. 2005-ci illə müqayisədə 2017-ci ildə ölkəmizdə işçi qüvvəsinin məşğulluq səviyyəsi 2,3 faiz bəndi qədər artmışdır. İqtisadiyyatda məşğul olan şəxslərin sayının dinamikasına gəldikdə isə mütləq ifadədə 759,8 min nəfər, nisbi ifadədə isə 18,7% artım baş vermişdir. Təqdirəlayiq hal kimi qeyd etmək olar ki, müqayisə olunan dövrdə əmək ehtiyatlarının nisbi artım səviyyəsi ilə məşğul əhalinin nisbi artım səviyyəsi üst-üstə düşür. Qeyd olunanlar əhalinin məşğulluğunun təmin edilməsi və həyat səviyyəsinin yüksəldilməsi məsələlərinin daim ölkə Prezidenti möhtərəm İlham Əliyevin diqqət mərkəzində olması ilə sıx bağlıdır.

**Cədvəl 3**

**2005-2017-ci illərdə Azərbaycanda məşğul əhalinin mülkiyyət növləri üzrə bölgüsü (min nəfər) [11]**

| İllər / Göstəricilər | | 2005 | 2010 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|---|
| Məşğul əhali | | 4062,3 | 4329,1 | 4671,6 | 4759,9 | 4822,1 |
| o cümlədən: | Dövlət sektorunda | 1229,8 | 1142,7 | 1176,1 | 1171,4 | 1158,4 |
| | Qeyri-dövlət sektorunda | 2832,5 | 3186,4 | 3495,5 | 3588,5 | 3663,7 |

2003-cü ildən başlayaraq, ölkədə həyata keçirilən sosial-iqtisadi islahatların uğurlu şəkildə davam etdirilməsi nəticəsində ötən dövr ərzində əmək bazarında dinamik şəkildə artan işçi qüvvəsi təklifi zəruri sayda iş yerlərinin yaradılması hesabına tələblə qarşılanmış və buna müvafiq olaraq məşğulların sayı artmışdır.

Ölkədə uğurla həyata keçirilən sosial-iqtisadi islahatlar mülkiyyət forması baxımından məşğulluğun quruluşuna da təsirsiz ötüşməmişdir. Belə ki, 2005-ci ildə ölkə iqtisadiyyatında məşğul olanların 30,3% və ya 1229,8 min nəfəri dövlət, 69,7% və ya 2832, min nəfəri qeyri-dövlət sektorunda məşğul olmuşdur. 2017-ci ilin əmək bazarını xarakterizə edən statistik məlumatların təhlili göstərir ki, məşğul olanların 76,0%-i qeyri-dövlət, 24,0%-i isə dövlət sektorunda çalışanlardan ibarət olmuşdur. Müqayisələr göstərir ki, məşğulluğun quruluşunda qeyri-dövlət sektorunun xeyrinə dəyişiklik baş vermişdir. Araşdırılan dövrdə qeyri-dövlət sektorunun xüsusi çəkisi 6,3% bəndi qədər artmışdır. Müqayisə olunan dövrlər üzrə dövlət sektorunda çalışanların sayı mütləq ifadədə 71,4 min nəfər, nisbi ifadədə isə 5,8% azalmışdır. Bu zaman kəsiyində qeyri-dövlət sektorunda çalışanların sayı mütləq ifadədə 831,2 min nəfər, nisbi ifadədə isə 29,4% artmışdır.

**Cədvəl 4**

**2005-2017-ci illərdə Azərbaycan Respublikasında muzdla işləyən əhalinin iqtisadi fəaliyyət növləri üzrə bölgüsü [11]**

| İqtisadi fəaliyyət növləri | 2005 | 2010 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|
| A | 1 | 2 | 3 | 4 | 5 |
| İqtisadiyyat üzrə – cəmi | 1297,1 | 1382,9 | 1502,5 | 1514,3 | 1525 |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 45,7 | 41,2 | 46,3 | 47,2 | 49,4 |
| Mədənçıxarma sənayesi | 40,3 | 34,7 | 34,2 | 34,1 | 33,7 |
| Emal sənayesi | 104,5 | 84,8 | 94,4 | 100,7 | 105,1 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 27,9 | 30,6 | 27,1 | 27,3 | 27,5 |
| Su təchizatı, tullantıların təmizlənməsi və emalı | 23,9 | 22,2 | 25,4 | 30,6 | 30,8 |
| Tikinti | 61,7 | 79,6 | 95,3 | 89,7 | 101,7 |
| Ticarət, nəqliyyat vasitələrinin təmiri | 250,3 | 286,8 | 284,8 | 291,8 | 291,7 |
| Nəqliyyat və anbar təsərrüfatı | 74,3 | 64,9 | 73,1 | 70,3 | 70,7 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 13,4 | 16,8 | 21,8 | 22,9 | 22,8 |
| İnformasiya və rabitə | 27,4 | 24,3 | 26,1 | 25,0 | 24,9 |
| Maliyyə və sığorta fəaliyyəti | 11,8 | 21,0 | 30,1 | 25,0 | 23,8 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 5,4 | 8,7 | 15,1 | 18,8 | 19 |
| Peşə, elmi və texniki fəaliyyət | 37,6 | 43,4 | 57,0 | 55,3 | 52 |

| A | 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|---|
| İnzibati və yardımçı xidmətlərin göstərilməsi | 9,2 | 20,9 | 24,7 | 24,7 | 27,4 |
| Dövlət idarəetməsi və müdafiə; sosial təminat | 48,2 | 52,4 | 101,4 | 107,7 | 108,6 |
| Təhsil | 326,7 | 345,3 | 338,4 | 337,0 | 333,3 |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 128,8 | 137,5 | 133,7 | 133,2 | 131,4 |
| İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | 49,9 | 53,7 | 56,7 | 56,2 | 54,3 |
| Digər sahələrdə xidmətlərin göstərilməsi | 10,1 | 14,1 | 16,9 | 16,8 | 16,3 |

Bazar münasibətləri şəraitində xüsusi mülkiyyətin inkişaf etməsi əhaliyə məşğulluqda sərbəstlik imkanları yaratmışdır ki, bu da öz növbəsində sahibkarlıq fəaliyyətinin inkişaf etməsinə və əhalinin özünün məşğulluğunu təmin etməsinə şərait yaratmışdır [10, səh. 147-148]. Araşdırılan dövrdə iqtisadi məşğul əhalinin müəyyən bir qismi muzdla işləyənlərdən, digər bir qismi isə fiziki şəxs qismində və ya hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olanlardan ibarət olmuşdur. 2005-ci ildə iqtisadiyyatda məşğul olanların ümumi sayından muzdla işləyənlər 31,9% təşkil etmişdir. Bu dövrdə muzdla işləyənlərin iqtisadi fəaliyyət növləri üzrə bölgüsünə diqqət yetirsək, muzdla işləyənlər arasında ən böyük xüsusi çəkiyə təhsil üzrə çalışanlar malik olmuşdur. Bu fəaliyyət növü üzrə muzdla işləyənlər bütövlükdə muzdlu işləyənlərin 25,2%-ni təşkil etmişdir.

Baxılan dövrdə “Ticarət, nəqliyyat vasitələrinin təmiri” fəaliyyət növü üzrə muzdla işləyənlərin sayı ümumi muzdla məşğul olanların sayında 19,3% təşkil etmişdir. Ümumilikdə 2005-ci ildə üç fəaliyyət növü üzrə məşğul olanlar: “təhsil”, “ticarət və nəqliyyat vasitələrinin təmiri” və “əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi” bütün muzdla işləyənlərin yarıdan çoxunu, yəni 54,4%-ni təşkil etmişlər.

2005-ci illə müqayisədə 2016-cı ildə iqtisadiyyatda muzdla işləyənlərin sayı nisbi ifadədə 16,8%, mütləq ifadədə isə 217,2 min nəfər artmışdır. 2005-ci ildə olduğu kimi 2016-cı ildə də iqtisadiyyatda muzdla işləyənlərin əsas hissəsi, yəni 50,4%-i və ya 762 min nəfəri “təhsil”, “ticarət və nəqliyyat vasitələrinin təmiri” və “əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi” fəaliyyət növləri üzrə məşğul olanlardan ibarətdir. 2005-ci illə müqayisədə 2016-cı ildə “Ticarət, nəqliyyat vasitələrinin təmiri” fəaliyyət növü üzrə məşğul olanların xüsusi çəkisi eyni qalmış, lakin onların ümumi sayında 16,6% artım müşahidə olunmuşdur. Turistlərin yerləşdirilməsi və ictimai iaşə fəaliyyət növü üzrə muzdla məşğul olanların sayı 2005-ci illə müqayisədə 1,7 dəfə artmış və onların xüsusi çəkisində 0,5 faiz bəndi qədər artım müşahidə olunmuşdur. Muzdla işləyənlər arasında ən böyük artım “Daşınmaz əmlakla əlaqədar əməliyyatlar” fəaliyyət növü üzrə qeydə alınmışdır. Bu fəaliyyət növü üzrə muzdla məşğul olanların sayı 2016-cı ildə 2005-ci illə müqayisədə 3,5 dəfə artmışdır. Müqayisə olunan dövrdə “Maliyyə və sığorta fəaliyyəti”, “İnzibati və yardımçı xidmətlərin göstərilməsi”, “Dövlət idarəetməsi və müdafiə, sosial təminat” kimi iqtisadi fəaliyyət növləri üzrə muzdla məşğul olanların sayında iki dəfədən çox artım müşahidə olunmuşdur. Ümumdünya maliyyə böhranı və neft qiymətlərinin enməsi nəticəsində “Mədənçıxarma sənayesi” və “Emal sənayesi” fəaliyyət növləri üzrə muzdla işləyənlərin sayında və onların xüsusi çəkilərində müvafiq müqayisədə azalma qeydə alınmışdır.




Şəkil 1. 2016-cı ildə muzdla işləyənlərin fəaliyyət növləri üzrə bölgüsü (%-lə)

Əhalinin səmərəli məşğulluğunun təmin edilməsi, onun həyat səviyyəsinin yüksəldilməsi və yoxsulluğun ləğv edilməsi Azərbaycan hökuməti tərəfindən həmişə diqqət mərkəzində saxlanılan prioritet məsələlərdəndir [4, səh. 35-36]. İnkişaf etmiş cəmiyyətin qurulması və əhalinin maddi rifah halının yüksəldilməsi baxımından makroiqtisadi səviyyədə üç problemin paralel olaraq optimal tənzimlənməsi zərurət kəsb edir. Bu problemlər Ümumi Daxili Məhsulun real həcminin artırılması zəminində işsizliyin beynəlxalq təcrübədə qəbul edilmiş təbii səviyyəsinə (5-6%) və inflyasiyanın birrəqəmli (0-9%) diapozonda saxlanmasına nail olmaqdan ibarətdir. Belə bir iqtisadi mühitin formalaşması hökumət qarşısında ciddi vəzifələr qoymaqla optimal tənzimlənmə tədbirlərinin həyata keçirilməsini tələb edir. 2003-cü ildən başlayaraq Azərbaycanda sürətli iqtisadi artım tempi müşahidə olunmağa başlanmışdır. Neft layihələrinin işə düşməsi fonunda dünya neft qiymətlərinin yüksəlməsi ölkəmizə enerji daşıyıcılarının ixracından külli-miqdarda valyuta vəsaitlərinin daxil olmasına şərait yaratmışdır. Neft sektorunun sürətli inkişafı iqtisadiyyatın digər sahə və sektorlarının inkişafına müsbət təkan vermişdir.

**Cədvəl 5**

**2005-2017-ci illərdə Azərbaycanda işsizlərin cins tərkibinə görə dinamikası [11]**

| Göstərici | 2005 | 2010 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|
| A | 1 | 2 | 3 | 4 | 5 |
| İşsiz əhalinin sayı (BƏT-in metodologiyasına uyğun olaraq bütün işsizlər daxildir) (min nəfər) | 317.8 | 258.3 | 243.7 | 252.8 | 251.7 |
| kişilər (min nəfər) | 164.1 | 102.3 | 102.6 | 107.5 | 106.2 |
| qadınlar (min nəfər) | 153.7 | 156.0 | 141.1 | 145.3 | 145.5 |
| onlardan: işsiz statusu olan şəxslərin sayı - cəmi (nəfər) | 56343 | 38966 | 28877 | 32972 | 38481 |
| kişilər (nəfər) | 27265 | 21979 | 17728 | 20418 | 24496 |
| qadınlar (nəfər) | 29078 | 16987 | 11149 | 12554 | 13985 |

| A | 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|---|
| onlardan: işsizlik müavinəti alanların sayı - cəmi (nəfər) | 2087 | 87 | 1543 | 1857 | 6974 |
| kişilər (nəfər) | 1316 | 70 | 1087 | 1238 | 4748 |
| qadınlar (nəfər) | 771 | 17 | 456 | 619 | 2226 |

20-ci yüzilliyin 70-80-ci illərində Azərbaycan Respublikasında doğum göstəricilərinin və əhalinin təbii artımının yüksək olması 2000-ci illərdə ölkədə əməkqabiliyyətli yaşda əməkqabiliyyətli əhalinin sayının dinamikasına müsbət təsir göstərmişdir. Bu proseslər fonunda 2005-2017-ci illər ərzində ölkədə iqtisadi fəal əhalinin sayı orta hesabla ildə 1,32%-lik artım sürəti nümayiş etdirmişdir. Məlumdur ki, iqtisadi fəal əhalinin (işçi qüvvəsinin) tərkibinə iqtisadiyyatda məşğul olanlar və işsizlər daxil edilir. İşsizlik səviyyəsinin obyektiv qiymətləndirilməsi və mövcud olan gizli işsizliyin aradan qaldırılması aktual məsələlərdən biridir. İnkişaf etmiş ölkələrdə və bir sıra MDB ölkələrində işsizlərin sayının və səviyyəsinin qiymətləndirilməsində Beynəlxalq Əmək Təşkilatının (BƏT) metodikasından istifadə olunur [5, səh.93]. 2003-cü ildən başlayaraq Azərbaycanda da işsizliyin qiymətləndirilməsi məqsədi ilə BƏT-in təklif və tövsiyələri nəzərə alınır. Ənənəvi qaydada işsizlərin sayı və işsizlik səviyyəsi məşğulluq xidməti orqanlarında rəsmi qeydiyyatdan keçmiş şəxslərin sayına əsasən müəyyən edilir. 2005-ci ildə rəsmi qaydada məşğulluq xidməti orqanlarında qeydiyyatdan keçmiş və işsiz statusu almış şəxslərin sayı 56343 nəfər olmuşdur. Bu göstəriciyə istinadən rəsmi qeydiyyatdan keçmiş işsizlərin sayına əsasən işsizlik səviyyəsi 1,3% təşkil etmişdir. Həmin dövrdə rəsmi qeydiyyatdan keçmiş və işsizlik statusu almış şəxslərin 48,4 faizini kişilər, 51,6 faizini isə qadınlar təşkil etmişdir. 2017-ci ildə dövlət məşğulluq xidməti orqanlarında rəsmi qeydiyyatdan keçmiş işsiz şəxslərin sayına əsasən işsizlik səviyyəsi iqtisadi fəal əhalinin 0,8% səviyyəsində olmuşdur. Bu dövrdə rəsmi işsizlik statusu alan şəxslərdən 63,7 faizi kişilər, 36,3 faizi isə qadınlar olmuşdur. İşsizlik statusu almış şəxslərin ümumi sayı 2005-ci illə müqayisədə 2017-ci ildə 31,7 faiz azalmışdır. Müqayisə olunan dövrdə rəsmi status alan işsizlərin tərkibində qadınların xüsusi çəkisi 0,5%-ə qədər azalmışdır.

2005-ci ildə rəsmi işsizlik statusuna malik olan şəxslərdən cəmi 3,7%-i işsizliyə görə müavinət almışdır. 2017-ci ildə işsizlik müavinəti alan şəxslər rəsmi qeydiyyatdan keçib işsiz statusu alan şəxslərin 18,1 faizini təşkil etmişdir. Müqayisə olunan zaman kəsiyində işsizlik müavinəti alan şəxslərin xüsusi çəkisi 14,4%-ə qədər artmışdır. Bu artımın səbəbi kimi bir tərəfdən rəsmi qeydiyyatdan keçmiş işsizlərin sayının müqayisə olunan dövrdə 17862 nəfər azalması, digər tərəfdən rəsmi işsizlik statusu alan şəxslərin sırasından işsizlik müavinəti alanların sayının 3,3 dəfə və ya 4887 nəfər artması ilə izah oluna bilər.

2005-ci ildə BƏT-in metodologiyasına əsasən ölkəmizdə 317,8 min nəfər şəxs işsiz hesab edilmişdir. Bu metodologiyaya əsasən ölkədə işsizlik səviyyəsi 7,3% səviyyəsində olmuşdur. Həmin dövrdə BƏT metodologiyası ilə müəyyən edilmiş işsizlərin ümumi sayında 51,6% kişilər, 48,4% qadınlar yer almışdır. 2017-ci ildə işsiz hesab olunan şəxslərin sayı iqtisadi fəal əhalinin 5%-ni təşkil etmişdir. 2017-ci ildə bütün işsizlərin sayına əsaslanan işsizlik səviyyəsi elmi əsaslarla qəbul edilmiş təbii işsizlik səviyyəsində (iqtisadi fəal əhalinin 5-6%-i qədər) olmuşdur. İşsiz hesab edilən əhali kateqoriyasının quruluşuna gəldikdə 2017-ci ildə ümumi işsizlərin 42,5 faizini kişilər, 57,5 faizini isə qadınlar təşkil etmişdir. 2005-ci illə müqayisədə 2017-ci ildə işsiz şəxslərin ümumi tərkibində kişilərin xüsusi çəkisi 9,1% bəndi qədər azalmışdır. 2005-ci illə müqayisədə 2017-ci ildə ümumi işsizlərin sayı 20,8% və ya 66,1 min nəfər azalmışdır. Qeyd edək ki, müqayisə olunan 12 illik zaman kəsiyində ölkədə iqtisadi fəal əhalinin sayı mütləq ifadədə 693,3 min nəfər, nisbi ifadədə isə 15,8% artmışdır. Araşdırılan dövrdə ölkədə həyata keçirilən sosial-iqtisadi islahatlara rəğmən artan işçi qüvvəsinin iş yerlərinə olan tələbatı tam şəkildə ödənilmiş və hətta işsizlik səviyyəsinin 2,3% bəndi qədər azaldılmasına nail olunmuşdur.

**Cədvəl 6**

**2005-2017-ci illərdə məşğulluq xidməti orqanlarının əsas göstəricilərinin dinamikası [11]**

| | 2005 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|
| Məşğulluq xidmətlərində işsiz statusu almış şəxslər | 56343 | 38966 | 32972 | 38481 |
| İşə düzəldilməsi | 25299 | 29399 | 56631 | 47901 |
| Peşə təliminə göndərilməsi | 1542 | 3921 | 3352 | 3561 |
| Boş iş yerlərinin tutulması üçün işçi qüvvəsinə olan tələbat | 9247 | 10654 | 11086 | 14049 |
| İşsiz statusu almış işsizlərin iqtisadi fəal əhaliyə nisbəti, faizlə | 1,29 | 0,59 | 0,66 | 0,76 |
| İşsizliyə görə müavinət alanlar | 2087 | 87 | 1857 | 6974 |

İqtisadi cəhətdən inkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, əhalinin işlə təmin olunmasında məşğulluq xidməti orqanları müstəsna rol oynayır. Son illərdə bu sahədə ölkənin məşğulluq xidməti orqanlarının fəaliyyətində də müsbət irəliləyişlər müşahidə olunur. 2005-ci ildə ölkəmizdə məşğulluq orqanları tərəfindən rəsmi işsiz statusu verilmiş şəxslərdən 44,9 faizi müvafiq işlərlə təmin edilmiş, 2,7 faizi isə peşə təliminə göndərilmişdir. 2017-ci ildə məşğulluq xidməti orqanlarının vasitəçiliyi ilə işlə təmin olunanların sayı rəsmi işsiz statusu alan şəxslərin sayını 24,5% üstələmişdir. 2005-ci illə müqayisədə 2017-ci ildə məşğulluq xidməti orqanlarının iştirakı ilə işlə təmin olan şəxslərin sayı 1,9 dəfə çoxalmışdır.

## Nəticə

**Aparılan tədqiqatın yekunu olaraq aşağıdakı nəticələri formalaşdırmaq olar:**

1. Ölkədə aparılan islahatlar iqtisadiyyatda əsaslı keyfiyyət dəyişikliklərinə səbəb olmuş, dinamik iqtisadi inkişaf təmin edilmişdir. Regionların iqtisadi inkişafının təmin edilməsi, əhalinin sosial rifahı və həyat səviyyəsinin daha da yüksəldilməsi, ölkə iqtisadiyyatının, xüsusilə qeyri-neft sektorunun inkişafı istiqamətində müvafiq tədbirlər həyata keçirilmişdir.

2. İnkişaf etmiş dünya ölkələrində olduğu kimi Azərbaycanda da insan iqtisadi artımın əsas amilinə çevrilir. Bunları nəzərə alaraq, müasir əmək bazarının tələblərinə cavab verən kadrların hazırlanmasına ehtiyac duyulur.

3. Əmək bazarında işçi qüvvəsi təklifinin əsas mənbəyi əmək ehtiyatlarıdır. Aparılan tədqiqata əsasən müəyyən olunmuşdur ki, 2017-ci ildə Azərbaycanın əmək resurslarının 97,7 faizi əməkqabiliyyətli yaşda əməkqabiliyyətli əhalinin hesabına formalaşmışdır. Ölkə prezidentinin qayğısı nəticəsində qəbul olunmuş regionların inkişafı dövlət proqramları nəticəsində minlərlə yeni iş yeri yaradılmışdır. Bu proqramların davamlı olması bir daha ölkə regionlarında iqtisadi inkişafla yanaşı, məşğulluq problemini də aradan qaldırmış olacaqdır.

4. Əmək resurslarının sayının dinamik artımı və buna paralel olaraq həyata keçirilən iqtisadi islahatlar əhalinin iqtisadi fəallığına müsbət təsir göstərmişdir. 2005-ci illə müqayisədə 2017-ci ildə iqtisadi fəal əhalinin sayı nisbi ifadədə 15,8 faiz artmışdır. Müqayisə olunan dövrdə məşğul əhalinin sayı isə 18,7% bəndi qədər artmışdır. İqtisadi fəal əhalinin məşğulluq səviyyəsi 2005-ci illə müqayisədə 2,7% bəndi qədər artaraq 95% təşkil etmişdir.

5. Son illər ölkə iqtisadiyyatında aparılan islahatlar nəticəsində əmək bazarında əhəmiyyətli dərəcədə müsbət dəyişikliklərə nail olunmuşdur. Belə ki, 2005-ci ildə dövlət sektorunda çalışanların xüsusi çəkisi iqtisadiyyatda məşğul olanların ümumi sayının 30,3 faizini təşkil edirdisə, 2017-ci ildə bu göstərici 24,0 faizə enmiş, qeyri-dövlət sektorunda işləyənlərin sayı isə bu dövrdə 1,3 dəfə artmışdır.

6. BƏT metodologiyasına əsasən 2005-ci ildə işsizlərin sayı 317,8 min nəfər təşkil etmişdir. 2017-ci ilin yekunlarına əsasən BƏT metodologiyası ilə müəyyən edilmiş işsizlərin sayı 251,7 min nəfər olmuşdur. Ölkədə həyata keçirilən sosial-iqtisadi islahatların müsbət nəticəsi olaraq ümumi işsizlərin sayı 2005-ci illə müqayisədə 66,1 min nəfər azalmış və işsizlik səviyyəsi 5%-ə qədər enmişdir ki, bu da beynəlxalq normalara uyğun olaraq təbii işsizlik hüdudları daxilində olmuşdur.

**Sakit Yaqubov, Ramiz Cavadov**

**Azərbaycanın əmək bazarının müasir vəziyyətinin statistik tədqiqi**

**Xülasə**

Məqalədə 2005-2017-ci illəri əhatə edən zaman kəsiyində Azərbaycanın əmək bazarının quruluş və dinamikası statistik təhlil edilir. Əhalinin səmərəli məşğulluğunun və layiqli həyat şəraitinin təmin edilməsi baxımından əmək bazarında həyata keçirilən islahatların müsbət nəticələri elmi cəhətdən əsaslandırılır. Ölkədə əmək ehtiyatlarının dinamik artımını, elmi texniki tərəqqinin və iqtisadi proseslərin idarə olunmasında informasiya texnologiyalarının geniş tətbiqini nəzərə alaraq kadr hazırlığı ilə məşğul olan təlim və tədris müəssisələrinin öz işlərini müasir əmək bazarının tələbləri baxımından təkmilləşdirməsinə ehtiyac olduğu göstərilmişdir.

**Сакит Ягубов, Рамиз Джавадов**

**Статистический анализ современного состояния рынка труда Азербайджана**

**Резюме**

В данной статье проводится статистический анализ динамики и структуры рынка труда в Азербайджане в период 2005-2017 годов. Положительные результаты проводимых социально-экономических реформ научно обосновываются с точки зрения рациональной занятости и обеспечения достойных условий жизни. Учитывая динамический рост трудовых ресурсов, научно-технический прогресс и расширенное применение информационных технологий в управлении и осуществлении экономических процессов, учреждения, которые занимаются подготовкой и обучением кадров должны усовершенствовать свою деятельность в соответствии с требованиями современного рынка труда.

**Sakit Yagubov, Ramiz Javadov**

**Statistical analysis of the current situation of the labour market at Azerbaijan**

**Summary**

This article provides a statistical analysis of dynamics and structure of the labour market at Azerbaijan in the period 2005-2017. In terms of rational employment and decent living conditions, the positive results of ongoing socio-economic reforms are scientifically justified. Given the dynamic growth of labour resources, technological progress and expanded use of information technology in the management and implementation of the economic processes, institutions that are engaged in training and education of personnel should improve their work in the requirements of modern labour.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı-2010
2. Azərbaycan Respublikasının əmək məcəlləsi. Bakı-1999
3. S.M.Yaqubov, A.C.Məmmədov. “Sosial-iqtisadi statistika” dərslik. Bakı-2011
4. Azərbaycan Respublikasının məşğulluq strategiyası. Bakı-2005
5. R.C.Cavadov. “Azərbaycan Respublikasında əmək bazarının statistik tədqiqi” iqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsini almaq üçün dissertasiya. Bakı-2008
6. К.Лайкам. «Структурный анализ занятости и безработицы». Человек и труд. № 6, 2010, стр.14-17

7. К.Г.Казымов. «Рынок труда и занятости населения» учебник. М: Перспектива 2011
8. В.С.Буланов. «Рынок труда». учебник, М.-2014. стр. 478
9. Е.А.Митрофанова. «Социально-трудовые отношения, рынок труда и занятость персонала». М., Проспект, 2014. стр.64
10. Г.Г.Руденко. «Формирование рынка труда» учебное пособие. М:изд. Экзамен-2015, стр. 414
11. https://www.stat.gov.az/source/labour/
12. http://www.mlspp.gov.az/

# QİYMƏTLƏR KƏND TƏSƏRRÜFATINDA GENİŞ TƏKRAR İSTEHSALIN TƏNZİMLƏNMƏSİ VASİTƏSİ KİMİ

***Vahid Abbasov***
*Bakı Dövlət Universiteti*
*“İqtisadiyyat və idarəetmə” kafedrasının professoru, i.e.d.*
*AZ 1148, Bakı şəhəri, Akademik Zahid Xəlilov küçəsi 23*
*e-poçt: vahid.abbasov.56@mail.ru*

***Sevil Məhərrəmova***
*“Aqromexanika” Elmi-Tədqiqat İnstitutu*
*Kənd təsərrüfatı məhsullarının emalı laboratoriyasının baş laborantı*
*AZ 2000, Gəncə şəhəri, Əziz Əliyev küçəsi 57A*
*e-poçt: m-fabiana@rambler.ru*

**Açar sözlər:** kənd təsərrüfatı, geniş təkrar istehsal, tənzimləmə, rentabellik, qiymət sistemi.
**Ключевые слова:** сельское хозяйство, расширенное воспроизводство, регулирование, рентабельность, система цен.
**Keywords:** agriculture, extensive reprocessing, regulation, profitability, price system.

İqtisadiyyatın başqa sahələrindən fərqli olaraq, kənd təsərrüfatında geniş təkrar istehsalın həyata keçirilməsi kifayət qədər çətinliklərlə müşayiət olunan bir prosesdir. Belə ki, bu sahədə çalışanların gəlirlilik səviyyəsinin iqtisadiyyatın digər sahələrində çalışanların gəlirlilik səviyyəsindən az olması və bu sahədə fəaliyyət göstərən müəssisə və təsərrüfatlarla müqayisədə inhisarçı mövqe tutan müəssisələrin mövcudluğu onların geniş təkrar istehsalın həyata keçirilməsi baxımından yetərincə gəlir əldə etmələrinə imkan vermir. Azərbaycanda belə vəziyyət həm planlı iqtisadiyyat dövründə, həm də hazırkı şəraitdə müşahidə edilmiş və indi də müşahidə edilməkdədir. Bu problem həm də bazar iqtisadiyyatının inkişaf etdiyi ölkələrdə də mövcuddur, onun həlli məqsədilə zəruri tənzimləmə tədbirləri işlənib hazırlanır və həyata keçirilir. Məhz tənzimləmə tədbirlərinin işlənib hazırlanması nəticəsində kənd təsərrüfatında fəaliyyət göstərən müəssisə və təsərrüfatlara geniş təkrar istehsalın həyata keçirilməsi baxımından köməkliklərin göstərilməsi mümkün olur və onlar fəaliyyətlərini davam etdirmək imkanları qazanırlar.

Aparılan araşdırmalar və tədqiqatlar göstərir ki, istər inkişaf etmiş, istərsə də inkişaf etməkdə olan ölkələrdə kənd təsərrüfatında geniş təkrar istehsal prosesinin həyata keçirilməsində həmin ölkələrin əlaqədar strukturları tərəfindən qiymətlərin tənzimlənməsi üzrə işlənib hazırlanan və həyata keçirilən tədbirlərin çox böyük təsiri var. Təsadüfi deyil ki, bir çox ölkələrdə kənd təsərrüfatının bazarın dağıdıcı mexanizmindən qorunması üçün həyata keçirilən müdafiə tədbirləri sırasında ən çox vəsait bu sahədə məhsul istehsalçılarının məhsullarının bazar qiymətlərinin müdafiəsinə ayırılır. Bu, kənd təsərrüfatında sərbəst qiymət əmələ gəlməsinin özünü doğrultmaması ilə əlaqədardır.

Azərbaycanda bazar iqtisadiyyatına keçid kənd təsərrüfatı və ərzaq məhsullarının qiymətlərinin sərbəstləşdirilməsini zəruri etmişdir. Çünki bazar iqtisadiyyatının ən mühüm parametrlərindən biri sərbəst qiymət əmələ gəlməsi hesab edilir. Məhz bu zərurilik 1992-ci ilin 2 yanvar tarixindən etibarən ölkəmizdə də kənd təsərrüfatı və ərzaq məhsullarının qiymətlərinin bazar mexanizmi əsasında formalaşmasına rəvac vermiş və hazırda kənd təsərrüfatında qiymət əmələ gəlməsinin əsasını bazar mexanizmi təşkil edir. Buna baxmayaraq, ölkəmizin kənd təsərrüfatında qiymətlərin formalaşmasına müdaxilələr edilmiş (bir sıra maddi-texniki resursların kənd təsərrüfatı məhsulları istehsalçılarına güzəştli qiymətlərlə satışı və s.) və belə müdaxilələr zamanı kənd təsərrüfatı əmtəə istehsalçılarına geniş təkrar istehsalın həyata keçirilməsi zamanı köməkliklərin göstərilməsi qarşıya başlıca məqsəd kimi qoyulmuşdur. Bu məqsədə nə dərəcədə nail olunması kənd təsərrüfatı məhsulları istehsalçılarının geniş təkrar istehsalı həyata keçirmək üçün imkanlarının təhlilini tələb edir.

Məlum olduğu kimi, kənd təsərrüfatında əmtəə istehsalçılarının geniş təkrar istehsalı həyata keçirmək üçün malik olduğu imkanlar onların maliyyə vəziyyəti ilə müəyyən olunur. Məhsul istehsalçılarının maliyyə vəziyyətinin hansı səviyyədə olması isə onların məhsullarının satışının rentabelliyi vasitəsilə müəyyən edilə bilər. Bu baxımdan, Azərbaycanın kənd təsərrüfatında fəaliyyət göstərən müəssisə və təsərrüfatların məhsul satışının rentabelliyinin dinamikasının öyrənilməsinə ehtiyac yaranır. Aşağıdakı cədvəldə kənd təsərrüfatında fəaliyyət göstərən fərdi sahibkar təsərrüfatlarının məhsul satışının rentabelliyinin dinamikası əks etdirilmişdir [6].

**Cədvəl 1**

**Fərdi sahibkar təsərrüfatlarının məhsul satışının rentabelliyi, %**

| | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|---|---|
| Dənli bitkilər | 25,9 | 36,1 | 24,7 | 28,7 | 46,6 | 55,6 | 83,4 |
| Xam pambıq | 50,6 | 53,3 | 62,7 | 65,9 | 5,6 | 67,4 | 31,0 |
| Şəkər çuğunduru (emal üçün) | 153,1 | 74,1 | 45,0 | - | 184,3 | 33,3 | 31,7 |
| Tütün | 48,4 | 28,2 | 19,1 | - | 6,1 | 34,6 | 150,0 |
| Kartof | 68,5 | 45,7 | 46,2 | 68,8 | 61,0 | 101,2 | 32,8 |
| Tərəvəz (açıq torpaqda) | 84,0 | 53,1 | 73,9 | 85,7 | 109,1 | 94,7 | 116,2 |
| Bostan məhsulları | 71,5 | 37,5 | 42,5 | 50,5 | 56,5 | 40,2 | 44,7 |
| Meyvə və giləmeyvə | 107,9 | 75,7 | 94,9 | 91,2 | 108,5 | 237,6 | 185,8 |
| Üzüm | 47,0 | 26,8 | 18,9 | 29,8 | - | 23,5 | 42,3 |
| **Bitkiçilik məhsulları** | **38,7** | **42,8** | **34,7** | **38,8** | **39,3** | **61,8** | **49,9** |
| Mal-qara və quş əti | 39,5 | 38,1 | 41,8 | 41,2 | 39,1 | 44,5 | 51,5 |
| o cümlədən<br>iribuynuzlu mal-qara | 37,5 | 34,3 | 37,5 | 35,2 | 33,9 | 37,8 | 54,5 |
| qoyun və keçi | 41,2 | 42,8 | 45,9 | 47,2 | 44,0 | 50,9 | 48,6 |
| quş | 52,7 | 34,9 | 45,7 | 39,7 | 42,6 | 46,0 | 47,0 |
| süd və süd məhsulları | 56,4 | 47,7 | 55,9 | 52,9 | 52,3 | 55,4 | 53,4 |
| yun | 41,1 | 42,6 | 34,0 | 47,2 | 43,2 | 44,1 | 38,4 |
| yumurta | 90,6 | 69,3 | 76,9 | 81,6 | 71,9 | 68,6 | 59,6 |
| **Heyvandarlıq məhsulları üzrə** | **45,4** | **41,6** | **45,3** | **43,7** | **42,4** | **46,5** | **51,9** |

Cədvəl 1-in məlumatlarından göründüyü kimi, fərdi sahibkar təsərrüfatlarında geniş təkrar istehsalın həyata keçirilməsi baxımından həmin təsərrüfatların istehsal etdikləri məhsulların satışının rentabelliyi kifayət qədər yüksəkdir. Burada onu da qeyd edək ki, mütəxəssislər tərəfindən geniş təkrar istehsalın həyata keçirilməsi baxımından rentabelliyin 30-50% arasında dəyişməsi əlverişli hədd hesab edilir. Bəzi ölkələrdə (məsələn, qonşu Rusiyada) isə bu məqsədlə rentabellik səviyyəsinin daha aşağı həddə 25-30% səviyyəsində olması məqbul hesab edilir. Cədvəl 1-in məlumatlarından göründüyü kimi, təhlil edilən 2011-2017-ci illər ərzində fərdi sahibkar təsərrüfatlarında bitkiçilik məhsulları üzrə rentabellik səviyyəsi 34,7-61,8%, heyvandarlıq məhsulları üzrə isə 41,6-51,9% arasında dəyişmişdir [6]. Bu səviyyə tələb olunan əlverişli həddən (30-50% səviyyəsindən) xeyli yüksəkdir (şəkil 1).




| | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|---|---|
| Bitkiçilik məhsulları | 38,7 | 42,8 | 34,7 | 38,8 | 39,3 | 61,8 | 49,9 |
| Heyvandarlıq məhsulları | 45,4 | 41,6 | 45,3 | 43,7 | 42,4 | 46,5 | 51,9 |

Şəkil 1. Fərdi sahibkar təsərrüfatlarında bitkiçilik və heyvandarlıq məhsullarının satışının rentabelliyi, %

Məsələ burasındadır ki, fəaliyyəti təhlil edilən fərdi sahibkar təsərrüfatlarının kənd təsərrüfatı məhsullarının istehsalında payı cüzi səviyyədədir və heç də aqrar sahədə fəaliyyət göstərən müəssisə və təsərrüfatların hamısının geniş təkrar istehsalı həyata keçirmək imkanları bu təsərrüfatların malik olduğu imkanlar səviyyəsində deyil. Deməli, geniş təkrar istehsalın həyata keçirilməsi baxımından çoxsaylı müəssisə və təsərrüfatların problem yaşadığı aydındır və bu problemin həllində qiymətdən bir vasitə kimi istifadə edilməklə tənzimləmə tədbirlərinin işlənib hazırlanması və həyata keçirilməsi mühüm əhəmiyyət kəsb edir. Həm də bu tənzimləmə tədbirləri davamlı xarakterə malik olmalıdır. “Müəyyən dövlət siyasətinə müvafiq fermer qiymətlərinin birdəfəlik yüksəlişi kənd təsərrüfatında və iqtisadiyyatın qeyri-aqrar sektorlarında gəlirləri bərabərləşdirə bilər, lakin bu, heç bir halda ona təminat vermir ki, müəyyən məqamda gəlirlərin dispariteti yenidən baş qaldırmayacaq” [2, səh. 227].

Aparılan tədqiqatlar göstərir ki, bəzi illər istisna olmaqla ölkəmizin kənd təsərrüfatı müəssisələrində də geniş təkrar istehsalın həyata keçirilməsi baxımından elə bir çətinlik müşahidə edilmir. Bu müəssisələrdə istehsal edilən məhsulların satışının rentabelliyi aşağıdakı cədvəlin və şəklin məlumatları ilə xarakterizə edilir (cədvəl 2 və şəkil 2).

**Cədvəl 2**

**Kənd təsərrüfatı müəssisələrinin məhsul satışının rentabelliyi, %**

| A | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|---|---|
| | **1** | **2** | **3** | **4** | **5** | **6** | **7** |
| Dənli bitkilər | 42,9 | 47,6 | 50,2 | 41,0 | 47,3 | 45,8 | 53,6 |
| Xam pambıq | -12,0 | 12,8 | - | 43,6 | 10,6 | 7,3 | - |
| Şəkər çuğunduru (emal üçün) | 139,6 | 154,2 | 83,3 | 135,4 | 201,8 | 71,0 | 25,7 |
| Tütün | 41,6 | 22,8 | 68,3 | 180,2 | 83,0 | - | 179,0 |
| Kartof | 15,6 | 22,5 | 4,4 | 26,2 | 17,6 | 261,1 | - |
| Tərəvəz (açıq torpaqda) | 6,8 | 41,3 | 84,8 | 94,3 | 71,4 | 17,8 | 40,3 |
| Bostan məhsulları | 48,3 | 44,0 | 41,7 | 38,1 | 43,1 | 33,2 | 18,5 |
| Meyvə və giləmeyvə | 14,3 | 29,5 | 4,0 | 15,8 | 24,8 | 17,7 | 30,0 |
| Üzüm | -3,8 | 6,9 | 14,3 | 30,8 | 14,1 | 4,2 | 8,5 |
| **Bitkiçilik məhsulları** | **24,1** | **35,5** | **35,1** | **29,3** | **36,0** | **43,5** | **25,5** |
| Mal-qara və quş əti | 25,7 | 20,9 | 12,3 | 10,8 | 3,4 | 13,9 | 7,8 |
| o cümlədən İribuynuzlu mal-qara | 10,0 | 46,1 | 29,0 | 15,4 | 2,4 | 3,3 | 39,5 |

| A | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
|---|---|---|---|---|---|---|---|
| Qoyun və keçi | 37,4 | 43,9 | 44,8 | 35,0 | 37,9 | 27,8 | 58,9 |
| Quş | 26,9 | 19,4 | 11,1 | 10,3 | 3,0 | 14,4 | 5,0 |
| Süd və süd məhsulları | 14,2 | 25,7 | 18,9 | 16,0 | 23,9 | 20,7 | 19,8 |
| Yun | 24,0 | 24,3 | 33,0 | 27,7 | 26,7 | 21,7 | 31,5 |
| Yumurta | 1,4 | 4,3 | 12,7 | 0,9 | 9,9 | 4,9 | - |
| **Heyvandarlıq məhsulları üzrə** | **20,5** | **15,1** | **16,5** | **9,4** | **7,1** | **11,8** | **8,0** |

Cədvəl 2-nin məlumatlarından və şəkil 2-dən göründüyü kimi, kənd təsərrüfatı müəssisələrində məhsulların satışının rentabelliyi bitkiçilik məhsulları üzrə daha yüksək olmuş və 24,1-43,5% arasında dəyişmişdir [6]. Bu müəssisələrdə heyvandarlıq məhsullarının satışının rentabelliyi 7,1-20,5% arasında tərəddüd etmişdir ki, bu da geniş təkrar istehsalın həyata keçirilməsi baxımından heç də yuxarı sayıla bilməz. Bu, onu göstərir ki, heyvandarlıq məhsullarının qiymətlərinin geniş təkrar istehsalın həyata keçirilməsi baxımından zəruri səviyyəyə çatdırılması üçün həmin məhsulların istehsalçılarının müdafiəsinə yönəldilmiş tədbirlərin təkmilləşdirilməsinə və onların davamlılığının təmin edilməsinə ehtiyac vardır.

Əvvəldə qeyd etdiyimiz kimi, fərdi sahibkar təsərrüfatlarında (eyni zamanda kənd təsərrüfatı müəssisələrində) istehsal edilən məhsullar bütövlükdə ölkə üzrə istehsal edilən kənd təsərrüfatı məhsullarının az bir hissəsini təşkil edir. Ona görə də bu təsərrüfat kateqoriyaları üzrə aparılan təhlillərin genişləndirilməsinə, daha doğrusu, kənd təsərrüfatı üzrə geniş təkrar istehsalın həyata keçirilməsi imkanlarının bütövlükdə sözügedən sahə üzrə aydınlaşdırılmasına ehtiyac yaranır. Bu məqsədlə kənd təsərrüfatı məhsullarının, kənd təsərrüfatı məhsullarından istifadə edilməklə istehsal edilən qida sənayesi məhsullarının, həmçinin kənd təsərrüfatında istehsal ehtiyacları üçün istifadə edilən məhsulların (istehsal vasitələrinin) və xidmətlərin qiymət indekslərinin müqayisəsinə və onların nisbətlərinin öyrənilməsinə ehtiyac vardır. "Adətən, bu nisbətə az diqqət yetirirlər. Lakin bu çox mühümdür, çünki qiymət dispariteti probleminin köklü səbəbi əldə edilən sənaye məhsullarının qiymətlərinin yüksəkliyi ilə bağlı olmayıb, istehlakçılar tərəfindən əldə edilən kənd təsərrüfatı məhsullarının qiymətlərinin aşağı olması ilə bağlıdır. Belə vəziyyətdə mübadilənin ekvivalentliyi pozulur və nəticədə kənd təsərrüfatı əmtəə istehsalçılarının ödəniş qabiliyyətli tələbi azalır" [3, səh.31].




| | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|---|---|
| Bitkiçilik məhsulları | 24,1 | 35,5 | 35,1 | 29,3 | 36 | 43,5 | 25,5 |
| Heyvandarlıq məhsulları | 20,5 | 15,1 | 16,5 | 9,4 | 7,1 | 11,8 | 8 |

Şəkil 2. Kənd təsərrüfatı müəssisələrinin məhsul satışının rentabelliyi

3-cü cədvəldə bəzi məhsulların istehsalçı qiymətləri indeksinin dəyişməsi əks etdirilmişdir. Cədvəlin məlumatlarından göründüyü kimi, 2011, 2015, 2016 və 2017-ci illərdə kənd təsərrüfatı məhsullarının istehsalçı qiymətləri indeksinin qida sənayesi müəssisələrinin məhsullarının istehsalçı qiymətləri indeksinə nisbəti vahiddən kiçik olmuş və müvafiq olaraq 0,97, 0,98, 0,74 və 0,96-ya bərabər olmuşdur. Bu, onu göstərir ki, həmin illərdə qida məhsullarının qiymətlərinin tərkibində kənd təsərrüfatı xammalının payı azalmış və bu da kənd təsərrüfatı məhsulları istehsalçılarının geniş təkrar istehsalı həyata keçirmək baxımından malik olduqları imkanları (istehsalçıların maliyyə vəziyyətini) bir qədər də məhdudlaşdırılmışdır. Bu vəziyyətin yaxşılaşdırılması kənd təsərrüfatı məhsulları istehsalçıları ilə qida məhsulları istehsal edən müəssisələr arasında kooperasiya-inteqrasiya əlaqələrinin formalaşdırılması və stimullaşdırılması əsasında mümkündür.

Kənd təsərrüfatı məhsulları istehsalçılarının istehsalçı qiymətləri indeksinin neft məhsulları istehsalçılarının istehsalçı qiymətləri indeksinə nisbəti 2014 və 2017-ci ildə 0,8-ə, 2016-cı ildə isə 0,89-a bərabər olmuşdur. Bu illərdə də sözügedən məhsullara qərarlaşmış qiymətlər kənd təsərrüfatı məhsulları istehsalçılarının geniş təkrar istehsalı həyata keçirmək baxımından imkanlarına neqativ planda təsirini təsdiqləyir. Lakin məlum olduğu kimi, ölkəmizdə kənd təsərrüfatı əmtəə istehsalçılarına neft məhsullarının güzəştli qiymətlərlə satışı təmin olunur və bununla da həmin neqativ təsirin aradan qaldırılması mümkün olur.

**Cədvəl 3**

**Bəzi məhsulların istehsalçı qiymətləri indeksi əvvəlki ilə nisbətən, faizlə**

| | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|---|---|
| Kənd təsərrüfatı məhsullarının istehsalçı qiymətləri indeksi | 110,3 | 99,5 | 103,2 | 102,3 | 101,2 | 97,4 | 111,9 |
| Qida sənayesi müəssisələrinin istehsalçı qiymətləri indeksi | 113,7 | 97,0 | 107,2 | 98,8 | 102,9 | 131,6 | 116,1 |
| Neft məhsulları istehsal edən müəssisələrin istehsalçı qiymətləri indeksi | 109,8 | 101,3 | 100,0 | 128,2 | 86,0 | 109,7 | 140,0 |
| Kənd təsərrüfatı məhsullarının istehsalçı qiymətləri indeksinin qida sənayesi müəssisələrinin istehsalçı qiymətləri indeksinə nisbəti | 0,97 | 1,03 | 0,96 | 1,04 | 0,98 | 0,74 | 0,96 |
| Kənd təsərrüfatı məhsullarının istehsalçı qiymətləri indeksinin neft məhsulları istehsal edən müəssisələrin məhsullarının istehsalçı qiymətləri indeksinə nisbəti | 1,00 | 0,98 | 1,03 | 0,80 | 1,18 | 0,89 | 0,80 |

Mənbə: Cədvəl DSK-nın məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Cədvəl 3-də aparılan təhlillərdən göründüyü kimi, kənd təsərrüfatında qiymətlərin sərbəstləşdirilməsi heç də bu sahənin problemlərini həll etməyə imkan verməmişdir. Bu sahədə geniş təkrar istehsal prosesinin davam etdirilməsi, müəssisə və təsərrüfatların maliyyə imkanlarının artırılması üçün bazar iqtisadiyyatının tələblərinə uyğun qiymət sisteminin formalaşdırılmasına, həmin sistemin tərkib elementlərinin müəyyənləşdirilməsinə və qiymətlərin bir-biri ilə bağlılığının və əlaqəliliyinin təmin olunmasına çalışılmalıdır. Həmin qiymətlərin və yaxud qiymət növlərinin bəziləri hazırda da tətbiq edilir. Məsələn, bu qiymətlərdən biri dövlət ehtiyacları üçün kənd təsərrüfatı məhsullarının istehsalçılardan alınması zamanı tətbiq edilən tədarük qiymətləridir.




| | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|---|---|
| Kənd təsərrüfatı məhsulları | 110,3 | 99,5 | 103,2 | 102,3 | 101,2 | 97,4 | 111,9 |
| Qida məhsulları | 113,7 | 97 | 107,2 | 98,8 | 102,9 | 131,6 | 116,1 |
| Neft məhsulları | 109,8 | 101,3 | 100 | 128,2 | 86 | 109,7 | 140 |

Şəkil 3. Kənd təsərrüfatı və sənaye məhsullarının istehsalçı qiymətləri indeksi, özündən əvvəlki ilə nisbətən faizlə

Hazırda Dövlət Taxıl Fondu taxılın istehsalçılardan tədarükündə bir ton məhsul üçün onlara 300 manat ödəyir [7]. Bu qiymət səviyyəsi istehsalçılara geniş təkrar istehsalı həyata keçirməyə imkan verir və həmin qiymət istehsalçıların bazar fəaliyyətinin davam etdirilməsi üçün stimullaşdırıcı təsirə malikdir. Məsələ burasındadır ki, hələ də Azərbaycanın beynəlxalq taxıl bazarlarından asılılığı yüksək səviyyədədir və bu, ölkəmizin ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımından həll edilməsi vacib problem kimi qarşıda durur. Bu problemin uzun illərdir həll edilməməsinin başlıca səbəbi ölkədə istehsal edilən ərzaqlıq buğdanın keyfiyyət xüsusiyyətlərinin tələblərə cavab verməməsidir. Bu səbəbdən də yerli istehsalçılardan taxılın tədarükü əhəmiyyətli səviyyədə deyil və deməli, hazırda taxıla tətbiq edilən tədarük qiymətləri taxılın keyfiyyət xüsusiyyətlərinin tələblərə cavab vermədiyindən çoxsaylı taxıl istehsalçılarını əhatə etmir.

## Nəticə

Bir sıra vacib kənd təsərrüfatı məhsulları və ərzaqlıq buğda ehtiyatının əhəmiyyətli hissəsinin yerli istehsalçılardan tədarük edilməsi üçün bitkiçilik məhsullarının əkin sahəsinin artırılması ilə yanaşı, bu məhsulların keyfiyyətinin yüksəldilməsi də qarşıya əsas məqsəd kimi qoyulmalı və bu məhsulların bazar konyunkturundan asılı olaraq tədarük qiymətlərinin səviyyəsinə yenidən baxılmalıdır. Bütün hallarda tədarük qiymətləri bu məhsulların geniş təkrar istehsalını həyata keçirməyə imkan verməli və bu qiymətlərin səviyyəsi istehsalçılar üçün stimullaşdırıcı təsirə malik olmalıdır.

**Vahid Abbasov, Sevil Məhərrəmova**

**Qiymətlər kənd təsərrüfatında geniş təkrar istehsalın tənzimlənməsi vasitəsi kimi**

**Xülasə**

Məqalədə qiymətlərin tənzimlənməsinin kənd təsərrüfatında geniş təkrar istehsalın həyata keçirilməsində əhəmiyyəti ilə bağlı məsələlər şərh edilmişdir. Fərdi sahibkarlıq subyektlərində və kənd təsərrüfatı müəssisələrində əmtəə istehsalının rentabellik səviyyələri müqayisə edilərək bunun istehsalçı qiymətlərlə əlaqədar olduğu müəyyənləşdirilmişdir. Kənd təsərrüfatında sahələrarası əlaqələri formalaşdıran emal sənayesi, onun əsas və dövriyyə fondlarının istehsal edilən sahələrində qiymət artımı ilə əlaqədar baş verən fərqli tendensiyalar aşkarlanmışdır. Kənd təsərrüfatında yeni qiymət sisteminin formalaşdırılmasına və qiymətlərin tənzimlənməsinin təkmilləşdirilməsinə dair elmi əsaslandırılmış təkliflər verilmişdir.

**Вахид Аббасов, Севиль Магеррамова**

**Цены - как средство регулирования расширенное воспроизводство в сельском хозяйстве**

**Резюме**

В статье излагается важность регулирования цен при осуществлении воспроизводственного процесса в сельском хозяйстве. Сравнивая рентабельность товарного производства в субъектах индивидуального предпринимательства и сельскохозяйственных предприятиях, было установлено, что оно связано с ценами производителей. Выявлены различные тенденции, происходящие в связи с ростом цен в обрабатывающей промышленности и в его производственных отраслях основных и оборотных фондов, которые формируют межотраслевые отношения в сельском хозяйстве. Сделаны научно обоснованные предложения по формированию новой системы цен в сельском хозяйстве и совершенствованию ценового регулирования.

**Vahid Abbasov, Sevil Maharramova**

**Prices - as a means of regulating expanded reproduction in agriculture**

**Summary**

The article outlines the importance of price regulation in the implementation of large-scale agricultural production. Comparing the profitability of commodity production in individual entrepreneurship and agricultural enterprises, it was found that it is associated with producer prices. Various trends associated with rising prices in the manufacturing industry, in the production of the main and working capital, which form the inter-branch relations in agriculture were identified. Scientifically substantiated proposals on the formation of a new price system in the agriculture and improving the price regulation were presented.

**Ədəbiyyat**

1. А.И.Пащенко, В.А.Пешехонов. Экономика аграрного сектора. Санкт-Петербург-2003, ОЦЭ и М, стр. 93-107
2. Е.В.Серова. Аграрная экономика. М.: ГУВШЭ, 1999. стр. 480.
3. Экономическое регулирование воспроизводства в аграрном секторе экономики / М.: НИП-КЦ Восход – А. 2008, стр.132
4. Экономика и управление аграрным производством/Под ред. академика В.В.Кузнецова, Ростов-на Дону. 2008, стр. 720
5. V.H.Abbasov. Aqrar sahədə iqtisadi tənzimləmənin aktual problemləri. Bakı-2012
6. Kənd təsərrüfatı müəssisələrinin və fərdi sahibkar təsərrüfatlarının əsas iqtisadi göstəriciləri. https://www.stat.gov.az/source/agriculture/. Bakı-2018
7. Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi, Dövlət Taxıl Fondunun məlumatı: https://www.youtube.com/watch?v=9QceAvMNBmw

# KRUİZLƏRİN DÜNYA TURİZMİNDƏ ROLU

***Sədi Əbdürəhmanov***
*Azərbaycan Turizm və Menecment Universiteti*
*“İqtisadiyyat” kafedrası, iqtisadiyyat üzrə fəlsəfə doktoru, professor*
*AZ 1072, Bakı şəhəri, Koroğlu Rəhimov küçəsi 822/23*

***Fuad Mahmudov***
*Azərbaycan Turizm və Menecment Universiteti*
*Turizmdə nəqliyyat xidmətləri ixtisası üzrə magistr*
*AZ 1072, Bakı şəhəri, Koroğlu Rəhimov küçəsi 822/23*
*e-poçt: fuad.mahmudov13@gmail.com*

**Açar sözlər:** kruiz, kruiz turizmi, turizm, turizm məhsulu, su nəqliyyatı.
**Ключевые слова:** круиз, круизный туризм, туризм, туристический продукт, водный транспорт.
**Keywords:** cruise, cruise tourism, tourism, tourism product, water transport.

Mövcud beş nəqliyyat növündən (su, hava, dəmiryolu, boru və avtomobil nəqliyyatı) kruiz turizmin inkişafında əvəzsiz rola malik olan nəqliyyat növü - su nəqliyyatıdır. Turistlərin nəqliyyat növlərindən istifadəsinin faiz göstəricisinə nəzər salsaq, görərik ki, 57% hava nəqliyyatının payına, 37% avtomobil nəqliyyatının payına, 4% su nəqliyyatının və 2% isə dəmiryol nəqliyyatının payına düşür. Amma son dövrlərdə baş verən inqilabi, texniki dəyişikliklər nəticəsində su nəqliyyatı, həmçinin də su nəqliyyatının bir növü olan kruiz turizmin inkişaf prosesi sürətlənir.

Dünya ərazisinin 71%-ni su hövzəsi təşkil etməsi su nəqliyyatının inkişafına böyük imkanlar yaradır. Belə ki, dünya su hövzəsinin çox böyük hissəsinin okeanlar, dənizlər, çaylar, körfəzlər, göllər, boğazlar və s. təşkil edir. Dənizlərdə, çaylarda və göllərdə fəaliyyət göstərən və sərnişin daşıyan gəmilər eyni vaxtda turistləri də daşıyırlar. Dəniz yolları turizmin başlanğıcından bugünədək həm sərnişin daşınması, həm də turizmdə kütləvi daşımalar baxımından mühüm bir yerə sahib olmuşdur. Su nəqliyyatında sərnişin daşınmasında komfort və əyləncə imkanlarının artması kruiz turizminin çiçəklənməsinə gətirib çıxarmışdır. Kruiz turizmi turizm sektorunda ən sürətlə inkişaf edən seqmentlərdən biridir və ölkə iqtisadiyyatına, yerli əhaliyə əhəmiyyətli fayda verir. Kruiz istiqamətlərinə baxarkən müşahidə edirik ki, kruiz turizmi bəzi inkişaf edən ölkələr üçün perspektivli imkanlar yaradır. Bəzi turizm təşkilatları inkişaf etməkdə olan ölkələrin turizm sahəsini inkişaf etdirmək üçün kruiz turizmindən istifadə edərək ölkənin digər resurslarına əsasən təbii və mədəni resurslarına müəyyən təsir göstərərək ölkənin digər turizm resurslarının inkişaf etdirilməsinə imkanlar yaradır. Bundan başqa, qeyd edə bilərik ki, kruiz turizmi ölkələrin turizm sahəsini inkişaf etdirməklə yanaşı, bu sahənin əlçatan olması üçün böyük investisiyalar tələb edir. Yəni ölkə limanlarının infrastrukturunun inkişafı, yeni gəmilərin alınması, limanların turizm destinasiyası kimi tanınması və s. amillərin olması vacib hesab olunur. Kruiz turizmi ən azı 48 saat davam edən və xidmətlər daxil olan, həmçinin spesifik bir xüsusiyyətə malik olan liman şəhərlərində ekskursiyalar ilə fərqlənən səyahət və yaxud turizm növüdür. Kruizlə səyahət tək istiqamətə, yaxud geri dönüşlü olmaqla həyata keçirilir və bu kruizlərin turistlər üçün əlçatan olmasına şərait yaradır. Kruizlər turistləri liman şəhərlərinə çatdıraraq, onlara həmin şəhərlərin təbiətini, mədəniyyətini araşdırmağa imkan yaradır, həmçinin onları şəhər ekskursiyaları ilə tanış edir. Bəzən turistlər spesifik bir turizm mərkəzinə hava nəqliyyatı vasitəsilə uçur və həmin yerdə kruiz turu edərək sonra geri qayıdırlar. Belə bir turizm hərəkətliliyinə turistlər “fly&cruise” adını vermişlər [3]. Ümumiyyətlə, kruiz gəmiləri müxtəlif dizayn, ölçülərdə və ən azı 100 nəfərlik və ən çoxu 6000 nəfərlik olur. İnsanların sosial vəziyyətinə uyğun olaraq, kruizlər iki cür qiymət siyasəti yeridirlər: aşağı və yuxarı büdcəli kruiz səyahətləri. Hazırda bir çox şirkətlər kruizləri çox böyük deyil, kiçik həcmdə təşkil etməyə üstünlük verirlər. Belə ki, 80 kabinədən 800 kabinəyə qədər olan kruiz gəmilərinin istehsalında şirkətlər daha çox maraqlıdırlar, nəinki digər böyük kruiz gəmilərin istehsalında. Kruizlər iki cür olur: dəniz, yaxud

okean kruizləri və çay kruizləri. Lakin müasir dövrdə aparılan statistik araşdırmalara əsasən müəyyən edilmişdir ki, inkişaf etməkdə olan ölkələrin çoxu dəniz və okean kruizlərin inkişafına önəm verirlər. İnkişaf etməkdə olan ölkələr hazırda çay kruizlərinin inkişafına daha çox önəm verirlər və bu tipli kruizlərin inkişafı üçün böyük layihələr hazırlanır. Qlobal kruiz bazarına baxdıqda isə müşahidə edə bilərik ki, kruiz bazarı daimi olaraq böyüməkdədir. Belə ki, kruiz turizm bazarında 1990-cı ildə 3.8 milyon turist kruiz səyahətlərindən istifadə etdiyi halda, 2012-ci ildə bu rəqəm 21 milyon civarında olmuşdur, 2018-ci ildə isə ilkin hesablamalara görə kruiz səyahətlərindən istifadə edənlərin sayı 28 milyona çatmışdır (şəkil 1) [8].




Şəkil 1. 2009-2018-ci illər arası kruiz turizmində iştirak edən turistlərin sayı (milyon nəfərlə)

Şəkil 1-ə nəzər yetirsək, görərik ki, 1990-cı il və 2018-ci illər arasında kruiz turizm bazarında 7,4 dəfəyə yaxın artım olmuşdur. Kruiz turizm bazarının genişlənməsinin əsas səbəblərdən biri kruiz səyahətlərinin qlobal olaraq şaxələnməsidir. Belə ki, son bir neçə il ərzində kruiz şirkətləri bir çox kruiz istiqamətləri üzrə transatlantik kruiz xətlərini müəyyənləşdirərək turistlərə müxtəlif və rəngarəng kruiz səyahət paketləri təklif edirlər. Kruiz bazarının inkişaf etməsi nəticəsində kruiz xətləri yeni-yeni turizm destinasiyalarının kəşf edilməsi ilə nəticələnir.

Kruiz turizm bazarının digər statistik göstəricilərinə nəzər salsaq, görərik ki, 2015-ci ildə 62 kruiz xətti mövcud olmuşdur və bunlar birlikdə 471 kruiz gəmisi vasitəsilə həyata keçirilmişdir, halbuki 2013-cü ildə kruiz gəmilərinin sayı 393 ədəd idi. Ümumi olaraq 2016-cı ildə kruiz şirkətləri 27 yeni dəniz, okean və çay kruiz marşrutları üzrə ilk səyahətlərini həyata keçirmişlər [12]. Kruiz xətləri üzrə Beynəlxalq Assosiasiyasının məlumatına əsasən Qlobal kruiz sənayesində kruiz gəmilərində sərnişinlərin rahat səyahət etməsi üçün çarpayıların sayı 466 mindən çoxdur və bu qlobal kruiz sənayesinin 95%-ni əhatə edir. Kruiz səyahətlərinə olan tələbat əsasən Şimali Amerika ölkələrinin sakinləri tərəfindən formalaşır. Belə ki, onlar kruiz sərnişinlərinin 59%-ni təşkil edir. Kruiz bazarı hazırda Avropanın və dünyanın digər qitələrinin artan tələbatı ilə idarə olunur. Avropalı turistlər kruiz bazarının 26%-ni əhatə edir [4]. Avropalı kruiz istifadəçiləri inkişaf etməkdə olan ölkələr üçün maraqlı bir hədəf seqmentidir, çünki onlar həmin ölkələrin mədəniyyətini, təbiətini və turizmini öyrənməkdə daha maraqlıdırlar. Kruiz şirkətləri bu kimi tələbatları nəzərə alaraq, kruiz xətlərini mövsümə uyğun olaraq genişləndirir. Həmin hədəf qrupları isə Avropalı kruiz istifadəçiləri və inkişaf etməkdə olan ölkələrin yeni destinasiyaları hesab edilir.




Şəkil 2. 2015-2019-cu illərdə kruiz istifadəçilərinin regionlar üzrə sayı, milyon nəfər [12]

Kruiz sənayesində Avropa bazarına nəzər yetirsək, görərik ki, Almaniya, Birləşmiş Krallıq və İrlandiya kruiz turizminin əsas istifadəçiləri hesab edilir. Belə ki, həmin dövlətlər Avropanın kruiz səyahətinə olan tələbatının müvafiq olaraq 28% və 26%-ni təşkil edir. İtaliya, Fransa, İspaniya və digər dövlətlərdə kruiz turizminin istifadəçiləri hesab olunur. İspaniya dövləti turizm sahəsi üzrə güclü inkişaf etməsinə baxmayaraq, kruiz turizmi üzrə inkişaf göstəriciləri son dövrlərdə stabil olaraq davam edir. Aparılan statistik araşdırmalara görə 2011-ci ildən hazırkı dövrə qədər kruiz istifadəçilərinin sayında azalma müşahidə edilir. Bundan əlavə, 2011-2017-ci illər Avropanın kruiz sənayesinə diqqət yetirsək, ən çox kruiz istifadəçisi olan ölkə Almaniya olduğu halda, ən çox kruiz istifadəçisi qəbul edən ölkə İtaliya olmuşdur.




Şəkil 3. 2011-2018-ci illərdə Avropanın əsas kruiz bazarının istifadəçi dövlətləri (milyon nəfərlə) [11]

Ümumilikdə 2017-ci ilin rəsmi statistik göstəricilərinə əsasən Avropanın cəmi 6.96 milyon nəfəri kruiz turizminin əsas iştirakçıları olduğundan bu rəqəm 2018-ci ildə 7 milyondan çox təşkil etmişdir. Dünyəvi olaraq Karib dənizi və Avropanın Aralıq dənizi sahilləri kruiz səyahətlərinə keçirilmə arealına görə dominantlıq edirlər. Bunun da əsas səbəbi ondan ibarətdir ki, həmin ərazilərin iqlim şəraiti və mövsümlük amilləri daha əlverişlidir. Karib hövzəsində hər il 1 milyondan çox kruiz

sərnişini qəbul edən adalar siyahısına Baham adalarını, Vircin adalarını (ABŞ), Kayman, Yamayka və Puerto-Riko adalarını misal çəkmək olar. Kruiz turizminin əvvəlki dövrdən indiki dövrə qədər daimi olaraq inkişaf etdiyi üç bölgə vardır ki, bu bölgələr Aralıq dənizinin sahilləri, Karib hövzəsində yerləşən dənizlər və Şimali Avropanın Baltik dəniz sahili aiddir. 2017-ci ildə əsas kruiz istifadəçiləri olan Avropalı turistlərin 50%-i Aralıq dənizi sahillərinə, 29%-i Karib hövzəsi ərazilərə və 21%-i isə Şimali Avropanın Baltik dənizi sahillərinə səyahət etmişdir (şəkil 4).




Şəkil 4. 2017-ci il Avropalı kruiz istifadəçilərin üz tutduğu
əsas kruiz regionları [11]

Kruiz turizminin digər mühüm xüsusiyyətlərinə nəzər salsaq, qeyd edə bilərik ki, bu turizm növünün turizm sahəsinə müxtəlif təsirləri vardır. Bu təsirlərə iqtisadi, təbii və sosial təsirləri aid etmək olar. Kruiz turizminin iqtisadi təsiri dedikdə burada əsas məsələ həmin turizm növünün ölkənin iqtisadiyyatına və turizm sənayesinə nə dərəcədə gəlirli bir sahə olduğu, digər sahələrin inkişafında yardımçı rolunu oynadığını və digər nüanslar nəzərə alınır. Belə ki, aparılan araşdırmalara əsasən müəyyən edilmişdir ki, 2014-cü ildə kruiz sənayesi dövlətlərə 119 milyard dollar gəlir gətirdiyi halda, 2017-ci ildə bu rəqəm 127 milyard dollardan çox olmuşdur. Həmçinin 2014-cü ildə kruiz sənayesində iş yerlərinin sayı 939.000 olduğu halda, 2017-ci ildə bu rəqəm 1,021,681-dən çox olmuşdur. Son olaraq qeyd edə bilərik ki, kruiz sənayesində işləyən şəxslərin maaşları ümumilikdə 39,3 milyard dollar təşkil etdiyi halda, bu rəqəm 2017-ci ildə 41,2 milyard dollar olmuşdur [7]. Bundan əlavə, kruiz iştirakçıları gəminin sahil aldığı destinasiyalarda yerləşən əyləncə müəssisələrinə, qidalanma müəssisələrinə və digər yerlərə az miqdarda məbləğ ayırırlar. Bunun da əsas səbəbi kruiz gəmilərində qeyd olunan bütün turist infrastrukturunun yaradılmasıdır. Belə ki, müşahidə edilmişdir ki, hər bir turistin kruiz gəmisinin yan aldığı ərazilərdə ortalama sərf etdiyi məbləğ 73 avro təşkil edir [12]. Həmçinin sahil ərazisində təşkil olunan sahil ekskursiyaları əsasən kruiz şirkətləri tərəfindən turistlərə təklif edilir.

Ölkəmizə gəldikdə isə Azərbaycan Xəzər dənizinin sahilində yerləşmişdir və Xəzər dənizi kruiz turizmi üçün böyük potensiala malikdir. Azərbaycanın ərazisinin nisbətən kiçik olmasına baxmayaraq, dünyanın ən böyük gölü olan Xəzərin sahilində yerləşməsi ölkənin kruiz turizmini müsbət istiqamətə dəyişmişdir. Xəzər dənizin geniş perspektivlərə malik olması turizm mövqeyi cəhətdən böyük əhəmiyyət daşıyır. Unikal və təbii resurslarla çox zəngin olan Xəzər dənizi Asiya və Avropanın birləşdiyi yerdə yerləşməsi iqtisadi coğrafi baxımından əlverişlidir. Yer kürəsinin ən böyük qapalı su tutarı olan bu təbii su obyekti qəbul olunmuş coğrafi tərifə görə göldür. Ancaq öz ölçüləri, faunasının səciyyəsi və hidrometeoroloji rejiminə görə dənizə oxşayır və həmin səbəbdən Xəzər dənizi adlanır. Xəzər dənizinin sahilləri çox girintili-çıxıntılı olması ilə digər göllərdən daha çox seçilir. Materikin içinə daxil olmuş yerlərdə dəniz körfəzlər əmələ gətirir. Onlardan ən

böyükləri olan Qaraboğazqol, Manqışlak (Qazaxıstan), Türkmən, Bakı, Qızılağac, Ənzəli (Ənzəli), Gürgan (Qorqan) və digər körfəzlərin adlarını qeyd etmək olar. Onların ümumi sahəsi 350 kv.km-dir. Azərbaycanın sahil zonasında adalar Abşeron və Bakı arxipelaqını (adalar qrupu) əmələ gətirir. Xəzər dənizinə irili-xırdalı olaraq Azərbaycandan və digər qonşu ölkələrdən (Rusiya, İran) irili-xırdalı 130 çay tökülür. Bu çaylar arasında əsas yeri Volqa çayı tutur. Xəzərə çaylardan tökülən su kütləsinin 90%-i üç çayın payına düşür ki, bunlar Volqa (80%), Kür (6%) və Ural (5%) çaylardır. Terek, Sulak, Samur çayları ümumilikdə Xəzərə tökülən suyun 5%-ni, yerdə qalan su hissəsini isə İranın xırda çayları tutur. Xəzər dənizinin şərq sahilindən heç bir çay dənizə tökülmür ki, bunun da əsas səbəbi yay mövsümü ərzində çayların bir hissəsinin qurumasıdır. Baxmayaraq ki, Xəzər qapalı su hövzəsinə daxildir, lakin buraya tökülən bol sulu çaylar, əsasən, Volqa çayı vasitəsilə Dünya Okeanına çıxmaq mümkündür. Azərbaycanın dünya kruiz regionuna çıxmaq üçün ən əlverişli və ideal su yolu isə Xəzər dənizi–Volqa çayı–Volqa–Don kanalı–Don çayı–Azov dənizidir. Azərbaycan və qonşu ölkələrin gəmiləri Volqa–Don kanalından başqa Volqa–Baltik və Baltik–Ağ dəniz kanalları ilə də dünya okeanın kruiz regionlarına çıxa bilər. Bu kimi proseslərin gələcəkdə həyata keçiriləcəyi şəraitində Xəzərdə kruizlərin inkişafına böyük təsir göstərə bilər. Azərbaycan Xəzər Gəmiçilik Şirkəti ilə OJSC (Açıq səhmdar şirkəti) Moskva Gəmiçilik Şirkəti arasında Xəzər dənizində kruiz gəmiçiliyinin inkişafı barədə memorandum imzalanmışdır. Rusiya Nümayəndə Heyətinin Bakı səfəri zamanı əldə edilən razılaşmada Xəzər dənizi və Qara dəniz arasında kruiz marşrutlarının öyrənilməsi nəzərdə tutulur. Bundan əlavə, turlar Xəzər dənizində Moskva-Bakı, Həştərxan-Mahaçqala-Bakı, Bakı-Ənzəli, Novşəhr-Türkmənbaşı-Aktau-Həştərxan və s. marşrutları üzrə turların təşkili nəzərdə tutulur. Müqaviləyə görə turlar "Böyük Peter" gəmisi ilə həyata keçiriləcək. Razılaşmaya əsasən hər iki ölkənin gəmiçilik şirkətləri "Böyük Peter" gəmisinin marşrutu boyunca turizm obyektlərinin tikintisi ilə məşğul olacaqlar. Bundan əlavə, ACSC (Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi) və MRSC (Dəniz Xilasetmə Alt Mərkəzi) şirkətləri kruiz turlarının təşkil olunması üçün sahil infrastrukturunun qurulması, sərhəd, gömrük və sanitariya nəzarətlərinin təşkil olunması, təchizat və liman ödənişlərinin optimallaşdırılması, qarşılıqlı səmərəli fəaliyyət göstərmək üçün güclərini birləşdirəcəklər. İmzalanmış memoranduma əsasən "Böyük Peter" gəmisinin dəniz turları 2019-cu ilin sonunda start götürəcək. İlk turlar Həştərxan-Bakı marşrutu üzrə həyata keçiriləcək. 2020-ci ildən başlayaraq Rusiyanın digər şəhərlərinə də turlar təşkil olunacaq. Xəzərin ilk kruiz layneri Rusiyanın "Lotos" tərsanəsində tikilir.

Beləliklə, kruiz sənayesi bir çox dövlətlərin turizm sahəsi üçün əsas turizm növü olmaqla bərabər gəlir cəhətdən də əlverişli hesab edilir. Kruiz turizmin təbii təsirinə gəldikdə isə bu təsirin əsas iştirakçıları kruiz gəmiləri hesab edilir. Kruiz gəmiləri tərəfindən hər gedilən kilometrdə ətraf mühitə karbon qazı buraxılır və bu da havada olan oksigen hissəciklərinə qarışanda ətraf mühitə mənfi təsir göstərir. Bundan əlavə, kruiz gəmiləri səfər etdikləri ərazilərdə mövcud olan mərcan qayalıqlarına və ekosistemlərə zərər verə bilər. Kruiz gəmiləri su hövzələrinə müəyyən miqdarda tullantı suları da buraxır ki, bunlar da su hövzələrində yaşayan canlılara mənfi təsir göstərməklə bərabər okean sularının çirklənməsinə də səbəb olur. Məsələn, aparılan araşdırmalara əsasən müəyyən edilib ki, Karib dənizi hövzəsində kruiz gəmilərindən 50 ton tullantı, 800,000 litr çirkli su və 130,000 litr qazlı, neftli su buraxılmışdır [6]. Bunun nəticəsində Karib dənizinin hövzəsi kruiz gəmiləri tərəfindən təxmini olaraq 75% tullantılarla çirkləndirilmişdir. Bundan əlavə, 1993-1998-ci illər arasında Karib hövzəsində yerləşən dənizlərdə 100-dən çox çirklənmə hadisəsi baş verməsi nəticəsində təbiətə və ətraf mühitə zərər dəymişdir. Lakin son dövrlərdə bu kimi problemləri aradan qaldırmaq üçün müxtəlif təşkilatlar tərəfindən təkliflər irəli sürülmüşdür. Məsələn, Beynəlxalq Dəniz Təşkilatının MARPOL konvensiyasında tövsiyə olunmuş təkliflərə əsasən üç əsas tamamlayıcı üsul qəbul edilmişdir. Bunlara tullantı məhsullarının azaldılması, tullantı məhsullarının təkrar emal edilməsi və yeni texnologiyanın tətbiq edilməsi aiddir [6]. Bu üsullardan biri olan tullantı məhsullarının kruiz gəmisində yığılaraq limanın sahilində ya yandırılaraq elektrik enerjisinə çevirməklə, yaxud da tullantıları yeni texnologiyaları tətbiq etməklə təkrar emal edərək sənaye istehsalına buraxmaq və ya əlavə elektrik enerjisinə çevirmək mümkündür. Hazırda bu üsullardan Hollandiyanın Roterdam və digər limanlarında istifadə edilir. Bu üsul olduqca əlverişli üsuldur. Bundan başqa, müxtəlif dəniz

təşkilatları tullantıları təkrar emal etmək üçün müxtəlif təkliflər irəli sürmüşdür, həmin təkliflər MARPOL konvensiyasında qəbul edilmiş qərarlarla uyğunluq təşkil edir. Kruiz turizmin digər bir təsiri isə sosial təsirdir ki, bu təsirin adından bilindiyi kimi daha çox insanlara aid edilməkdədir. Belə ki, kruiz səyahətləri olduqca bahalı bir turizm növü hesab edildiyi üçün maddi cəhətdən aşağı təbəqəli insanların bu turizm növündən istifadə etmək payı çox aşağı səviyyədədir. Kruiz şirkətləri bu kimi problemləri aradan qaldırmaq üçün kruiz səyahətlərinin iki yerə ayırmışdır ki, bunlar da aşağı büdcəli kruiz səyahətləri və yüksək büdcəli kruiz səyahətləridir. Beləliklə, aşağı təbəqəli insanlar birinci tipli kruiz səyahətlərini seçməklə kruiz səyahətlərinin iştirakçıları ola bilər. Bundan başqa, kruiz turizminin sosial təsirlərindən biri isə işsizlik probleminin aradan qaldırmaqdır. Kruiz səyahətlərində kruiz gəmilərində, sahil ərazilərində minlərlə iş yerləri açılır ki, bu da müxtəlif ölkələrdə olan işsizlik problemini qismən də olsa, aradan qaldırır. Artıq 2018-ci ildə istehsal edilmiş kruiz gəmilərində yeni texnologiyalardan istifadə etməklə ətraf mühitə yayılacaq olan mənfi təsirləri aradan qaldırır. Kruiz turizmində inkişaf etmək istəyən ölkələr mövcud turizm potensialını araşdırmalı və bu istiqamətdə təqdirəlayiq fəaliyyət göstərməyi planlaşdırmalıdır.

## Nəticə

Nəticə etibarilə, dünya ölkələri turizmin kruiz növünün perspektivlərindən istifadə edərək bu istiqamətdə lazımi tədbirlər görürlər. Azərbaycan və Rusiya Xəzərdə kruiz gəmiçiliyinin inkişafı üçün öz güclərini birləşdirirlər, bu sahənin inkişaf etməsi üçün hər iki dövlət Xəzər dənizinin sahilində sərnişin vağzallarının, keçid məntəqələrinin və digər infrastruktur vasitələrinin tikilməsində maraqlıdırlar. Bu turizm növünün inkişaf etdirilməsi ilə bağlı artıq 2019 və 2020-ci illərə aid kruiz marşrutları və layihələr hazırlanır.

Təklif edə bilərik ki, kruiz turizmi inkişaf etdirmək istəyən Azərbaycan ətraf mühitə təsirləri diqqətlə araşdırmalı və bu təsirləri mümkün qədər azaltmaq üçün müxtəlif üsullar hazırlamalıdır. Buna görə də kruiz şirkətləri dövlət turizm təşkilatları ilə birlikdə əməkdaşlıq edərək dəniz suyunun təmizlənməsini, limanlar ətrafında turizm müəssisələrinin infrastrukturunu təkmilləşdirmək və s. kimi prosesləri həyata keçirmək və təsirləri aradan qaldırmaq üçün müxtəlif təkliflər irəli sürməlidirlər.

**Sədi Əbdürəhmanov, Fuad Mahmudov**
**Kruizlərin dünya turizmində rolu**
**Xülasə**

Tədqiqatın əsas məqsədi kruizlərin hazırkı vəziyyəti, inkişafı və gələcəkdə proqnozlaşdırılan perspektivlərinin ölkələrin turizm sahəsində olan rolunun araşdırmasından ibarətdir. Kruiz turizmi turistlərə su nəqliyyatı vasitəsilə su üzərində müxtəlif ərazilərin kəşf edilməsinə, həmin ərazilərdə səyahət etməklə bərabər müxtəlif ekskursiyaların təşkil olunmasına imkan yaradan su nəqliyyatının ən populyar növlərindən biridir. Beləliklə, kruiz turizmi müasir dövrdə turistlərin istirahəti üçün müasir yeniliklərlə və bol əyləncələrlə təmin olunmuş turizm məhsulu ilə təmin edir. Kruiz turizminin böyük perspektivlərə malik olması bu turizm növündə ixtisaslaşan ölkələrə böyük üstünlüklər qazandırır və onların turizmdə inkişaf etmələrinə, həmçinin turizmdən əldə olunan gəlirlərini artırmalarına səbəb olur.

**Сади Абдурахманов, Фуад Махмудов**
**Роль круизов в мировом туризме**
**Резюме**

Основной целью исследования является изучение текущего состояния круизов, их развития и будущих перспектив стран в области туризма. Круизный туризм является одним из самых популярных видов водного транспорта, позволяющий туристам с помощью водного транспорта исследовать различные территории на водной поверхности и, наряду с путешествием на этих же территориях, организовывать различные экскурсии. Таким образом, круизный туризм предоставляет туристические продукты с современными инновациями и множеством развлечений для туристов. Большие перспективы круизного туризма дают

странам, специализирующимся в этом типе туризма, множество преимуществ для ускорения развития туризма и увеличения доходов от туризма.

**Sadi Abdurahmanov, Fuad Mahmudov**

**The roles of cruise in the world tourism**

**Summary**

The main purpose of the research is to examine the current state of the cruises, their development and the future prospects of the countries in the field of tourism. Cruise tourism is one of the most popular types of water transport, allowing tourists to explore various areas on the water surface with the help of water transport and, along with traveling in the same areas, organize various excursions. Thus cruise tourism provides touristic products with modern innovations and plenty of entertainment for the tourists. The great prospects of cruise tourism give the countries specializing in this type of tourism a great deal of advantages to develop tourism and increase income from tourism.

**Ədəbiyyat**

1. Ergün Kaya, Erkin Karadayı, Meserret Nalçakan, Ender Gerede, Haydar Aras, Ünal Battal, Ferban Kuyucak. Ulaştırma sistemleri. Anadolu Üniversitesi, Eskişehir: Mayıs, 2005
2. Mehmet Gürdal Turizm Ulaştırması. Karınca Matbaası. İzmir-1995
3. İncekara, A. & Yılmaz, S. Dünyada ve Türkiye'de Kruvaziyer Turizmi. İstanbul Ticaret Odası, İstanbul-2002
4. Tolga Farih Çakmak, Fusun İstanbullu Dinçer. Deniz Turizmi. Detay yayıncılık. Ankara-2016
5. https://www.cbi.eu/market-information/tourism/cruise-tourism/
6. https://www.ukessays.com/essays/tourism/the-negative-impacts-of-cruise-tourism-tourism-essay.php
7. https://www.cruising.org/docs/default-source/research/clia-2018-consumer-research.pdf?sfvrsn=0
8. https://cruising.org/docs/defaultsource/research/clia_sotci_preso_2018_061218.pdf?sfvrsn=2
9. https://www.e-unwto.org/doi/pdf/10.18111/9789284419876
10. http://www.f-cca.com/downloads/2018-Cruise-Industry-Overview-and-Statistics.pdf
11. https://cruising.org/docs/default-source/market-research/europe_2017_ccfinal.pdf?sfvrsn=0
12. https://www.cbi.eu/market-information/tourism/cruise-tourism/

# AZƏRBAYCANDA SU İSTEHLAKININ STATİSTİK TƏDQİQİ

***Saleh Mövlamov***
*Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi*
*Elmi-Tədqiqat və Statistik İnnovasiyalar Mərkəzinin*
*Elmi araşdırmalar və statistik tədqiqatlar şöbəsinin aparıcı iqtisadçısı, i.ü.f.d*
*AZ1136, Bakı şəhəri, İnşaatçılar prospekti 81*
*e-poçt: movlamov@azstat.org*

***Şahin Mustafayev***
*Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi*
*Elmi-Tədqiqat və Statistik İnnovasiyalar Mərkəzinin*
*Statistik innovasiyaların tətbiqi şöbəsinin iqtisadçısı*
*AZ1136, Bakı şəhəri, İnşaatçılar prospekti 81*
*e-poçt: shahinm@azstat.org*

**Açar sözlər**: su tutumu, su verimi, su istehlakı, adambaşına su istehlakı, su təhlükəsizliyi, çirkab sular, içməli su mənbələri, dəniz suyundan istifadə, təbii sərvətlərdən səmərəli istifadə, meşələrin qorunması.
**Ключевые слова:** водоёмкость, водоснабжение, водопотребление, водопотребление на душу населения, водная безопасность, грязная вода, источники питьевой воды, использование морской воды, эффективное использование природных ресурсов, охрана лесов.
**Keywords:** water retention, water supply, water consumption, water consumption per capita, water safety, waste water, source of drink water, use of marine water, efficient use of natural resources, forest protection.

İndiki dövrdə su çatışmazlığı ümumdünya problemlərindən biri sayılır. Alimlərin hesablamalarına görə dünyada olan su ehtiyatlarının çox az hissəsi içməli və təsərrüfatda istifadə edilə bilən şirin sulardır. Yer səthində olan şirin su ehtiyatlarının ölkələr və regionlar üzrə qeyri-bərabər paylanması və onların çirklənməsi də mühüm problemlərdən hesab olunur. Əhalinin suya olan tələbatı artdıqca çirkab sularının miqdarı da artır. Dünyada 50 minə yaxın kimyəvi maddə istehsal edilir. Bu məqsədlə böyük həcmdə su istehlak edilir və böyük hissəsi tullantı kimi su obyektlərinə axıdılır [1].

Dünya çox sürətlə inkişaf edir, əhali getdikcə artır, sürətli sosial və iqtisadi inkişaf isə su ehtiyatlarının tükənməsinə gətirib çıxarır. Ekoloji, həmçinin iqlim dəyişikliyi bütün planetdə içməli su ehtiyatlarının azalmasında böyük rol oynayır. Alimlərin əksəriyyəti şübhə etmirlər ki, 30-50 ildən sonra içməli su ehtiyatları, əsasən, tükənəcək. Bu qaçılmaz böhrandan çıxmaq üçün dünyanın bir çox ölkələrində dövlət proqramları hazırlanır.

Dövlətin su təhlükəsizliyi milli təhlükəsizliyin tərkib hissəsi olmaqla ən vacib dövlət məsələlərindən biridir. Son illərdə həm elmi ədəbiyyatlarda, həm də dünyanın müxtəlif ölkələrinin dövlət və ictimai xadimlərinin çıxışlarında birbaşa və ya dolayısı ilə su təhlükəsizliyi anlayışından geniş istifadə olunur.

*Azərbaycan Respublikasında Su Məcəlləsi Azərbaycan Respublikasının Prezidenti tərəfindən 1997-ci il 26 dekabr tarixində təsdiq edilmişdir.*

Dünya üzrə cəmi su ehtiyatı 1386 milyon kub kilometrdir. Su ehtiyatlarının 95.5%-i duzlu, yalnız 2.5% içməli sudur. İçməli suyun 47 min kub kilometrini çaylar təşkil edir. Bunun da ancaq 50%-i istifadə edilir. Cəmi istifadə edilən suyun 69%-i kənd təsərrüfatının, 21%-i sənaye sahələrinin, 6%-i kommunal təsərrüfatların və anbarların payına düşür. Su ehtiyatlarından istifadə səviyyəsi Misirdə 97.1%, İsraildə 84.4%, Ukraynada 40%, İtaliyada 33.7%, Almaniyada 27.1%, Polşada 21.9%, ABŞ-da 18.9%, Türkiyədə 17.3%, Rusiyada 2.7%-dir [2].

Təhlil göstərir ki, dünyanın müxtəlif regionlarında su ehtiyatlarından istifadə olduqca

müxtəlifdir. Sudan ən çox kənd təsərrüfatında istifadə olunur. Hazırda dünyada 250 milyon hektara yaxın kənd təsərrüfatı bitkiləri, bağlar və plantasiyalar suvarılır [2].

Azərbaycan Respublikasında əsas iqtisadi fəaliyyət növləri üzrə istehlak olunmuş suyun miqdarı və onun qrafiki aşağıdakı kimidir:

**Cədvəl 1**

**2008-2017-ci illərdə Azərbaycan Respublikasında əsas iqtisadi fəaliyyət növləri üzrə su istehlakı, milyon m$^3$-lə [3]**

| İllər | Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | Mədən-çıxarma sənayesi | Emal sənayesi | Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | Su təchizatı, tullantıların təmizlənməsi və emalı | Digər sahələrdə xidmətlərin göstərilməsi |
|---|---|---|---|---|---|---|
| 2008 | 5445.3 | 55.6 | 94.3 | 1950.1 | 244.6 | 96.1 |
| 2009 | 5577.9 | 68.7 | 73.9 | 1525.6 | 283.1 | 109.8 |
| 2010 | 5476.8 | 236.8 | 71.0 | 1485.4 | 330.7 | 113.9 |
| 2011 | 5716.5 | 188.2 | 117.3 | 1605.2 | 252.6 | 132.0 |
| 2012 | 5745.0 | 190.6 | 52.2 | 1949.1 | 225.5 | 86.1 |
| 2013 | 5813.2 | 186.3 | 52.2 | 1820.9 | 239.2 | 117.1 |
| 2014 | 5931.4 | 222.5 | 48.8 | 1558.7 | 244.5 | 109.4 |
| 2015 | 6457.7 | 264.8 | 42.6 | 1507.7 | 239.5 | 54.0 |
| 2016 | 6320.3 | 277.7 | 46.0 | 1861.2 | 228.0 | 90.7 |
| 2017 | 6531.3 | 304.1 | 26.4 | 1974.2 | 225.0 | 92.7 |

Cədvəldən göründüyü kimi, 2008-ci illə müqayisədə 2017-ci ildə əsas iqtisadi fəaliyyət növləri üzrə su istehlakı: kənd təsərrüfatı və balıqçılıqda -1086.05 milyon m$^3$ (20%); mədənçıxarma sənayesində 248.49 milyon m$^3$ (47%); elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatında 24.17 milyon m$^3$ (1%) artmış; emal sənayesində 67.94 milyon m$^3$ (72%); su təchizatı, tullantıların təmizlənməsi və emalında 19.61 milyon m$^3$ (9.1%) və digər sahələrdə xidmətlərin göstərilməsində isə 3.4 milyon m$^3$ (4.1%) azalmışdır.




Şəkil 1. 2008-2017-ci illərdə Azərbaycan Respublikasında əsas iqtisadi fəaliyyət növləri üzrə su istehlakı

İsveçin paytaxtı Stokholmda "Dünya su həftəsi forumu"nda Birləşmiş Millətlər Təşkilatı tərəfindən hazırlanaraq təqdim edilən "İqlim dəyişiklikləri və su" mövzusunda hesabata görə dünyadakı iqlim dəyişiklikləri su qaynaqlarına da təsir edir. Hesabata görə 2050-ci ildə dünyadakı 2 milyard insanın sudan məhrum olacağı gözlənilir və 30 il sonra isə 3 milyard insan istifadə edə biləcəyi su ehtiyatlarını itirə bilər. Hazırda dünya əhalisinin 20%-ni təşkil edən 30 ölkə su qıtlığı ilə

üzləşir. 2025-ci ildə isə bu ölkələrin sayı 50-yə çatacaq və dünya əhalisinin 25%-i su problemi ilə üz-üzə gələ bilər [2].

Azərbaycan Respublikasında təbii mənbələrdən götürülən və istifadə olunan suyun həcmi aşağıdakı kimidir.

**Cədvəl 2**

**2008-2017-ci illərdə Azərbaycan Respublikasında təbii mənbələrdən götürülən və istifadə olunan şirin su [3]**

| İllər | ÜDM, milyon manatla | Əhalinin sayı, min nəfər | Daxili axını, milyon $m^3$ | Qonşu ölkələrdən səth sularının axını, milyon $m^3$ | Bərpa olunan şirin su ehtiyatları, milyon $m^3$ | İstehlak olunan su, milyon $m^3$ |
|---|---|---|---|---|---|---|
| 2008 | 37448.6 | 8779.9 | 10264.0 | 16687.0 | 26951.0 | 7885.9 |
| 2009 | 32791.5 | 8897.0 | 12401.0 | 16806.0 | 29207.0 | 7639.0 |
| 2010 | 39588.5 | 8997.6 | 10641.0 | 23132.0 | 33773.0 | 7714.6 |
| 2011 | 49026.0 | 9111.1 | 12299.0 | 20263.0 | 32562.0 | 8011.8 |
| 2012 | 51351.7 | 9235.1 | 10907.0 | 15565.0 | 26472.0 | 8248.5 |
| 2013 | 54304.0 | 9356.5 | 10030.0 | 14340.0 | 24370.0 | 8228.8 |
| 2014 | 54601.1 | 9477.1 | 9684.0 | 13967.0 | 23651.0 | 8115.3 |
| 2015 | 49521.0 | 9593.0 | 7985.0 | 14217.0 | 22202.0 | 8566.3 |
| 2016 | 55503.7 | 9705.6 | 10792.0 | 14854.0 | 25646.0 | 8823.9 |
| 2017 | 55434.8 | 9810.0 | 8612.0 | 12139.0 | 20751.0 | 9153.7 |

Cədvəldən göründüyü kimi, 2008-ci illə müqayisədə 2017-ci ildə əhalinin sayı 12%, ÜDM 48%, su istehlakı 16% artdığı halda, daxili mənbələrdən su axını 22%, qonşu ölkələrdən səth sularının axını 28%, bərpa olunan şirin su ehtiyatları 23% azalmışdır.

Qeyd etmək lazımdır ki, iqtisadiyyatı sürətlə inkişaf edən Azərbaycan Respublikasında suya olan tələbat çox sürətlə artmaqdadır. 1913-cü ildə adambaşına 283 kubmetr su istehlak edildiyi halda, 1986-cı ildə bu göstərici müvafiq olaraq 1183 kubmetr təşkil etmişdir. XX əsrin sonunda adambaşına su istehlakı 1500 kubmetr (1913-cü illə müqayisədə 5.3 dəfə çox) olmuşdur. Tədqiqat göstərir ki, adambaşına su istehlakı ilə çirkab sularının həcmi arasında asılılıq düz mütənasibdir. Odur ki, Azərbaycanın su hövzələrindən səmərəli istifadə edilməsi mühüm problemlərdən biridir. Ona görə də su ehtiyatlarından istifadə edilməsi sahəsində kompleks tədqiqat işləri daha da genişlənməlidir.

Sadə statistik modellər əsasında hesablanmış əsas demoqrafik, iqtisadi, sosial göstəricilərin (ÜDM, əhalinin sayı və su istehlakı) proqnozu aşağıdakı kimidir:

**Cədvəl 3**

**2020-2050-ci illərə Azərbaycan Respublikası üzrə ÜDM, əhalinin sayı və su istehlakının proqnozu**

| İllər | ÜDM, milyon manatla | Əhalinin sayı, min nəfər | İstehlak olunan su, milyon $m^3$ |
|---|---|---|---|
| 2020 | 63177.8 | 10049.3 | 8895.4 |
| 2025 | 78560.1 | 10378.7 | 11061.3 |
| 2030 | 97687.5 | 10605.0 | 13754.4 |
| 2035 | 121472.0 | 10760.9 | 17103.3 |
| 2040 | 151047.5 | 10844.0 | 21267.5 |
| 2045 | 187823.8 | 10834.8 | 26445.6 |
| 2050 | 233554.3 | 10735.6 | 32884.4 |

Mənbə: Cədvəl DSK-nın məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Proqnoz göstərir ki, ÜDM-in orta artım sürəti dəyişməz qalarsa və iqtisadiyyatın strukturunda köklü dəyişiklik aparılmazsa, 2030-cu ildə ÜDM 1.7, su istehlakı 1.5, əhalinin sayı 1.08 dəfə; 2040-cı ildə ÜDM 2.7, su istehlakı 2.3, əhalinin sayı 1.1 dəfə; 2050-ci ildə ÜDM 4.2 və su istehlakı 3.6, əhalinin sayı isə 1.09 dəfə artacaqdır.

Keçmiş SSRİ dövründə təbii sərvətlər dəyərsiz olduğu üçün onların iqtisadi səmərəliliyini müəyyən etmək mümkün deyildi. Lakin ölkəmiz müstəqillik əldə etdikdən sonra istehlak olunan suyun iqtisadi qiymətləndirilməsi və iqtisadi metodlarla idarəçilik sudan səmərəli istifadə problemini qarşıya qoymuşdur.

İnkişaf etmiş dövlətlərdə sudan istifadənin səmərəliliyini müəyyən etmək üçün inteqral göstəricilər (su tutumu -1000 dollar əlavə dəyərə istehlak olunan suyun miqdarı və su verimi – 1 $m^3$ suyun yaratdığı əlavə dəyər) hesablanır. Bu göstəricilərdən ölkənin dayanıqlı inkişaf strategiyasının hazırlanmasında istifadə edilir.

Azərbaycan Respublikasında 2008-2017-ci illərdə əsas iqtisadi fəaliyyət növləri üzrə əlavə dəyər və onun qrafiki aşağıdakı kimi verilmişdir:

**Cədvəl 4**

**2008-2017-ci illərdə Azərbaycan Respublikasında əsas iqtisadi fəaliyyət növləri üzrə əlavə dəyər, milyon manatla [3]**

| İllər | Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | Mədənçıxarma sənayesi | Emal sənayesi | Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | Su təchizatı, tullantıların təmizlənməsi və emalı | Digər sahələrdə xidmətlərin göstərilməsi |
|---|---|---|---|---|---|---|
| 2008 | 2246.0 | 21164.5 | 1888.7 | 438.0 | 82.8 | 12209.3 |
| 2009 | 2179.5 | 15090.4 | 1967.3 | 386.7 | 65.8 | 13670.7 |
| 2010 | 2344.6 | 19482.2 | 2011.9 | 402.0 | 46.1 | 15301.7 |
| 2011 | 2643.5 | 24980.0 | 2077.2 | 887.0 | 66.5 | 18371.8 |
| 2012 | 2813.7 | 23570.1 | 2321.8 | 1082.2 | 66.3 | 21497.6 |
| 2013 | 3122.2 | 22790.2 | 2452.8 | 1107.6 | 91.1 | 24740.1 |
| 2014 | 3139.2 | 20222.3 | 2777.8 | 1078.2 | 91.1 | 27292.5 |
| 2015 | 3359.4 | 14370.2 | 2714.0 | 734.7 | 93.5 | 28249.2 |
| 2016 | 3386.8 | 18557.0 | 2978.9 | 755.6 | 106.5 | 29718.9 |
| 2017 | 3949.3 | 23945.5 | 3311.2 | 714.7 | 115.8 | 32976.7 |

2017-ci ildə 2008-ci illə müqayisədə əsas iqtisadi fəaliyyət növləri üzrə əlavə dəyər: kənd təsərrüfatı və balıqçılıqda 1703.3 milyon manat (75.8%); mədənçıxarma sənayesində 2781.0 milyon manat (13.1%); emal sənayesində 1422.5 milyon manat (75.3%); elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatında 276.7 milyon manat (63.1%); su təchizatı, tullantıların təmizlənməsi və emalında 33.0 milyon manat (39.8%); digər sahələrdə xidmətlərin göstərilməsində 20767.4 milyon manat (2.7 dəfə) əlavə dəyər artmışdır.




Şəkil 2. 2008-2017-ci illərdə Azərbaycan Respublikasında əsas iqtisadi fəaliyyət növləri üzrə əlavə dəyər

İqtisadi fəaliyyət növləri üzrə 1000 manat əlavə dəyərə düşən istehlak olunan suyun miqdarı və onun qrafiki aşağıdakı kimi olmuşdur:

**Cədvəl 5**

**2008-2017-ci illərdə Azərbaycan Respublikasında 1000 manat əlavə dəyərə düşən su istehlakı (əsas iqtisadi fəaliyyət növləri üzrə), m³**

| İllər | Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | Mədənçıxarma sənayesi | Emal sənayesi | Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | Su təchizatı, tullantıların təmizlənməsi və emalı | Digər sahələrdə xidmətlərin göstərilməsi |
|---|---|---|---|---|---|---|
| 2008 | 2424.4 | 2.6 | 49.9 | 4452.2 | 2953.6 | 7.9 |
| 2009 | 2559.3 | 4.6 | 37.5 | 3945.3 | 4302.1 | 8.0 |
| 2010 | 2335.9 | 12.2 | 35.3 | 3695.1 | 7172.9 | 7.4 |
| 2011 | 2162.5 | 7.5 | 56.5 | 1809.7 | 3798.2 | 7.2 |
| 2012 | 2041.8 | 8.1 | 22.5 | 1801.0 | 3401.1 | 4.0 |
| 2013 | 1861.9 | 8.2 | 21.3 | 1644.0 | 2625.7 | 4.7 |
| 2014 | 1889.5 | 11.0 | 17.6 | 1445.7 | 2683.3 | 4.0 |
| 2015 | 1922.3 | 18.4 | 15.7 | 2052.2 | 2561.3 | 1.9 |
| 2016 | 1866.2 | 15.0 | 15.4 | 2463.2 | 2140.7 | 3.1 |
| 2017 | 1653.8 | 12.7 | 8.0 | 2762.3 | 1942.6 | 2.8 |

Mənbə: Cədvəl DSK-nın məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Cədvəldən göründüyü kimi, 1000 manat əlavə dəyərə: kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıqda 1653.8 m³; mədənçıxarma sənayesində 12.7 m³; emal sənayesində 8.0 m³; elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatında 2762.3 m³; su təchizatı, tullantıların təmizlənməsi və emalında 1942.6 m³; digər sahələrdə xidmətlərin göstərilməsində 2.8 m³ su istehlak edilmişdir.




Şəkil 3. 2008-2017-ci illərdə Azərbaycan Respublikasında 1000 manat əlavə dəyərə düşən su istehlakı (əsas iqtisadi fəaliyyət növləri üzrə)

2008-2017-ci illərdə Azərbaycan Respublikasında istehlak edilmiş 1 m³ suya düşən əlavə dəyər (əsas iqtisadi fəaliyyət növləri üzrə) və onun qrafiki aşağıdakı kimi olmuşdur.

"Statistika xəbərləri, № 1/2019"
İl 5, Cild 1, Yanvar-mart, səh. 27-37

**Cədvəl 6**

**2008-2017-ci illərdə Azərbaycan Respublikasında istehlak edilmiş 1 m$^3$ suya düşən əlavə dəyər (əsas iqtisadi fəaliyyət növləri üzrə), min manatla**

| İllər | Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | Mədənçıxarma sənayesi | Emal sənayesi | Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | Su təchizatı, tullantıların təmizlənməsi və emalı | Digər sahələrdə xidmətlərin göstərilməsi |
|---|---|---|---|---|---|---|
| 2008 | 0.4 | 380.4 | 20.0 | 0.2 | 0.3 | 127.1 |
| 2009 | 0.4 | 219.6 | 26.6 | 0.2 | 0.2 | 124.5 |
| 2010 | 0.4 | 82.3 | 28.3 | 0.3 | 0.1 | 134.4 |
| 2011 | 0.5 | 132.7 | 17.7 | 0.6 | 0.3 | 139.2 |
| 2012 | 0.5 | 123.7 | 44.5 | 0.6 | 0.3 | 249.7 |
| 2013 | 0.5 | 122.4 | 47.0 | 0.6 | 0.4 | 211.3 |
| 2014 | 0.5 | 90.9 | 56.9 | 0.7 | 0.4 | 249.5 |
| 2015 | 0.5 | 54.3 | 63.7 | 0.5 | 0.4 | 523.1 |
| 2016 | 0.5 | 66.8 | 64.7 | 0.4 | 0.5 | 327.6 |
| 2017 | 0.6 | 78.7 | 125.4 | 0.4 | 0.5 | 355.7 |

Mənbə: Cədvəl DSK-nın məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Cədvəldən göründüyü kimi, istehlak edilmiş 1 kubmetr suya düşən əlavə dəyər: kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıqda 0.6 min manat; mədənçıxarma sənayesində 78.7 min manat; emal sənayesində 125.4 min manat; elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatında 0.4 min manat; su təchizatı, tullantıların təmizlənməsi və emalında 0.5 min manat; digər sahələrdə xidmətlərin göstərilməsində 355.7 min manat olmuşdur.




Şəkil 4. 2008-2017-ci illərdə Azərbaycan Respublikasında istehlak edilmiş 1 m$^3$ suya düşən əlavə dəyər (əsas iqtisadi fəaliyyət növləri üzrə)

2008-2017-ci illərdə Azərbaycan Respublikası üzrə əhalinin sayı və su istehlakı aşağıdakı kimi olmuşdur.

**Cədvəl 7**

**2008-2017-ci illərdə Azərbaycan Respublikasında əhalinin sayı və su istehlakı**

| İllər | Əhalinin sayı, min nəfər | Su istehlakı, min $m^3$ | Adambaşına su istehlakı, $m^3$ |
|---|---|---|---|
| 2008 | 8779.9 | 7885920 | 898.2 |
| 2009 | 8897.0 | 7639010 | 858.6 |
| 2010 | 8997.6 | 7714580 | 857.4 |
| 2011 | 9111.1 | 8011750 | 879.3 |
| 2012 | 9235.1 | 8248460 | 893.2 |
| 2013 | 9356.5 | 8228840 | 879.5 |
| 2014 | 9477.1 | 8115270 | 856.3 |
| 2015 | 9593.0 | 8566330 | 893.0 |
| 2016 | 9705.6 | 8823910 | 909.2 |
| 2017 | 9810.0 | 9153720 | 933.1 |

Mənbə: Cədvəl DSK-nın məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Cədvəldən göründüyü kimi, 2017-ci ildə 2008-ci illə müqayisədə əhalinin sayı 12%, su istehlakı isə 16% artmışdır.




Şəkil 5. 2008-2017-ci illərdə Azərbaycan Respublikasında əhalinin sayı və su istehlakı




Şəkil 6. 2008-2017-ci illərdə Azərbaycan Respublikasında adambaşına su istehlakı

Cədvəldən göründüyü kimi, 2017-ci ildə adambaşına gündəlik su istehlakı 2.6 $m^3$ (933.1/365) olmuşdur. Rəsmi təsdiq edilmiş istehlak səbətində isə gündəlik adambaşına su istehlakı norması (72/365) 0.2 $m^3$-dir. Ölkədə adambaşına su istehlakı şəxsi istehlakdan 13 dəfə böyükdür. Deməli, daha çox su istehlakı iqtisadiyyatın sektorları üzrədir.

Dünya Bankı Azərbaycanı regionun və hətta dünyanın ən az su ehtiyatlarına sahib olan ölkələrin siyahısına daxil edib [10].

"Azərsu" ASC-nin "Su kanal" Elmi-Tədqiqat və Layihə İnstitutunun məlumatlarına görə dünyada içməli su ehtiyatları hər gün azalır və Azərbaycan digər ölkələrdə olduğu kimi, bu vəziyyətlə bağlı zəruri tədbirlər görür. Bu gün ölkəmizdə 30.9 kub kilometr içməli su ehtiyatı vardır. Onlardan 20.6 kub kilometri Azərbaycana xaricdən gələn çayların, qalan 10.3 kub kilometri isə ölkə ərazisindən axan çayların payına düşür [10]. Çaylarımızın hidroenerji ehtiyatı 37 milyard kvt təşkil edir ki, bu da Cənubi Qafqazda Gürcüstandan sonra 2-ci yerdədir.

Abşeron yarımadasında digər iqtisadi rayonlardan fərqli olaraq, içməli suya daha çox tələbat vardır. Bakı şəhəri yerüstü (Samur və Kür çayı) və yeraltı (Şollar) su ehtiyatlarından istifadə edir. Paytaxtın əsas içməli su mənbəyi Ceyranbatan su anbarı hesab edilir. Bu anbarın su tutumu 186 milyon $m^3$, uzunluğu 8.74 kilometr, maksimal eni 2.15 kilometr, maksimal dərinliyi 28.5 metr, orta dərinliyi 14.5 metrdir. Su anbara Samur-Abşeron kanalı vasitəsilə daxil olur. 2015-ci ildə Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksinin açılışı olub. Kompleks Ceyranbatan gölündən suyun götürülməsi məqsədilə tikilən hidrotexniki qurğular, sutəmizləyici qurğunun özü və onun köməkçi infrastrukturu, emal olunan suyun optimal paylanması məqsədilə relyef baxımından hündürlükdə yerləşən anbarlardan və qurğudan anbara qədər magistral kəmərdən ibarətdir [10].

Azərbaycan Respublikasının ərazisində ən dərin süni göl Mingəçevir su anbarıdır ki, onun həcmi 16,1 kub kilometrdir. Azərbaycanda ən yeni su anbarı - Şabran rayonu ərazisində hazırlanmış Taxtakörpü anbarıdır ki, bu da Bakı və Sumqayıt şəhərlərini, Abşeron yarımadasını su ilə təmin edir, respublikanın şimal zonalarında ekoloji balansı qoruyur. Bundan başqa, ölkənin şimal regionunda yerləşən rayonların 150 min hektar ərazisini su ilə təmin edir.

Hazırda Azərbaycanın çaylarının su ehtiyatları 20751 milyon $m^3$-dir. Onun 12139.0 milyon $m^3$-i qonşu ölkələrin ərazisindən gələn tranzit axımdır. Ölkə ərazisində yaranan su ehtiyatlarının ümumi həcmi 8612.0 milyon $m^3$-ə bərabərdir. Kür hövzəsində çayların çirklənmə dərəcəsi yüksək səviyyəyə çatmış, şirin sudan səmərəli istifadə problemi yaranmışdır.

2050-ci ilədək əsas iqtisadi fəaliyyət növləri üzrə su istehlakının əhəmiyyətli dərəcədə artacağını nəzərə alaraq, su qıtlığının aradan qaldırılması, su çatışmazlığından əziyyət çəkən insanlar

üçün su istehlakının və içməli su tədarükünün təmin edilməsi, sudan səmərəli istifadə edilməsi ölkənin iqtisadi strukturlarına (suyun intensiv sərf olunduğu sektorlar) əhəmiyyətli dərəcədə təsir göstərər. Bundan başqa, həm "real" təkmilləşdirmələr, həm də iqtisadi strukturda baş verən dəyişikliklər sudan istifadənin effektivliyində dəyişikliyə təsir göstərir. Bu göstərici kənd təsərrüfatını, mədənçıxarma sənayesini, digər sahələri əhatə edir və supaylayıcı şəbəkənin su təchizatı effektivliyini nəzərə alır.

FAO Dayanıqlı İnkişaf Məqsədləri üzrə su istehlakını vacib amil kimi araşdırır. FAO su qıtlığının üç əsas səviyyəyə bölünməsini təklif edir: aşağı, yüksək və çox yüksək. Su qıtlığının aşağı səviyyəsi dedikdə bütün sektorlar tərəfindən birgə istehlak, su resurslarının dayanıqlılığı və ya istifadəçilər arasında potensial rəqabətə az təsir başa düşülür, yəni 0-25%. Su qıtlığının yüksək səviyyəsi dedikdə bütün sektorlar tərəfindən birgə istehlak, resursların dayanıqlılığına və ya istifadəçilər arasında potensial konflikt vəziyyətlərinə və rəqabətə çox təsir başa düşülür, yəni 25-60%, çox yüksək qıtlıq səviyyəsi isə 60%-dən yüksəkdir.

## Nəticə

Sosial-iqtisadi inkişafın sistemliliyini, dayanıqlığını təmin etmək üçün su ehtiyatlarının məhdud və tükənən olması nəzərə alınmalıdır. Suya olan tələbatı ödəmək üçün daha az su istehlak edən fəaliyyət növlərinin inkişafına üstünlük verilməlidir. Eyni zamanda su tutumlu iqtisadi fəaliyyət növlərində yeni texnologiyaların və innovasiyaların tətbiqinə, su ehtiyatlarından səmərəli istifadəyə, ətraf mühitin və xüsusilə meşələrin mühafizəsinə, bərpasına xüsusi diqqət verilməlidir. Əks halda ekoloji böhranlar iqtisadi böhranlara, iqtisadi böhranlar isə sosial gərginliyə səbəb ola bilər.

Su ehtiyatları canlı aləmin təkamülünü şərtləndirən mühüm dörd amildən biridir, maddi aləmin insan tələbatına uyğunlaşdırılması üçün müstəsna rolu olan əsas bir vasitədir, insanların yaşaması, rifahının yaxşılaşdırılması və inkişafı üçün mühüm sərvətdir. Lakin qonşu dövlətlər tərəfindən aparılan ayrı-ayrı tədbirlər və su obyektlərinin çirkləndirilməsi Azərbaycan Respublikasının maraqlarına ciddi zərər vurur.

Azərbaycan əhalisinin 75%-nin içməli su kimi Kür və Araz çay hövzələrindən istifadə etməsi - su asılılığı hesab edilməlidir.

Cənubi-Qafqaz ölkələrində iqtisadiyyatın inkişafının sabit inkişafı üçün su ehtiyatlarına ciddi yanaşmağı və çayların aşağı axınlarında yaranmış ekoloji vəziyyəti, eləcə də Ermənistanın Azərbaycana təcavüz etdiyini nəzərə alaraq, Kür və Araz çaylarının su ehtiyatlarının kompleks istifadəsi və mühafizəsi beynəlxalq təşkilatların himayəsi ilə təmin edilməlidir.

Su qıtlığı istehlak olunan ərzağın strukturuna və istehlak dəyərinə kəskin təsir edir. Xüsusən ət və ət məhsulları, çörək və çörək məmulatları, yumurta, bitki yağı, kərə yağı, taxıl məhsulları daha çox su tutumlu olduğu üçün bu məhsulların istehsalı regionların təbii-iqlim şəraitindən, fəaliyyət növündən və s. amillərdən asılı olaraq dəyişir.

Azərbaycan Respublikasının regionları su ehtiyatları ilə zəif təmin olunub. Su çatışmazlığı dağlıq ərazilərdə bir o qədər də hiss edilməsə də, düzən ərazilərdə kifayət qədər problem yaradır. Bu problemin həlli müxtəlif yollarla həyata keçirilir. Bura sudan səmərəli istifadə, qapalı su dövriyyəsinə malik istehsala keçid, Xəzər suyunun şirinləşdirilməsi, yeraltı sulardan geniş istifadə, suvarma kanallarının təkmilləşdirilməsi və s. daxildir.

İl ərzində adambaşına istehlak olunan ərzaq məhsullarının su ekvivalenti təqribən 600-1000 kubmetr (ton) suya bərabərdir. 1 kq mal əti istehsal etmək üçün 7 kq taxıl,1 kq taxıl istehsal etmək üçün 1.5 kubmetr (ton) su lazımdır. (1 hektar dəmyə torpaq sahəsinə vegetasiya dövründə 300 millimetr hündürlükdə yağıntı düşsə və həmin sahədən 2000 kq taxıl götürülərsə, onda 1 kq taxılın su ekvivalenti 1.5 tondur). Minimum istehlak səbətində ildə adambaşına istehlak olunan taxılın və ətin su ekvivalentini hesablasaq, onda bir adamın bir ildə istehlak etdiyi taxılın su ekvivalenti 225 ton (150*1.5), mal ətinin isə su ekvivalenti 378 tondur (36*7*1.5). Deməli, təbiətdə su ehtiyatları azaldıqca ərzaq məhsulları (xüsusən taxıl və ət məhsulları) idxalın hesabına təmin ediləcək [9].

**Saleh Mövlamov, Şahin Mustafayev**
**Azərbaycanda su istehlakının statistik tədqiqi**
**Xülasə**

Məqalədə ölkənin milli təhlükəsizliyinin tərkib hissəsi olan su təhlükəsizliyi kimi ən vacib dövlət məsələsindən, eləcə də ölkələr və regionlar üzrə şirin su ehtiyatlarının qeyri-bərabər paylanması və onların çirklənməsinə dair problemlərdən bəhs olunur.

Məqalədə əsas iqtisadi fəaliyyət növləri üzrə əlavə dəyər, su istehlakı, əhalinin sayı müqayisəli təhlil edilmiş, həmin göstəricilərin dinamik sıraları və müvafiq qrafikləri, həmçinin sadə statistik modellər vasitəsilə 2050-ci ilədək proqnozlar verilmişdir. İqtisadiyyatın dayanıqlı inkişafı üçün əsas təbii sərvət hesab edilən su ehtiyatlarının səmərəli istifadəsi, yeni texnoloji innovasiyaların tətbiqi, aşağı su tutumlu iqtisadi fəaliyyət növlərinə transformasiya, idxal olunmuş suyun tənzimlənməsi, ətraf mühitin çirklənməsinin qarşısının alınması yolları araşdırılmışdır.

**Салех Мовламов, Шахин Мустафаев**
**Статистическое исследование водопотребления в Азербайджане**
**Резюме**

В статье речь идет о такой важной составляющей национальной безопасности как водная безопасность, а также о проблемах, касающихся неравномерного распределения и загрязнения запасов питьевой воды по странам и регионам.

В статье проведен сравнительный анализ добавленной стоимости, потребления воды, численности населения по основным видам экономической деятельности, даны динамические ряды и соответствующие графики этих показателей, а также прогнозы до 2050-го года с использованием простых статистических моделей. Для устойчивого развития экономики исследованы пути эффективного использования водных ресурсов, являющихся основным природным богатством, применения новых технологических инноваций, перехода к видам экономической деятельности с низким водопотреблением, регулирования импортируемой воды и предотвращения загрязнения окружающей среды.

**Saleh Movlamov, Shahin Mustafayev**
**Statistical survey of water consumption in Azerbaijan**
**Summary**

The article deals with the most important state task as water security, which is an integral part of the country’s national security, as well as problems related to the uneven distribution and contamination of drinking water by countries and regions.

The article contains a comparative analysis of value added, water consumption, population size by main types of economic activity, time series and corresponding graphs of these indicators, as well as forecasts up to 2050 using simple statistical models. For the sustainable development of the economy, the ways of efficient use of water resources, which are the main natural resources, the use of new technological innovations, the transition to economic activities with low water consumption, regulation of imported water and the prevention of environmental pollution have been studied.

## Ədəbiyyat

1. Azərbaycanda əhalinin və kənd təsərrüfatının su ilə təminatının vəziyyəti. Birdəfəlik statistik müayinə. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Bakı-2001
2. İ.H.İbrahimov. Ətraf mühitin iqtisadiyyatı. Bakı-2015
3. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin saytı: www.stat.gov.az
4. Ətraf mühit və ekologiya. Elmi-metodik konfrans. Bakı-Ozan-1997
5. Ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan səmərəli istifadə. Dərs vəsaiti. Hərbi nəşriyyat. 1996

6. Q.Ş.Məmmədov, M.Y.Xəlilov. Ekologiya, ətraf mühit və insan. Elm nəşriyyatı. Bakı-2006.
7. Экология и экономика природопользования: учебник для студентов вузов, обучающихся по экономическим специальностям / Под ред Э.В. Гирусова. 3-е издание перераб. и доп. М.: ЮНИТИ- ДАНА, 2007, стр. 591
8. Николайкин Н.И. Экология: Учебник для ВУЗов. М.: Дрофа, 2003, стр. 624
9. Браун Л. Экоэкономика: Как создать экономику, оберегающую планету. М.: Издательство «Весь Мир», 2003, стр. 392
10. www.oxu.az 24.12.2018-ci il tarixli
11. Ətraf mühitin mühafizəsinə dair konfrans. Azərbaycan Texniki Universiteti. Bakı-2001

# TİCARƏTDƏ STATİSTİK TƏDQİQATLAR

***Aida İbrahimova***
*Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin*
*Ticarət şöbəsinin müdiri*
*AZ 1136, Bakı şəhəri, İnşaatçılar prospekti, 81*
*e-poçt: aida@azstat.org*

***Zərifə Nağıyeva***
*Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi*
*Elmi-Tədqiqat və Statistik İnnovasiyalar Mərkəzinin*
*Elmi araşdırmalar və statistik tədqiqatlar şöbəsinin müdiri*
*AZ 1136, Bakı şəhəri, İnşaatçılar prospekti, 81*
*e-poçt: zarifan@azstat.org*

**Açar sözlər:** ticarət statistikası, fərdi sahibkar, seçmə müşahidə, statistik reyestr, seçmənin xətası, tədqiqatın yekunlaşdırılması üsulları.
**Ключевые слова:** статистика торговли, индивидуальный предприниматель, выборочное наблюдение, статистический регистр, ошибка выборки, методы оценки результатов исследований.
**Keywords:** trade statistics, individual entrepreneur, sample observation, statistical register, sampling error, methods of estimating research results.

## Giriş

Müəssisə və təşkilatlarda, idarələrdə, bir sözlə, insan fəaliyyətinin mövcud olduğu bütün sahələrdə informasiyanın toplanmasının əsas formasını statistik hesabat təşkil edir. Əsas göstəriciləri özündə əks etdirməklə bu hesabatlar həcminə görə məhduddur ki, elmi məqsədlər və təcrübə üçün dəyişən proseslərdə ortaya çıxan problemləri daha düzgün əks etdirən məlumatlara sistematik şəkildə ehtiyac duyur. Bu səbəbdən bir sıra hallarda rəsmi statistikada öz əksini tapmayan aktual məsələlər üzrə xüsusi təşkil olunmuş tədqiqatların aparılması zərurəti meydana çıxır, bu isə nisbətən daha etibarlı və düzgün metod hesab edilən seçmə müşahidənin tətbiqi ilə əldə olunur.

Seçmə müşahidə metodikası hərtərəfli olaraq riyazi statistika vasitəsilə hazırlanır və elmin, eləcə də təcrübənin müxtəlif sahələrində öz geniş tətbiqini tapmışdır. Bir sıra hallarda seçmə müşahidə bu və ya digər hadisə və proseslərin başdan-başa tədqiqi ilə birgə həyata keçirilir. Seçmə üsulu nisbətən sadə, qənaətcil, operativ, etibarlıdır və müəyyən edilə bilən dəqiqliyə malikdir. Bu üsulla əldə olunmuş məlumatlar tədqiq olunan hadisələri (baş məcmunu) kifayət qədər tam şəkildə əks etdirir.

Seçmə müşahidə nəzəriyyəsi kütləvi hadisə və proseslərdə aşkar edilən və formalaşan statistik qanunauyğunluqlara əsaslanır. Qanunauyğunluqların bu xüsusiyyəti böyük ədədlər qanununda öz əksini tapmışdır. Böyük ədədlər qanununun, eləcə də bütövlükdə statistika elminin riyazi əsasını ehtimal nəzəriyyəsi təşkil edir.

## Statistik tədqiqatın əsas mərhələləri

Statistik tədqiqat əsas etibarı ilə aşağıdakı mühüm mərhələləri əhatə edir [1]:

1) məqsədin qoyuluşu və tədqiqatın məqsədinin formalaşdırılması;
2) tədqiqatın proqramının tərtibi;
3) tədqiqatın təşkilati məsələlərinin həlli;
4) müşahidə vahidlərinin həcminin, planının və seçmə üsulunun təyin olunması;
5) statistik vahidlərin seçilməsi;

6) seçilmiş vahidlərin əlamət göstəricilərinin statistik təhlili;
7) müşahidə məlumatlarının yoxlanması, nəticələrin dəqiqliyinə, tamlığına və mövcud səhvlərin düzəldilməsi üçün makro və mikro nəzarətin həyata keçirilməsi;
8) müşahidə məlumatlarının ümumiləşdirilməsi və riyazi-statistik xarakteristikaların hesablanması;
9) müşahidə məlumatlarının baş məcmuya şamil edilməsi;
10) məlumatların keyfiyyətinin qiymətləndirilməsi və göstəricilərin xətasının müəyyən olunması.

Statistik tədqiqatın təşkili aşağıdakı mərhələlərə bölünür:

- tədqiq olunacaq məsələ haqqında məlumat əldə etmək üçün müvafiq metodoloji materiallarla tanışlıq və adekvat tədqiqat metodikasının hazırlanması;
- müşahidə mərhələsi;
- statistik vahidlərin qruplaşdırılması və yekunlaşdırılması;
- nəticənin təhlili;
- nəticələrin, eləcə də cədvəl və qrafiklərin tərtibatı və nəşri.

Statistik tədqiqatların əhəmiyyəti aşağıdakı amillərlə müəyyən olunur [2]:

- böyük həcmdə statistik məcmu üzrə müşahidələrin aparılması mümkün olmadıqda onun elmi metodlarla təşkil olunmuş müəyyən hissəsi üzrə aparılmış tədqiqat statistik məcmu haqqında qərar verməyə imkan verir;

- sahibkarların informasiya təhlükəsizliyi təmin olunur;
- sahibkarlara düşən informasiya yükü azalır;
- tədqiqat daha tez, sadə və ucuz başa gəlir;
- statistik tədqiqatın keyfiyyəti yüksək olur;
- faydalı induktiv nəticənin əldə edilməsi mümkün olur.

Seçmə müşahidə məlumatlarının baş məcmuya şamil olunması statistik tədqiqatın son mərhələsidir. Müşahidə məlumatlarının yekunlaşdırılması və qiymətləndirilməsi seçmə müşahidə məlumatlarının baş məcmuya şamil edilməsi hesab olunur.

Seçmə müşahidəsi üzrə mikroməlumatların işlənməsi prosesi başa çatdıqdan sonra bu məlumatların baş məcmuya şamil olunması prosesi icra olunur, yəni ticarət fəaliyyəti ilə məşğul olan fərdi sahibkarlar üzrə statistik göstəricilərinin yekunlaşdırılması və qiymətləndirilməsi həyata keçirilir. Statistik tədqiqat elmi əsaslarla təşkil edildikdə onun ümumiləşdirici göstəriciləri (orta kəmiyyət) baş məcmunun ümumiləşdirici göstəricilərinə yaxın olur, seçmə məcmunun göstəriciləri baş məcmunun göstəricilərini düzgün təmsil edir. Bu halda müşahidə vahidlərinin reprezentativliyi təmin edir. Burada iki əsas məqam nəzərə alınır:

1. Seçmə məcmunun baş məcmuya adekvatlıq dərəcəsi, yəni müşahidə nəticəsində planlaşdırılmış strukturda dəyişikliyin olması, seçmə və baş məcmuda tipik qruplar arasında əsas mütənasibliyin qorunması şərti yoxlanılır. Bu şərtlərin pozulması müşahidə vahidinin insan amili ilə bağlı olması ilə şərtlənir (məsələn, anketin suallarını cavablandırmasına imtina).
2. Seçmənin faktiki olaraq əldə olunmuş nisbi xətasının onun planlaşdırılmış səviyyəsinə uyğun gəlməsi dərəcəsi.

Seçmə məcmu baş məcmuya adekvat olduqda baş məcmunun tədqiq olunan əlamət göstəricisinin orta kəmiyyətinin hüdudunu qiymətləndirmək olar. Göstəricilərin orta kəmiyyəti üçün hüdudlar qiymətləndirilən zaman onun hansı ehtimalla hesablandığını göstərmək zəruridir.

Seçmə məcmu məlumatlarının baş məcmuya şamil olunmasının mümkünlüyü seçmənin nisbi xətasının ($\Delta_{\bar{x}}$) hesablanması yolu ilə müəyyən olunur:

Orta kəmiyyət üçün:

$$\Delta_{\%} = \frac{\Delta_{\tilde{x}}}{\overline{X}} * 100\% \; ; \qquad (1)$$

Hissə üçün:

$$\Delta_{\%} = \frac{\Delta_{\omega}}{p} * 100\% \, , \qquad (2)$$

Burada, $\Delta_{\tilde{x}}, \Delta_p$ - uyğun olaraq əlamətin orta kəmiyyəti və hissə üzrə xətanın hüdudu (seçmə xətasının son həddi);

$\overline{X}$, $p$ - uyğun olaraq əlamətin baş məcmu üzrə orta kəmiyyəti və hissəsidir.

Yuxarıdakı (1) və (2) düsturlarında $\overline{X}$, $p$ qiymətləri seçmə məcmu xarakteristikaları ilə əvəz olunarsa, seçmə məlumatlarının baş məcmuya şamil olunmasının mümkünlüyü haqqında mühakimə yürütmək olar.

Nisbi xətanın qiyməti mövcud müşahidə üçün qabaqcadan qoyulmuş hüdudu aşmadıqda seçmə müayinə məlumatları təmsilçiliyi təmin etmiş olur və baş məcmuya şamil oluna bilər. Böyük uyğunsuzluqlar olduqda seçmə müşahidə nəticələrinin baş məcmuya şamil edilməsi yanlış mühakimələrə səbəb ola bilər.

**Statistik tədqiqatların yekunlaşdırılması üsulları**

Statistik tədqiqatlar üzrə mikroməlumatlar işlənib hazırlandıqdan sonra yekunlaşma prosesi icra olunur, yəni ticarət fəaliyyəti ilə məşğul olan fərdi sahibkarlar üzrə yekun göstəricilər qiymətləndirilir.

Statistik tədqiqatın yekunlaşdırılmasının iki üsulu mövcuddur:

a) *birbaşa hesablama* tədqiqat üzrə göstəricinin orta kəmiyyətini baş məcmunun statistik vahidlərinin sayına vurulması yolu ilə alınır: $\tilde{x} * N = \sum_{1}^{N} x_i$

Əgər orta kəmiyyətin $\pm\Delta_{\bar{x}}$ reprezentativlik xətasını nəzərə alsaq, onda baş məcmu üzrə yekun aşağıdakı intervalında dəyişməlidir [3].

$$(\bar{x} - \Delta_{\bar{x}}) * N \le \sum_{i=1}^{N} x_i \le (\bar{x} + \Delta_{\bar{x}}) * N \qquad (3)$$

$$\Delta_{\bar{x}} = t * \sqrt{\frac{S^2}{n}} \qquad (4)$$

Burada, t – etibarlılıq əmsalı,

$S^2$– tədqiqat üzrə göstəricilərin dispersiyasıdır.

Baş məcmu üzrə yekunların hesablanması tədqiqat üzrə göstəricilərin yekunlarının seçmə payına bölünməsi yolu ilə də alına bilər.

$$\sum_{1}^{n} x( n / N) \qquad (5)$$

Baş məcmu üzrə yekun göstəricilər hesablanarkən seçmə məcmunun strukturunun baş məcmunun strukturuna uyğun olması nəzərə alınmalıdır. Seçmə strukturunda ayrı-ayrı qruplarda

əhəmiyyətli kənarlaşma olanda çəkilərin yenidən hesablanması metodu tətbiq olunmalıdır.

Tədqiqatın hər hansı göstəricisinin orta kəmiyyəti qruplar üzrə həmin göstəricinin orta kəmiyyətlərinin bu qruplar üzrə xüsusi çəkisi əsasında hesablanır:

$$\mu = \bar{x}_i w_i + \ldots + \bar{x}_m w_m \,, \tag{6}$$

Burada, $w_i = N_i / N$ .

b) əmsal üsulunun mahiyyəti başdan-başa müşahidə məlumatlarına uyğun düzəlişlər etmək məqsədilə məlumatlarının müqayisə edilməsi prinsipinə əsaslanır [1].

Əmsal üsulunun tətbiqi bir qayda olaraq başdan-başa müşahidə nəticələrinin dəqiqləşdirilməsi, yaxud yoxlanması məqsədilə seçmə müşahidə məlumatlarından istifadə olunmasıdır.

Bu metoddan istifadə zamanı baş məcmunun bir hissəsi başdan-başa müşahidə olunur (müşahidə üzrə əlamətin orta qiyməti- $\bar{X}_{sec}$ ). Alınmış nəticə tədqiqat üzrə göstəricilərin orta kəmiyyəti ( $\tilde{X}$ ) ilə müqayisə olunur. Bu halda düzəliş əmsalı (K) aşağıdakı düsturla hesablanır:

$$K = \frac{\bar{X}_{sec}}{\tilde{X}} \tag{7}$$

Bu göstərici natamam uçota alınma üzrə düzəliş əmsalı adlanır. Daha sonra bu əmsal baş məcmuya şamil olunur.

$$\bar{X}^* = \bar{X} * K \tag{8}$$

Başdan-başa müşahidə məlumatları üzrə göstəriciləri dəqiqləşdirmək üçün düzəliş əmsalı aşağıdakı düsturla hesablanır:

$$K = \frac{n_1}{n} \tag{9}$$

Burada, $n$ - qeyd olunmuş statistik vahidlərin sayı;
$n_1$ - seçmə müşahidəsi üzrə statistik vahidlərin sayı.

Bundan sonra baş məcmunun statistik vahidlərin sayı (N) düzəliş əmsalına vurulur:

$$N^* = N * K \tag{10}$$

Nəticədə natamam uçotun düzəlişi nəzərə alınmaqla statistik vahidlərin sayı müəyyən olunur.

Son zamanlar statistik modelləşdirilmə üsulu tədqiqatın yekunlaşdırılmasında geniş tətbiq olunur. Yəni statistik təhlil vasitəsi ilə reqressiya modelləri tərtib olunur. Bu metod praktikada proqram sistemlərinin (SPSS, R, Stata və s.) köməyi ilə yerinə yetirilə bilər.

Aşağıda statistik tədqiqatın yekunlaşdırılması metodologiyasını ticarət fəaliyyəti ilə məşğul olan fərdi sahibkarların statistik göstəricilərin hesablanmasına tətbiq edək. Tədqiqat aparmaq məqsədi ilə nümunə üçün Bakı şəhəri (region – 00, klaster-2, fəaliyyət növü 46) üzrə məlumatlar verilmişdir.

**Cədvəl 1**

**İkirəqəmli fəaliyyət növü üzrə tərtib olunmuş siyahı (klaster bölgüsü üzrə)**

| Klaster | Region | Adı | İkirəqəmli fəaliyyət növü | Fəaliyyət növü | İşçilərin sayı | İşin həcmi |
|---|---|---|---|---|---|---|
| A | 1 | 2 | 3 | 4 | 5 | 6 |
| 2 | 00 | Bakı şəhəri | 46 | 46491 | 3 | 400 |
| 2 | 00 | Bakı şəhəri | 46 | 46901 | 2 | 380 |
| 2 | 00 | Bakı şəhəri | 46 | 46730 | 2 | 365 |
| 2 | 00 | Bakı şəhəri | 46 | 46360 | 2 | 550 |
| 2 | 00 | Bakı şəhəri | 46 | 46901 | 2 | 290 |
| 2 | 00 | Bakı şəhəri | 46 | 46340 | 2 | 370 |
| 2 | 00 | Bakı şəhəri | 46 | 46901 | 2 | 360 |
| 2 | 00 | Bakı şəhəri | 46 | 46330 | 2 | 300 |
| 2 | 00 | Bakı şəhəri | 46 | 46491 | 2 | 232 |
| 2 | 00 | Bakı şəhəri | 46 | 46901 | 3 | 750 |
| 2 | 00 | Bakı şəhəri | 46 | 46220 | 3 | 550 |
| 2 | 00 | Bakı şəhəri | 46 | 46174 | 3 | 600 |
| 2 | 00 | Bakı şəhəri | 46 | 46491 | 3 | 465 |
| 2 | 00 | Bakı şəhəri | 46 | 46730 | 3 | 450 |
| 2 | 00 | Bakı şəhəri | 46 | 46901 | 3 | 900 |
| 2 | 00 | Bakı şəhəri | 46 | 46491 | 2 | 370 |
| 2 | 00 | Bakı şəhəri | 46 | 46521 | 2 | 280 |
| 2 | 00 | Bakı şəhəri | 46 | 46901 | 2 | 500 |

SPSS proqram paketindən istifadə olunaraq, statistik vahidlərin qruplaşdırılması (klaster bölgüsü) seçmə şəbəkənin formalaşması mərhələsində aparılır. Bu zaman baş məcmu kimi istifadə olunan reyestr (ticarət fəaliyyəti ilə məşğul olan kiçik fərdi sahibkarların siyahısı) əsasında tərtib olunmuş siyahı ikirəqəmli fəaliyyət növü daxilində (**45**-topdan və pərakəndə ticarət; avtomobillərin və motosikletlərin təmiri, **46**-avtomobil və motosikletlərin satışından başqa, topdan satış, **47**-avtomobil və motosikletlərin satışından başqa pərakəndə satış) işçilərin sayına görə həmcins qruplara bölünür və statistik xarakteristikalar hesablanır. Nümunə üçün götürülmüş statistik vahidlərin riyazi-statistik xarakteristikaları aşağıdakı cədvəldə verilir.

**Cədvəl 2**

**Ticarət fəaliyyəti ilə məşğul olan kiçik sahibkarlıq subyektləri üzrə işin həcminə görə riyazi-statistik xarakteristika**

| Klaster | Fəaliyyət növü | Baş məcmu üzrə | | | | Seçmə müşahidəsi üzrə | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | Cəmi işin həcmi | Statistik vahidlərin sayı | İşin həcmi üzrə orta kəmiyyət | İşin həcmi üzrə standart kənarlaşma | Cəmi işin həcmi | Statistik vahidlərin sayı | İşin həcmi üzrə orta kəmiyyət | İşin həcmi üzrə standart kənarlaşma |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 |
| 1 | 45 | 700 | 1 | 700 | | 700 | 1 | 700,00 | |
| 2 | 45 | 56679 | 158 | 358,73 | 105,15 | 7836 | 21 | 373,14 | 128,22 |
| 2 | 46 | 10887 | 23 | 473,35 | 188,59 | 8112 | 18 | 450,67 | 171,12 |
| 2 | 47 | 626380 | 1553 | 403,34 | 134,83 | 42485 | 108 | 393,38 | 119,06 |
| 3 | 45 | 54957 | 342 | 160,69 | 36,08 | 4348 | 26 | 167,23 | 45,36 |

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 |
|---|---|---|---|---|---|---|---|---|---|
| 3 | 46 | 7834 | 42 | 186,52 | 64,86 | 4571 | 26 | 175,81 | 67,26 |
| 3 | 47 | 573730 | 3195 | 179,57 | 50,80 | 34332 | 190 | 180,69 | 44,06 |
| 4 | 45 | 67651 | 73 | 926,73 | 420,85 | 14707 | 17 | 865,12 | 297,60 |
| 4 | 46 | 25336 | 23 | 1101,57 | 492,86 | 20955 | 19 | 1102,89 | 521,86 |
| 4 | 47 | 628699 | 629 | 999,52 | 428,76 | 62603 | 68 | 920,63 | 347,17 |
| 5 | 45 | 20334 | 9 | 2259,33 | 794,97 | 15399 | 7 | 2199,86 | 879,78 |
| 5 | 46 | 23279 | 6 | 3879,83 | 2943,97 | 23279 | 6 | 3879,83 | 2943,97 |
| 5 | 47 | 307025 | 116 | 2646,77 | 1522,80 | 102464 | 39 | 2627,28 | 1454,78 |

Hesablanmış riyazi-statistik xarakteristikalar əsasında seçmənin orta xətası, qruplar üzrə çəkilər hesablanır və yekun nəticə formalaşır. Göstəricinin yekun qiymətinin xətası hesablanaraq tədqiqatın keyfiyyəti müəyyən olunur.

**Cədvəl 3**

**Tədqiqatın nəticələrinin qiymətləndirilməsi**

| Klaster | Fəaliyyət növü | Baş məcmu | | | Seçmə məcmu | | | | | Baş məcmuya şamil olunma | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Cəmi işin həcmi | Statistik vahidlərin sayı | İşin həcmi üzrə orta kəmiyyət | Cəmi işin həcmi | Statistik vahidlərin sayı | İşin həcmi üzrə orta kəmiyyət | İşin həcmi üzrə standart kənarlaşma | Seçmənin orta xətası | Fərdi çəkilər | Fərdi çəkilər əsasında hesablanmış cəmi işin həcmi | Yekunun xətası | Xətanın faizi |
| 1 | 45 | 700 | 1 | 700 | 700 | 1 | 700,00 | | | 1,00 | 700,00 | | |
| 2 | 45 | 56679 | 158 | 358,73 | 7836 | 21 | 373,14 | 128,22 | 27,98 | 7,52 | 58956,57 | 4420,97 | 7,50 |
| 2 | 46 | 10887 | 23 | 473,35 | 8112 | 18 | 450,67 | 171,12 | 40,33 | 1,28 | 10365,33 | 927,64 | 8,95 |
| 2 | 47 | 626380 | 1553 | 403,34 | 42485 | 108 | 393,38 | 119,06 | 11,46 | 14,38 | 610918,56 | 17791,64 | 2,91 |
| 3 | 45 | 54957 | 342 | 160,69 | 4348 | 26 | 167,23 | 45,36 | 8,90 | 13,15 | 57192,92 | 3042,68 | 5,32 |
| 3 | 46 | 7834 | 42 | 186,52 | 4571 | 26 | 175,81 | 67,26 | 13,19 | 1,62 | 7383,92 | 553,98 | 7,50 |
| 3 | 47 | 573730 | 3195 | 179,57 | 34332 | 190 | 180,69 | 44,06 | 3,20 | 16,82 | 577319,68 | 10212,12 | 1,77 |
| 4 | 45 | 67651 | 73 | 926,73 | 14707 | 17 | 865,12 | 297,60 | 72,18 | 4,29 | 63153,59 | 5268,99 | 8,34 |
| 4 | 46 | 25336 | 23 | 1101,57 | 20955 | 19 | 1102,89 | 521,86 | 119,72 | 1,21 | 25366,58 | 2753,63 | 10,86 |
| 4 | 47 | 628699 | 629 | 999,52 | 62603 | 68 | 920,63 | 347,17 | 42,10 | 9,25 | 579077,75 | 26481,25 | 4,57 |
| 5 | 45 | 20334 | 9 | 2259,33 | 15399 | 7 | 2199,86 | 879,78 | 332,53 | 1,29 | 19798,71 | 2992,74 | 15,12 |
| 5 | 46 | 23279 | 6 | 3879,83 | 23279 | 6 | 3879,83 | 2943,97 | 1201,87 | 1,00 | 23279,00 | 7211,24 | 30,98 |
| 5 | 47 | 307025 | 116 | 2646,77 | 102464 | 39 | 2627,28 | 1454,78 | 232,95 | 2,97 | 304764,72 | 27022,39 | 8,87 |
| **Cəmi** | | **2403491** | | | | | | | | | **2338277,35** | **108679,25** | **4,65** |

Cədvəldən göründüyü kimi, reyestr üzrə (baş məcmu) ticarət dövriyyəsinin (işin) həcmi 2403.5 min manat, tədqiqat üzrə məlumatların baş məcmuya şamil olunması nəticəsində alınmış yekun nəticə 2338.3 min manat təşkil etmişdir. Yekunun xətası isə 108.7 min manat, yəni 4.65% olmuşdur.

## Nəticə

- ✓ Hesabata əsaslanan statistika reyestrə əsaslanan statistikaya transformasiya olunmalıdır;
- ✓ Statistik tədqiqatların genişləndirilməsi istiqamətində işlər artırılmalıdır;
- ✓ Statistik tədqiqatın qiymətləndirilməsi üçün məlumat bazaları müasir tələblərə (vektor modelinə) uyğunlaşdırılmalıdır;

- ✓ Statistik tədqiqat üzrə natamam göstəricilərin hesablanması üçün imputasiya metodundan istifadə olunmalıdır;
- ✓ Tədqiqatın nəticəsinin qiymətləndirilməsi üçün statistik modellərdən istifadə edilməlidir.
- ✓ Tədqiqatın nəticələrinin keyfiyyət göstəriciləri hesablanmalıdır.

**Aida İbrahimova, Zərifə Nağıyeva**
**Ticarətdə statistik tədqiqatlar**
**Xülasə**

Məqalədə statistik məlumatların toplanmasında seçmə müşahidə üsulunun əhəmiyyəti vurğulanmış və başdan-başa müşahidə ilə müqayisədə üstünlükləri qeyd edilmişdir. Statistik tədqiqatların ehtimal nəzəriyyəsi və riyazi statistikaya əsaslanması məqalədə öz əksini tapmışdır. Statistik tədqiqatın mərhələləri və nəticənin qiymətləndirilməsi üsulları verilmişdir. Göstərilmiş metodologiya ticarət statistikası şöbəsinin məlumatlarına tətbiq edilmişdir. Qruplaşdırılmış statistik vahidlər üzrə statistik xarakteristikalar hesablanmış, qruplar üzrə çəkilər müəyyən edilərək yekun nəticə formalaşdırılmışdır. Statistik tədqiqatın nəticələrinin seçmə xətası hesablanmışdır.

**Аида Ибрагимова, Нагиева Зарифа**
**Статистические исследования в торговле**
**Резюме**

В статье подчеркивается важность метода выборочного наблюдения в сборе статистических данных и показаны его преимущества по сравнению со сплошным наблюдением. Статистическое исследование основано на теории вероятностей и математической статистике. Даны этапы статистических исследований и методы оценки результатов. Методология была применена к данным отдела статистики торговли. Были рассчитаны статистические характеристики сгруппированных статистических единиц, определен вес и сформулирован окончательный результат. По результатам статистического исследования рассчитаны ошибки выборки.

**Aida Ibrahimova, Zarifa Nagiyeva**
**Statistical researches in trade**
**Summary**

The article emphasizes the importance of the sampling survey method in of statistical data collection and shows its advantages in comparison with complete survey. Statistical research is based on probability theory and mathematical statistics. The stages of statistical researches and methods for estimating the results are given in the article. The methodology was applied to the data of the Department Trade Statistics. The statistical characteristics of the grouped statistical units were calculated, the weights were determined and the final result was formulated. According to the results of the statistical research, sampling errors were calculated.

## Ədəbiyyat

1. Л.Г.Батракова. Теория статистики: учебное пособие. М.:КНОРУС, 2010. стр. 528.
2. Л.М.Гохберг. Статистика науки. – М.:Издательство ТЕИС, 2003.
3. И.И.Елисеева, М.М.Юзбашев. Общая теория статистики: Учебник. М.:Финансы и статистика, 2002. стр. 480.
4. Методологические положения по проведению выборочного наблюдения за индивидуальными предпринимателями, осуществляющими деятельность в розничной торговле (с учетом типизации индивидуальных предпринимателей). Утверждены приказом Росстата от 29.08. 2013 г. № 346.

# İQTİSADİ ARTIM VƏ ONA TƏSİR EDƏN ƏSAS AMİLLƏR

***Sədaqət Əhmədova***
*Bakı Dövlət Universiteti*
*“Dünya İqtisadiyyatı” kafedrasının dosenti, i.ü.f.d.*
*AZ 1148, Bakı şəhəri, Z.Xəlilov küçəsi 23*
*e-poçt: sedaqet.ahmedova2016@mail.ru*

***Könül Əliyeva***
*Naxçıvan Dövlət Universiteti*
*“İqtisadiyyat və idarəetmə” kafedrasının dissertantı*
*AZ 7012, Naxçıvan şəhəri, Əziz Əliyev küçəsi, Universitet şəhərciyi*
*e-poçt: konul.aliyevna@mail.ru*

**Açar sözlər**: iqtisadi artım, metodlar, insan kapitalı, investisiyalar, texniki tərəqqi.
**Ключевые слова:** экономический рост, методы, человеческий капитал, инвестиции, технический прогресс.
**Keywords:** economic growth, methods, human capital, investments, technical progress.

İqtisadi artım hər zaman iqtisadi və qeyri-iqtisadi amillərin təsiri kimi diqqəti cəlb edir. Burada qeyri-iqtisadi amillər dedikdə hərbi-siyasi, coğrafi, iqlim, milli demoqrafik, mədəni və bir sıra digər amillər nəzərdə tutulur.

Bütünlükdə milli iqtisadiyyatın artım templəri-regional templərin orta ölçülmüş templəridir və bir-birindən kəskin surətdə fərqlənə bilər. Milli iqtisadiyyata məkan yanaşması ümummilli artım tempinə müştərək yanaşma və regional templərin bölgüsünün aparılmasını tələb edir. İqtisadi artıma bu və ya digər amilin təsiri az və çox dərəcədə diqqəti cəlb edə bilər, ancaq onlar daha çox qarşılıqlı əlaqələrə təsir göstərir.

**İqtisadi artım amillərinin təsnifatlaşdırılması**

İqtisadi artıma təsir üsuluna görə birbaşa və dolayı təsir göstərən amillər bir-birindən fərqləndirilir. Birbaşa amillər iqtisadi artımın fiziki xüsusiyyətlərini müəyyənləşdirir, dolayısı yollarla təsir göstərən amillər isə bu qabiliyyətin gerçəyə çevrilməsinə təsir göstərirlər.

Beş əsas amil birbaşa təsir göstərən amillər kimi təsbit olunur, həmin amillər məcmu tələb və təklifin dinamikasını müəyyənləşdirir:

1) əmək resurslarının kəmiyyətinin yüksəlməsi və onların keyfiyyətinin yaxşılaşması;
2) əsas kapitalın həcmi və keyfiyyət tərkibinin yaxşılaşması;
3) istehsal texnologiyası və təşkilatçılığının təkmilləşdirilməsi;
4) təsərrüfat dövriyyəsinə cəlb edilmiş resursların kəmiyyətinin və keyfiyyətinin yüksəldilməsi;
5) cəmiyyətdə sahibkar fəaliyyətinin və qabiliyyətlərinin yüksəlməsi.

Qeyd etmək lazımdır ki, iqtisadi artımı bir-biri ilə qarşılıqlı əlaqədə olan göstəricilər sistemi vasitəsi ilə qiymətləndirmək olar. Həmin göstəricilərdə istehsalın nəticələri və onun amillərindəki dəyişikliklər öz əksini tapır (cədvəl 1).

**Cədvəl 1**

**İstehsalın nəticələrinə göstərdiyi təsirə görə iqtisadi artım amilləri**

| Birbaşa (təklif amilləri) | Dolayı (tələb amilləri) |
|---|---|
| – əmək və təbii resursların kəmiyyəti və keyfiyyəti;<br>– əsas kapitalın həcmi;<br>– istehsalın təşkili və texnologiyası;<br>– təşəbbüskarlıq | – vergi mühiti;<br>– investisiya mühiti;<br>– bank sisteminin səmərəliliyi;<br>– gəlirlərin bölgüsü sistemi;<br>– resursların təmərküzləşməsi və təkrar bölgüsü ehtimalları;<br>– məcmu tələbin həcmi. |

İctimai istehsalın inkişaf etməsi ilə onun amillərinin siması və qarşılıqlı əlaqələrinin xarakteri də dəyişilir. İctimai istehsalın mürəkkəbləşməsi və onların qarşılıqlı əlaqəsinin güclənməsi belə bir gerçəkliyi dəyişdirmir. Onlar arasında ən mühümü, cəmiyyətin bütün inkişaf mərhələləri üçün ümumi olanı işçi qüvvəsi, əmək (istehsal) vasitəsi və predmetidir. Bu amillər müasir iqtisadi şəraitdə xüsusi aktuallıq qazanır: təsərrüfat təşəbbüsündə, resurslarda, sahibkar fəaliyyətində istehsala doğru dönüş tələb olunur, çünki istehsalsız milli iqtisadiyyatın tam olaraq formalaşmasını iddia etmək qeyri-mümkündür.

İstehsalın inkişaf etməsinin mühüm amili kimi əmək bölgüsü çıxış edir. Əmək bölgüsünün inkişafı istehsalın ictimai xarakterinin artmasına səbəb olur, milli təsərrüfatda proporsionallığın rolu yüksəlir. Bütün bunlar isə proporsionallığın dəstəklənməsi zərurətini, müxtəlif üsullarla struktur dəyişikliklərinin tənzimlənməsini şərtləndirir. Onların içərisində sonuncu rol dövlətin texniki siyasətinə məxsusdur. Dövlətin texniki siyasəti elmi-texniki nailiyyətlərə əsaslanır.

Elmi-texniki nailiyyətlər də, öz növbəsində, iqtisadi artımın aparıcı amillərindəndir və digər amillərə nüfuzedici təsir göstərir. Aparılmış təhlillərin nəticələrinə əsaslanan qiymətləndirmələrə əsasən adambaşına düşən məhsul istehsalının 90% artması inkişaf etmiş dövlətlərdə istehsal resurslarının həcminin artması ilə bağlı birbaşa amillərlə heç bir əlaqəsi yoxdur, burada milli gəlirin fiziki həcminin 40%-ə qədər artması biliklərin tərəqqisi ilə bağlıdır. Elmi nailiyyətlərin reallaşdırılması təmin olunur, məsələn ABŞ-da ümumi milli məhsul 50%-dən 80%-ə qədər yüksəlir [10].

Ölkənin iqtisadiyyatının keyfiyyət məzmunu baxımından yeni texnoloji vəziyyətə keçirilməsi, onun rəqabət qabiliyyəti və çevikliyinin təmin olunması üçün ölkə istehsalçılarına əhəmiyyətli ölçülərdə investisiyalar lazımdır.

**İqtisadi artıma təsir edən amillərin strukturu**

İqtisad elmində iqtisadi artımın hər kəs tərəfindən qəbul edilmiş amilləri içərisində mənəvi-etik amillər də xüsusi yer tutur. Həmin amillər iqtisadi artıma vasitəli şəkildə, şüurlara təsir göstərir.

Bir tərəfdən onlar cəmiyyətdə ümumi emosional fonun yaxşılaşmasını, digər tərəfdən isə cəmiyyətin mənəvi əsaslarının dərinləşməsini özündə ifadə edir.

İqtisadi artım amilləri içərisində bu gün şərti olaraq dəstəkləyici amillər qrupuna aid edilən amillər də xüsusi rol oynayır. İqtisadiyyatın böhranlı vəziyyətinə tətbiq edilərək iqtisadi artımın dövlət tərəfindən dəstəklənməsi siyasəti və onun reallaşdırılması digər amillərdən, o cümlədən əsas amillərdən istifadə edilməsindən asılıdır.

Qeyd etmək lazımdır ki, müasir qərb iqtisadi ədəbiyyatlarında amillərin üç əsas qrupu xüsusi olaraq qeyd olunur: təklif amilləri, tələb amilləri və onların bölgüsü [6, 8].

Əmək məhsuldarlığı daha mühüm amildir, real məhsul və gəlirin artmasını təmin edir. Əmək məsrəflərinin artması real gəlirin üçdə bir dəfə artmasına və əmək məhsuldarlığının üçdə iki dəfə artmasına səbəb olur. Bəzi amilləri daha ətraflı nəzərdən keçirək. Təbii resursları istehsal şəraitinin yaranmasına xidmət edən amillər kimi təbiətdə məhdud kəmiyyətdədir, onların əldə edilməsi tədricən çətinləşir.

Cəmiyyət bu vəziyyəti mütləq nəzərə almalıdır. Təbii resursların cəlb edilməsinin əhatə dairəsinin genişlənməsi və onların emalının təkmilləşdirilməmiş texnologiyalarla təşkili və istifadəsi

problemlərlə müşayiət olunur, qlobal əhəmiyyət kəsb edir. Onları iki qrupa bölmək olar.

*Birinci qrup problemlər* təbii resursların tükənməsi ilə bağlıdır. İctimai istehsal fəal surətdə inkişaf etmədiyi zaman insan hər şeyi təbiətdən birbaşa götürürdü. Müəyyən vaxt keçdikdən sonra resursların tükənməsi əvvəlcə lokal, daha sonra regional və milli xarakter daşımağa başladı. Bu gün onlar dünya səviyyəsinə çatmışdır.

*İkinci qrup problemlər* resursların istifadə edilməsinin nəticələri ilə bağlıdır. Son yarım əsr ərzində tərəqqi istehsal qüvvələrini ekoloji böhran vəziyyətinə gətirdi. Ekoloqlar mövcud durumu böhran vəziyyəti kimi xarakterizə edirlər [11].

İqtisadi baxımdan ətraf mühitin qorunması üçün əlavə məsrəflər tələb olunur, həmin xərclər resursların istifadəsi zamanı yaranmış ekoloji tarazlığın pozulması hallarının aradan qaldırılmasına xidmət edir. Bu təbirlərin həyata keçirilməsi zərurəti mütləq mənfəətin əldə edilməsi cəhdləri ilə ziddiyyət təşkil edir. Həmin məqsədlərə nail olunması üçün istehsal məsrəfləri azaldılır.

Təbii resurslar artım mənbəyinin kəmiyyət tərəfi ilə bağlıdır, istehsalın artan həcmini təmin edir. İqtisadi artımın keyfiyyət mənbəyi, həmin resursların istifadə edilməsinin optimallaşdırılması ilə əlaqədar həyata keçirilən tədbirlər kompleksidir. Öz-özlüyündə iqtisadi artıma münasibətdə təbii resurslar neytraldır.

Əhali və əmək resurslarının artması ənənəvi olaraq iqtisadi artımı stimullaşdıran amil kimi nəzərdən keçirilir. İşçi qüvvəsinin həddindən artıq çox olduğu inkişaf etməkdə olan ölkələr üçün əhalinin sürətlə artması heç də hər zaman pozitiv təzahür kimi qiymətləndirilə bilməz, əhali artımından irəli gələn səmərə iqtisadi sistemin yeni işçilər üçün iş yerləri yarada bilməsi qabiliyyətindən asılıdır. Bu qabiliyyət kapital yığımı və istehsal amilləri, xüsusən də sahibkar təşəbbüsündən asılıdır [1, səh.7].

Kapital yığımı o zaman müşahidə edilir ki, cari gəlirin bir hissəsinə qənaət edilir, gələcək gəlirlərin artması üçün investisiya qoyuluşu kimi istifadə edilir.

Yeni fabriklər, avadanlıqlar və materiallar fiziki kapital ehtiyatlarını artırır. İstehsala yatırılan birbaşa investisiyalarla yanaşı, sosial və iqtisadi infrastruktura – yollar, energetika, kommunal təsərrüfatı və nəqliyyata da investisiyalar sərf edilir. Belə investisiyaları istehsal investisiyaları müşayiət edir və həmin investisiyalar təsərrüfat fəaliyyəti üçün şərait yaradır.

İnsan kapitalına investisiyalar işçi qüvvəsinin keyfiyyətini yüksəldir və tez-tez işçilərin sayının artması böyük istehsal səmərələrinin əldə edilməsinə səbəb olur.

Bütün təhsil formalarının səmərəliliyi onların maddi bazasına investisiya qoyuluşları vasitəsi ilə yüksəlir. Burada avadanlıqlara, binalara, materiallara (kitablara, personal kompüterlərə, təhsil və elmi iş üçün avadanlıqlara) investisiya qoyuluşlarından söhbət gedir.

İqtisadiyyat üzrə müəllimlərin keyfiyyətli hazırlıq keçməsi və yaxşı dərsliklərin olması işçilərin ixtisas hazırlığı səviyyəsinin yüksəlməsinə öz əhəmiyyətli töhfəsini verə bilər. Bu səbəbdən də insan kapitalına əsaslı kapital qoyuluşları torpaq resurslarına investisiya qoyuluşları ilə analoji nəticələrə gətirib çıxarır.

Texniki tərəqqi artımın üçüncü baza komponentidir - iqtisadçıların əksəriyyəti onu ən mühüm amil hesab edirlər. Özünün sadə formasında əmtəə istehsalının yeni, daha səmərəli üsullarının meydana çıxması kimi diqqəti cəlb edir.

Texniki tərəqqinin üç əsas fərqli növləri mövcuddur: neytral, əməyə qənaətedici və kapitala qənaətedici. Neytral texniki tərəqqi o zaman baş verir ki, istehsal artımı eyni həcmdə və strukturda məsrəflər amilləri şəraitində baş verir. Nümunə kimi təkcə istehsalda sadə innovasiyanı, əmək bölgüsünü (əlavə xərclər tələb etmədən məhsuldarlığı və istehlak imkanlarını artırır) göstərmək olar.

Neytral kapitaldan fərqli olaraq, əməyə qənaətedici texniki tərəqqi cüzi məsrəflərlə bir amilin təsiri ilə istehsal artımına imkan yaradır. Burada kapital və yaxud əməkdən söhbət gedir. Kompüterlər, avtomatik toxucu dəzgahları, elektrodrellər, traktorlar və digər müasir maşınları əməyə qənaətedici maşınlar hesab etmək və müvafiq olaraq həmin maşınların istehsala tətbiqini texniki tərəqqi forması adlandırmaq olar.

Kapitala qənaətedici texniki tərəqqi daha az yayılmış təzahürdür. Bütün bunlar ona görə baş verir ki, elmi araşdırmalar inkişaf etmiş ölkələrdə aparılır, bu ölkələrdə əməyə qənaət, əməyin

iqtisadiyyatı məsələləri birinci yerdə dayanır. Burada nisbətən daha səmərəli hesab edilənlər istehsalın müxtəlif əməktutumlu sahələridir. Məsələn, kənd təsərrüfatı məhsullarının biçilməsi və döyülməsi, kiçik təsərrüfatlar üçün mexaniki tozlandırıcılardan istifadə edilir [2, səh.26].

**İqtisadi artımın əsas forma və üsulları**

İqtisadi artım amillərinin qarşılıqlı təsiri, adətən, onların davranışına xarici təsirdən, dövlət idarəetmə orqanlarının təsirindən asılıdır. Burada həmin təsirləri üstqurum amili kimi xüsusi olaraq qeyd etmək olar. İqtisadi inkişafın Dövlət Proqramına iqtisadi artımı təmin edən məqsədlər də daxildir. Dövlət ən azı iqtisadi münasibətlərin hüquqi əsasını təmin edir. Belə bir vəziyyət isə müxtəlif cür iqtisadi proseslərin gedişatına təsir göstərir. Burada söhbət dövlətin iqtisadi proseslərə təsiri səviyyəsindən, dövlət tənzimlənməsinin forma və üsullarından gedir.

İqtisadi artımın dövlət tərəfindən tənzimlənməsinin əsas forma və üsullarının təsnifatı şəkil 1-də verilmişdir.




Şəkil 1. İqtisadi artımın tənzimlənməsinin forma və metodları [3]

Qeyd etmək lazımdır ki, bazarın qeyri-yetkin və bazar münasibətlərinin inkişaf etmədiyi bir şəraitdə dövlət neqativ sosial-iqtisadi təsirlərinin aradan qaldırılması, bütünlükdə milli təsərrüfatın fəaliyyəti üçün əlverişli şəraitin yaradılması öhdəliyini öz üzərinə götürür. Lakin nəzərə almaq lazımdır ki, dövlətin bazara müdaxiləsi imkanları sonsuz olmamalıdır. Dövlətin iqtisadi tənzimlənməsinin sərhədləri bir sistem kimi səmərəli bazar iqtisadiyyatı sisteminin bərqərar olaraq fəaliyyət göstərməsinin təmin olunması üçün müvafiq tədbirlərin həyata keçirilməsi çərçivəsindən kənara çıxmamalıdır.

Bu həddin keçilməsi bazar mexanizminin fəaliyyətinin səmərəliliyini təmin edən iqtisadi stimulların yoxa çıxmasına səbəb ola bilər.

Dövlətin iqtisadiyyatda həddindən çox iştirakı, ona xas olmayan funksiyaları yerinə yetirməsi iqtisadiyyatın dövlətinkiləşdirilməsinə, iqtisadi sistemin dəyişilməsinə səbəb olur.

İqtisadi artım amilləri bir-biri ilə sıx bağlıdır. Bu səbəbdən də bu və ya digər amilin iqtisadi artımdakı rolu və payının dəqiq müəyyənləşdirilməsi kifayət qədər mürəkkəb məsələdir. Lakin eyni zamanda nəzərə almaq lazımdır ki, amillərin qarşılıqlı əlaqəsi iqtisadi artım amilləri sisteminin mövcudluğu haqqında fikir yürütməyə əsas verir. İqtisadi artım amilləri milli iqtisadiyyatın artımına sinergetik təsir göstərir.

Uzun müddət ərzində ÜDM-in artım tempinə müxtəlif amillərin təsiri iqtisad elmində aktual məsələlərdəndir. 1960-2000-ci illərdə həmin problemin araşdırılmasına çoxsaylı elmi əsərlər həsr edilmişdir [4, səh.135; 5, səh. 6]. Həmin əsərlər əsasında müəyyən nəticələr əldə olunmuşdur. Bu nəticələrdə xüsusi olaraq qeyd olunur ki, iqtisadi artımın mühüm amili məcmu yığım, elmi-texniki tərəqqi və insan kapitalıdır. Həmin amillər iqtisadiyyatın modellər üzrə inkişafının əsas determinantıdır (müəyyənedici amilidir), müasir empirik araşdırmaların əksəriyyəti ona əsaslanır.

Uzunmüddətli perspektivdə iqtisadi artımın fundamental ehtimalı kimi texnoloji inkişaf çıxış edir. R.Solounun modelində texniki tərəqqi və resursların səmərəli istifadəsi iqtisadi artımın müəyyənedici amilləridir.

İqtisadi nəzəriyyədə neoklassik istiqamətin müasir təmsilçiləri tərəfindən istehsal funksiyaları aparatı modelləşdirmənin, ekonometrikanın, statistikanın üsullarını bir sıra digər sahələrin üsulları ilə uzlaşdırılmış halda istifadə edilir.

Onlar çoxsaylı amillərin iqtisadi artıma təsirinin qiymətləndirilməsinə cəhd göstərirlər. Belə olan halda, istehsal funksiyaları ilə investisiya multiplikatoru arasında qarşılıqlı əlaqəni izləmək mümkündür.

İqtisadi ədəbiyyatlarda belə bir fikir meydana çıxmışdır ki, multiplikator effekti iqtisadi sistemdə birbaşa olaraq resurs-texnologiya əlaqələrindən asılıdır, yəni multiplikator formulları ilə istehsal funksiyaları arasında qarşılıqlı əlaqə mövcuddur [7, səh. 38].

İnvestisiya artımlarının multiplikator effektini zəncirvari reaksiya kimi təsəvvür etmək olar: alıcılıq qabiliyyətinin artması əlavə istehlak və investisiya imkanları yaradır, bu isə öz növbəsində böyük alıcılıq qabiliyyətini yaradır və s. (şəkil 2).




Şəkil 2. Gəlir və istehlakın qarşılıqlı əlaqəsi

Gəlirin yaranması prosesi, xərclərin artması və istehsalın genişlənməsi getdikcə daha çox bir-birindən uzaq sahələri əhatə etməyə başlayır. İnvestisiyaların həcminə görə satıcılarda əmtəə ehtiyatları azalır. İstehsalçıların ehtiyatlarının azalmasına reaksiyası istehsalın həcminin genişləndirilməsi olacaqdır. Məhz burada multiplikatorla istehsal funksiyası arasında qarşılıqlı əlaqə olduqca aşkar görünür. Azərbaycanda iqtisadi transformasiya prosesi əhəmiyyətli struktur dəyişiklikləri ilə müşayiət olunur, lakin nəzərə almaq lazımdır ki, institusional bazar mühiti kifayət qədər inkişaf etməmişdir.

Müasir iqtisadiyyatın problemləri investisiya çatışmazlığı ilə deyil, onlardan istifadə edilməsi istiqamətləri ilə bağlıdır. İnvestisiya fəallığının canlanmasının mühüm ehtimallarından biri daxili tələbin genişləndirilməsidir.

İnvestisiyaları bir tərəfdən istehsalın müasirləşdirilməsinin mühüm aləti, onun məsrəflərinin

azaldılması, sabit iqtisadi artıma nail olunması, bütün bunların təsiri nəticəsində isə cəmiyyətdə həyat səviyyəsinin yüksəldilməsi vasitəsi kimi nəzərdən keçirmək olar. Digər tərəfdən isə investisiyaların artması-daxili bazarın inkişaf etməsi, ölkə məhsullarına istehlak tələbinin artması prosesinin nəticəsidir.

İstehlak tələbini stimullaşdıran alətlər içərisində hər şeydən öncə əməkhaqlarının yaşayış minimumlarına qədər artmasını, büdcə sferasında əməkhaqlarının verilməsi probleminin həll edilməsini, ipoteka, istehlak kreditləşdirilməsi və s. göstərmək olar. İqtisadi artımın formalaşmış amillər sistemi kortəbii xarakter daşıyır, bizim ölkəmizin mütləq üstünlüklərinə əsaslanır (xammal ehtiyatları, yüklənməmiş istehsal gücləri və s.).

## Nəticə

Azərbaycan iqtisadiyyatı üçün əlverişli investisiya mühiti yaradılması daha da inkişaf etdirilməlidir. Çünki böhrandan çıxmaq üçün birinci şərt sabitliyin təmin edilməsi və daha sonra iqtisadi artıma nail olunmasıdır. Eyni zamanda iqtisadi artıma əngəl olan, əhalinin həyat səviyyəsinin yüksəlməsinə mənfi təsir göstərən amillər də aradan qaldırılmalıdır.

Bu gün Azərbaycanda investisiya proseslərinin fəallaşdırılması da mövcud investisiya resurslarından daha səmərəli istifadə edilməsi probleminin həllinə xidmət edir. İnvestisiyaların cəlb edilməsi və məqsədəuyğun şəkildə istifadə edilməsi rəqabətin güclənməsinə səbəb olur. İqtisadi artımın stimullaşdırılması amili kimi o, istehsalçıya istehsal prosesinə yenilikləri tətbiq etməyə, daha yüksək keyfiyyətli məhsul istehsal etməyə və resurslara qənaətedici texnologiyaları tətbiq etməyə vadar edir.

Ölkədə iqtisadi islahatların gedişinin təhlili amillərin dəyişilməsindən xəbər verir. Nəzərə almaq lazımdır ki, burada söhbət müxtəlif dövrlərdə iqtisadi artıma əhəmiyyətli təsir göstərən amillərdən gedir.

Yaxın perspektivdə iqtisadi artımın əsas amilləri içərisində investisiyalar və informasiya texnologiyalarının inkişafı xüsusi olaraq qeyd edilir. Çünki onların vasitəsi ilə uzunmüddətli perspektivdə sabit iqtisadi artım tempini dəstəkləyən yeni mənbə və imkanlar yaradılır.

Tədqiqat nəticəsində belə qənaətə gəlmək olar ki, iqtisadiyyatın mütərəqqi strukturu, onun inkişaf etmiş müasir sektorlarının mövcudluğu, əsasən, mütərəqqi informasiya və kommunikasiya sisteminin olması Azərbaycan Respublikasının dünyada elmtutumlu məhsul istehsalı bazarlarında mövqelər qazanmasına, yer tutmasına imkan yaradır.

Eyni zamanda qeyd etmək lazımdır ki, hələ ki elə bir mexanizm formalaşmamışdır ki, onun vasitəsi ilə avtomatik olaraq mövcud yığım və investisiya resursları emal sənayesinə, kənd təsərrüfatına, iqtisadi infrastruktura, elm və təhsil sferalarına yönəlsin.

**Sədaqət Əhmədova, Könül Əliyeva**

**İqtisadi artım və ona təsir edən əsas amillər**

**Xülasə**

Məqalədə iqtisadi artıma təsir edən amillər təhlil olunur. Müəllif bir neçə əsas amilləri qruplaşdırıb kompleks təsnifatını verir. Ayrıca olaraq məqalədə iqtisadi artıma təsir edən amillərin strukturu göstərilir və onların xüsusiyyətləri açıqlanır. Həmçinin müasir şəraitdə texniki tərəqqinin və insan kapitalının iqtisadi artımın təmin olunmasında həlledici rolundan bəhs edir. Məqalədə iqtisadi artımın müasir şəraitdə məzmunu təhlil edilir. Eyni zamanda müəllif iqtisadi artımın əsas modellərini təhlil edir və xüsusiyyətlərini qeyd edir. Məqalədə nəzəri yanaşmaların müqayisəli təhlili aparılır və iqtisadi artım prosesinin növləri təsnifatlaşdırılır. Məqalənin yekununda ümumi nəticələr əks edilmiş, həmçinin Azərbaycanda iqtisadiyyat üçün əlverişli investisiya mühitinin, iqtisadi artımın əsas amillərindən olan investisiyalar və informasiya texnologiyalarının daha da inkişaf etdirilməsinin zəruri olduğu göstərilmişdir.

**Садагат Ахмедова, Кенуль Алиева**

**Факторы, влияющие на экономический рост**

**Резюме**

В статье анализируются факторы, влияющие на экономический рост. Автор группирует несколько факторов и проводит их комплексную классификацию. Также анализируется структура факторов, влияющих на экономический рост и раскрываются их особенности. Автор также подчеркивает решающую роль технического прогресса и человеческого капитала в обеспечении экономического роста. В конце статьи отражены общие результаты, а также необходимость дальнейшего развития информационных технологий и инвестиций, что является ключевым фактором экономического роста, благоприятного инвестиционного климата в Азербайджане.

**Sadaqat Akhmedova, Konul Aliyeva**

**Economic growth and the main factors influencing it**

**Summary**

Article analyzes the factors influencing economic growth. The author groups several factors and provides their complex classification. Article reflects separately the structure of the factors influencing economic growth and reveals their features. The author also emphasizes a crucial role of technical progress and the human capital in ensuring economic growth. At the end of the article, the overall results, as well as the need for further development of investment and information technologies, which is a key factor in economic growth, favorable investment climate in Azerbaijan are reflected.

**Ədəbiyyat**

1. Г.Курганов, О.Засов. Факторы и модели экономического роста: оценки и прогноз // Экономист. 2009. № 1. стр. 6-12
2. А.С.Сергеев. Экономический рост в России // Российский экономический журнал. 2009. № 1. стр.22-32
3. Т.Г.Мансурова, Э.И.Абдуллина. Государственное регулирование экономики: Учебное пособие для студентов / Т.Г.Мансурова, Э.И.Абдуллина. Набережные Челны: Издательско-полиграфический центр Набережночелнинского института (филиала) К(П)ФУ, 2014. стр. 124
4. Факторы устойчивого развития российской экономики / Под общ. ред. Л.В.Латкова. Саратов: СГСЭУ, 2007. стр. 258
5. В.Щетинин. Человеческий капитал и неоднозначность его трактовки // Мировая экономика и международные отношения. 2008. М. 4. Gallup J., Sachs J., Meilinger A. Geography and Economic Development // NBER Working Papers, 1998. № 6849
6. Roubim K, Saia-l-Martin X. Financial Development The Trade Regime, and Economic Growth // NBER Working Papers. 1991. № 3876.
7. Kuznets S. Notes on Take-off // The Economics of Take-off into Sustained Growth. p. 34-45
8. Hall R. Jones Ch. Why Do Some Countries Produce So Much More Output per Woker than Others? // Quarterly Journal of Economics. 1999. V. CXIV.
9. J.Gallup, J.Sachs, A.Meilinger. Geography and Economic Development // NBER Working Papers, 1998. № 6849.
10. https://research-journal.org/economical/ocenka-vliyaniya-innovacij-i-ix-finansirovaniya-na-ekonomicheskij-rost-nacionalnoj-ekonomiki/-сайт Международного научно-исследовательского журнала.
11. https://cyberleninka.ru/article/n/analiz-globalnyh-ekologicheskih-problem-журнал «Радиоэлектроника. Наносистемы. Информационные технологии».

“Statistika xəbərləri, № 1/2019”
İl 5, Cild 1, Yanvar-mart, səh. 52-58

# MAKROİQTİSADİ TARAZLIĞIN TƏMİN OLUNMASINDA MALİYYƏ MEXANİZMLƏRİNİN ROLU

***Lalə Vəliyeva***
*Bakı Dövlət Universiteti*
*“İqtisadiyyat və idarəetmə” kafedrasının müəllimi*
*AZ 1148, Bakı şəhəri, Zahid Xəlilov küçəsi 23*
*e-poçt: valiyevalala88@mail.ru*

**Açar sözlər:** makroiqtisadi tarazlıq, maliyyə mexanizmi, Maastrixt meyarları, maliyyə siyasəti, pul-kredit siyasəti, fiskal siyasət.
**Ключевые слова:** макроэкономическое равновесие, финансовый механизм, Маастрихтские критерии, финансовая политика, денежно-кредитная политика, фискальная политика.
**Keywords:** macroeconomic balance, financial mechanism, Maastricht criterias, financial policy, monetary policy, fiscal policy.

## Giriş

Son dövrdə baş verən maliyyə böhranı makroiqtisadi qeyri-sabitlik nəticəsində yarana biləcək həyat standartlarına zərbəni önə çəkdi. İqtisadi fəaliyyətdə böyük dəyişikliklər, yüksək inflyasiya, davamlı borc səviyyəsi və valyuta məzənnələri, maliyyə bazarlarında dəyişkənlik iş yerlərinin itirilməsinə və yoxsulluğun artmasına səbəb ola bilər və Minilliyin İnkişaf Məqsədlərinin (MİM) əldə olunmasına doğru irəliləyişə təhlükə yarada bilər. Ona görə makroiqtisadi sabitliyin qorunması dayanıqlı və stabil inkişaf üçün mühüm şərtdir. Makroiqtisadi siyasətin əsas məqsədi ədalətli və davamlı şəkildə iqtisadi və sosial rifahın təmin olunmasına kömək etməkdir. Yoxsulluğun əsas səbəbləri işsizlik və natamam məşğulluq olduğundan başlıca vəzifə iqtisadiyyatı tam məşğulluğa mümkün qədər yaxın tutmaqdır [6, səh.3-4].

Stabil makroiqtisadi mühit iqtisadi artımı stimullaşdırmır, həm də istehsalın artımı üçün vacib şərtdir. Maliyyə böhranının yaratdığı stabil olmayan inflyasiya və dövlət maliyyəsinin və davamlılığına inamsızlıq və tənəzzüllə əlaqədar gələcək iqtisadi proqnozun qeyri-müəyyənliyi əhəmiyyətli dərəcədə investisiyaları azalda bilər. Fişer (1993) aşağı və proqnozlaşdırılan inflyasiya və davamlı fiskal siyasətlə xarakterizə olunan stabil makroiqtisadi strukturu müəyyən edir və göstərir ki, bu hər iki amil kapital yığımını və istehsal səviyyəsini artırır. Son maliyyə böhranı iqtisadi mühitin stabilliyinə təsir göstərən əlavə amilləri - dövlət maliyyəsinin tərkibi, onun maliyyə sektoru ilə dinamik qarşılıqlı təsirləri və maliyyə böhranı nəticəsində yaranan tənəzzülün fəlakətli təsiri kimi amilləri də ortaya çıxardı [7, səh. 47].

## Makroiqtisadi sabitlik haqqında

“Makroiqtisadi sabitlik” termini xarici şoklara qarşı həssaslığı minimuma endirən milli iqtisadiyyatı təsvir edir və bu da dayanıqlı inkişaf üçün perspektivləri artırır. Makroiqtisadi sabitlik qlobal bazarda valyuta və faiz dəyişmələrinə qarşı bir sədd kimi çıxış edir. Bu, artım üçün zəruri, lakin qeyri-kafi bir tələbdir. Valyuta dəyişmələrinə məruz qalma, böyük borc yükü və idarə edilməyən inflyasiya iqtisadi böhranlara və ÜDM-də çökməyə səbəb ola bilər.

Həm Beynəlxalq Valyuta Fondu (BVF), həm də Avropa Birliyi (AB) makroiqtisadi sabitliyə diqqəti vurğulayırlar. Maastrixt meyarlarına görə sabitlik beş dəyişən ilə ölçülür:

- Aşağı və sabit inflyasiya bazarda sağlam tələbatın olduğunu göstərir, lakin yüksək və ya qeyri-sabit inflyasiya artım üçün təhlükəyə səbəb olur. Yüksək inflyasiya uzunmüddətli müqavilələrin dəyərini dəyişir. Qeyri-sabit inflyasiya riskləri artıraraq bazarda qeyri-müəyyənlik yaradır. Belə ki, bir çox faiz dərəcələri orta inflyasiya zamanı korrektə olunur, dəyişkən inflyasiya hökumət gəlirlərini və fərdi öhdəlikləri ciddi şəkildə dəyişə bilər. Maastrixt meyarları inflyasiyanı 3% səviyyəsində məhdudlaşdırır.
- Aşağı uzunmüddətli faiz dərəcələri stabil gələcək inflyasiya gözləntilərini əks etdirir. Cari inflyasiya sürəti qəbul edilə bilən səviyyədə olmasına baxmayaraq, yüksək uzunmüddətli

faiz dərəcələri daha yüksək inflyasiyanın gələcəyini nəzərdə tutur. Maastrixt meyarları uzunmüddətli faiz dərəcələrini 9%-ə qədər məhdudlaşdırır.

- ÜDM ilə müqayisədə aşağı dövlət borcu hökumətin xarici kreditorların əvəzinə daxili tələbatı ödəmək üçün vergi gəlirlərindən istifadədə çevikliyə malik olacağını göstərir. Bundan başqa, aşağı dövlət borcu böhran dövründə yumşaq fiskal siyasətə icazə verir. Maastrixt meyarları borcu ÜDM-in 60%-i nisbətində məhdudlaşdırır.
- Aşağı defisit dövlət borcunun artımına mane olur. Maastrixt meyarları defisiti ÜDM-in 3%-i nisbətində məhdudlaşdırır.
- Valyutanın sabitliyi idxalçılara və ixracatçılara uzunmüddətli artım strategiyasını işləməyə imkan verir və investorların valyuta məzənnəsi risklərinin idarə olunmasına ehtiyaclarını azaldır. Valyuta sabitliyi milli mühasibat uçotu üçün xarici valyutada borc probleminin yaratdığı təhlükəni azaldır. Maastrixt meyarları 2,5%-dən çox olmayan dalğalanmaya icazə verir [4].

Makroiqtisadi mühitin sabitliyi biznes üçün vacibdir və buna görə də ölkənin ümumi rəqabətqabliyyətliliyi üçün böyük əhəmiyyət kəsb edir. Baxmayaraq ki, makroiqtisadi stabillik öz-özlüyündə milli istehsalı artıra bilmir, lakin makroiqtisadi böhran da iqtisadiyyata ziyan vurur, necə ki son illər biz bunu Avropa kontekstində daha aydın görürük. Hökumət əgər keçmiş borclar üzrə yüksək faiz dərəcələri ödəməli olursa, səmərəli xidmət göstərə bilmir. Maliyyə büdcəsinin kəsirləri gələcəkdə hökumətin biznes-tsiklə reaksiya vermək bacarığını məhdudlaşdırır. İnflyasiya səviyyəsi nəzarətdən çıxdıqda firmalar səmərəli fəaliyyət göstərə bilmirlər. Bütövlükdə makroiqtisadi mühit stabil olmadıqda dayanıqlı iqtisadi artım mümkün olmur [5, səh.318].

Son böhran göstərdi ki, maliyyə böhranı maliyyə sektorunda baş versə də, qeyri-stabil iqtisadi perspektivlər yaradaraq makroiqtisadi nəticələri ola bilər. Maliyyə böhranı ilə əlaqədar olan tənəzzül ləngimələrin yaratdığı uzunmüddətli məhsuldarlığa ziyan vura bilər, hansı ki bu da qlobal iqtisadiyyatın böhrandan əvvəlki artım səviyyəsinə nəyə görə qayıda bilməməsini izah edir. Maliyyə böhranı bankların krediti məhdudlaşdırmasına, investisiyaların ixtisar olunmasına və işsizliyin artmasına səbəb olur [7, səh.48].

**Maliyyə mexanizmlərinin makroiqtisadi tarazlığa təsiri**

İqtisadiyyatın sabitləşməsi və bərpasına normal şərait yaratmaq üçün dövlət maliyyə, elmi-texniki, investisiya, qiymət, amortizasiya, pul-kredit və digər siyasət növlərindən ibarət olan müvafiq iqtisadi siyasəti tətbiq etməlidir. Onların reallaşdırılması isə iqtisadi və inzibati metodlar vasitəsi ilə mümkündür.

Makroiqtisadi tarazlığa təsir edən əsas səbəblərdən biri bazar müvəffəqiyyətsizlikləri, bunun isə ən yaxşı bilinən nümunələri mal və xidmət bazarlarındakı tələb-təklif balanssızlığından qaynaqlanan inflyasiya, deflyasiya, əmək bazarlarında ortaya çıxan işsizlik, idxalat-ixracat arasındakı balanssızlığın nəticəsi, cari əməliyyatların kəsiri və ya profisiti kimi makroiqtisadi mövzulardır. Bazarların özbaşına tarazlığa gəlmədiyi bu cür problemlərlə dövlətin məşğul olması zərurəti yaranır. Dövlət pul və maliyyə siyasəti vasitələrindən istifadə edərək bazarları balanslaşdırmağa çalışır.

Maliyyə siyasətinin əsas hissəsini maliyyə sahəsində dövlətin bütün fəaliyyətinin həyata keçirilməsinə şərait yaradan maliyyə mexanizmi təşkil edir. İstənilən dövlətdə maliyyə siyasətinin uğurla həyata keçirilməsi üçün maliyyə mexanizmindən maliyyə münasibətlərinin idarəsi və tənzimləyici elementi kimi istifadə olunur. Maliyyə mexanizmi cəmiyyət tərəfindən iqtisadi və sosial inkişaf üçün əlverişli şəraitin təmin olunması məqsədi ilə tətbiq olunan maliyyə münasibətlərinin təşkil edilməsi üsullarının məcmusunu özündə əks etdirir.

Maliyyə mexanizmi dövlətin maliyyə siyasətinin həyata keçirilməsi alətidir. Maliyyə mexanizminin müxtəlif elementlərindən istifadə edərək dövlət maliyyə siyasətinin məqsədlərinin reallaşdırılmasını, strateji və taktiki məsələlərin həllini təmin etməyə çalışır. Cəmiyyətin iqtisadi və sosial inkişaf şəraitindən asılı olaraq, maliyyə mexanizminin müvafiq elementlərinin dəyişməsi onun iqtisadi və sosial sferaya maddi və mənəvi təsir imkanını təyin edir.

Maliyyə siyasətinin həyata keçirilməsi zamanı, həmçinin təsərrüfat subyektlərinin

sərəncamında olan maliyyə resurslarının artımı, möhkəm maliyyə əsaslarının yaradılması, dövlətin iqtisadi vəziyyətinin və əhalinin sosial müdafiəsinin yaxşılaşdırılması məqsədi ilə ictimai istehsalın stabilliyini təmin etməyə diqqət etmək lazımdır.

Dövlət bazar qeyri-tarazlıqlarının aradan qaldırılmasına əlavə olaraq, makroiqtisadi bir hədəf kimi uzun dövr kafi böyümə və inkişafı təmin edəcək şərtləri də meydana gətirmək məcburiyyətindədir [2, səh.18].

Qeyd etmək lazımdır ki, respublikamızın iqtisadiyyatının tənzimlənməsində pul-kredit siyasəti mühüm rol oynayır. Pul-kredit siyasəti iqtisadi proseslərin çevik idarə olunması və stabilləşdirilməsi üçün Mərkəzi Bankın (MB) tədbirlər sistemindən ibarətdir. Pul-kredit siyasətinin əsas ideyası iqtisadiyyatda tam məşğulluğu təmin etmək və inflyasiya olmayan bir səviyyəyə çatmağa kömək etməkdir. Pul-kredit siyasəti əsasən iqtisadiyyatı stabilləşdirmək üçün istifadə edilən pul təklifindəki dəyişikliklərdən ibarətdir. Çünki pul kütləsi qiymətlərin stabilliyində, ümumi tələb və təklifin balanslaşdırılmasında mühüm amil hesab edilir. Mərkəzi Bank elə bir qiymət hədləri formalaşdırmağa çalışır ki, həm istehsalçının və istehlakçının maraqları uzlaşsın, həm də iqtisadi artım baş versin.

Adətən, MB-nin pul-kredit siyasəti maliyyə sabitliyinə nail olunmasına və saxlanmasına, ilk növbədə isə milli valyutanın məzənnəsinin qorunub saxlanmasına və ölkənin tədiyə balansının sabitliyinin təmin olunmasına yönəldilir.

Pul-kredit tənzimlənməsi MB-nin dövriyyədə pul kütləsinin dəyişməsinə, kreditlərin həcminə, faiz dərəcələrinin səviyyəsinə və pul dövriyyəsinin və borc kapitalı bazarının digər göstəricilərinə yönəlmiş konkret tədbirlərinin məcmusudur. Pul-kredit siyasətinin əsas vəzifələrinə aşağıdakılar aiddir:

1) İqtisadi konyunkturanı tənzimləmək və inflyasiya ilə mübarizə aparmaq;
2) Milli valyutanın məzənnəsini aparıcı dövlətlərin dönərli valyutalarına nisbətən tənzimləmək;
3) Ölkənin müsbət tədiyə balansına nail olmaq.

Dövlətin həyata keçirdiyi pul-kredit siyasətini reallaşdırmaq üçün onun aşağıdakı istiqamətlərini seçirlər:

1) Dövriyyədə olan pul kütləsini tənzimləmək və inflyasiyanın səviyyəsini müəyyən etmək;
2) Dövlət üçün vacib sayılan iqtisadi sabitliyə nailolmada pul-kredit siyasətinin müəyyən vaxt üçün zəruri olan metodlarının seçilməsi və tətbiqi;
3) Dövlətin cari və gələcək dövr üçün pul-kredit siyasəti sahəsində strategiyasını müəyyənləşdirmək;
4) Hər il üçün pul-kredit siyasətində tətbiq edilən tədbirlərin istiqamətlərini və müddətini dövlətin idarəedici hakimiyyət orqanları tərəfindən təsdiqləmək.

Pul-kredit siyasətinin həyata keçirilməsi metodları aşağıdakılardan ibarətdir:

1. Mərkəzləşdirilmiş kredit əməliyyatları üzrə faiz dərəcələrinin müəyyənləşdirilməsi;
2. Məcburi ehtiyat normalarının müəyyənləşdirilməsi;
3. Sərbəst bazarda qiymətli kağızlarla bank əməliyyatlarının aparılması;
4. Kredit təşkilatlarına mərkəzləşdirilmiş kreditlərin verilməsi;
5. Valyuta müdaxiləsi və mübadilə məzənnələri siyasətinin həyata keçirilməsi;
6. Bank əməliyyatlarının məhdudlaşdırılması.

Ölkədə pul tədavülü mexanizmini formalaşdırarkən əsas məsələ iqtisadi artımın təmin edilməsi üçün ölkə iqtisadiyyatına nə qədər və hansı pulların lazım olmasını müəyyən etməkdən ibarətdir. Bu zaman pul kütləsi artımının tənzimlənməsinin və maliyyə-pul sisteminin fəaliyyətinin məqsədli istiqamətlərinin seçilməsi əsas xətt kimi götürülməlidir. Son illərin əsas makroiqtisadi göstəricilərinin dinamikasının təhlili göstərir ki, pul kütləsi həcminin iqtisadiyyatın tələbatına uyğunluğu problemini

həll etmədən iqtisadi artımın dayanıqlı olması problemini də sona qədər həll etmək mümkün deyildir. Lakin belə bir arqument gətirmək olar ki, əmtəə-pul tarazlığının təmin edilməsi üçün pul kütləsinin həcmi bütün əmtəə və xidmətlərin dəyərinə uyğun olmalıdır, yəni dövriyyədə əmtəə və xidmətlərin dəyəri həcmində pul olmalıdır. Elə bu müddəadan da başlıca paradoks yaranır. Əgər pul kütləsi qiymətlərin artım sürətinə uyğun nisbətlərdə artırılarsa, onda iqtisadi mexanizm sürətlə hiperinflyasiya spiralına daxil olacaqdır. Lakin dövriyyədəki pulun həcmi artırılmazsa, onda aşağı inflyasiya şəraitində istehsalın uzunmüddətli və dərin tənəzzülü baş verəcəkdir. Mərkəzi Bank tədavül üçün zəruri olan pul kütləsi miqdarının düzgün müəyyən edilməsinə xüsusi əhəmiyyət verir. Tədavül üçün zəruri olan pul kütləsinin (miqdarının) pul tarazlığı düsturu aşağıdakı kimidir:

$$M=PY/V$$

Burada P- qiymət indeksi; Y- məhsul həcmi; V- dövriyyə sürətini əks etdirir.

Ölkədə iqtisadi artım sürətinin dayanıqlı olmasını təmin etməyin əsası ÜDM-in pul kütləsinin həcminə uyğunluğunun tənzimlənməsindən ibarətdir. Onu da qeyd etmək lazımdır ki, dövriyyədəki pul kütləsi həcminin dəyişməsinə ani müddətdə reaksiya verən qiymətlərin nəzarətsiz yüksəlişi şəraitində pulun dövretmə sürətinin nizamlanması tədbirləri yalnız qısamüddətli səmərə verə bilər. Yaddan çıxarmaq olmaz ki, iqtisadi artım yalnız tədiyə qabiliyyətli tələbin səviyyəsinin əmtəə təklifinə uyğunluğu şəraitində mümkündür. Əgər tələb davamlı olaraq təklifdən geri qalarsa, o zaman əmtəə təklifi də ixtisar olunacaqdır.

Odur ki, ölkədə pul kütləsinin tənzimlənməsi və dövlətin maliyyə-pul sisteminin təhlükəsizliyinin möhkəmləndirilməsi üçün pul tədavülünün normallaşdırılması, ölkədaxili qarşılıqlı ödəmələrin "bağlanması", mərkəzdə və yerlərdə səmərəli və dayanıqlı fəaliyyət göstərən kredit-hesablaşma bazasının yaradılması və iqtisadiyyatın monetizasiyası sahəsində tədbirlərin həyata keçirilməsi zəruridir [3, səh. 244-247].

Qeyd etmək lazımdır ki, pul-kredit siyasətinin alətlərindən biri də depozit əməliyyatlarıdır. Azərbaycanda həyata keçirilən pul-kredit siyasəti nəticəsində son illər əhalidən cəlb olunmuş əmanətlər xeyli artmışdır (cədvəl 1). Əmanətlərin valyutalar üzrə struktur təhlili isə iqtisadi subyektlərin inamının artdığını göstərir. Belə ki, xarici valyuta ilə müqayisədə manatla əmanətlərin artımı daha çoxdur. Bu amil pul kütləsinin strukturunu yaxşılaşdırmaqla manatın dövriyyədə rolunun daha da möhkəmlənməsinə əlverişli zəmin yaratdı. Lakin 2015-ci ildəki devalvasiyadan sonra manatla artım zəifləmiş, əvəzində xarici valyuta ilə artım üstünlük təşkil etməyə başlamışdır. Sonrakı illərdə, yəni 2016 və 2017-ci illərdə isə həyata keçirilən pul-kredit siyasəti nəticəsində manatla artım yenidən artmağa başlamışdır. Bunu aşağıdakı cədvəldən də aydın görmək olur [1].

**Cədvəl 1**

**Əhalidən cəlb olunmuş əmanətlər (mln. manat)**

| İllər | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|---|---|---|
| Əhalidən cəlb olunmuş əmanətlər | 3029,8 | 4119,8 | 5113,4 | 6395,8 | 7188,4 | 9473,9 | 7448,7 | 7561,2 |
| ondan: milli valyuta ilə | 1410,0 | 2281,7 | 2963,8 | 3888,3 | 4422,4 | 1420,2 | 1517,3 | 2532,9 |
| xarici valyuta ilə | 1619,8 | 1838,1 | 2149,6 | 2507,5 | 2766,0 | 8053,7 | 5931,4 | 5028,3 |
| Əmanətlərin artımı, faizlə | 129,8 | 136,0 | 124,1 | 125,1 | 112,4 | 131,8 | 78,6 | 101,5 |

Pul-kredit siyasəti yalnız makromaliyyə sabitliyi naminə deyil, istehsalın canlandırılması və sağlamlaşdırılmasına və bütövlükdə iqtisadi konyunkturanın yaxşılaşdırılmasına kömək etməlidir. Manatın sabitliyinin və inflyasiyanın cilovlanmasını təmin edən sərt pul-kredit siyasəti elə aparılmalıdır ki, bu siyasətin iqtisadiyyata olan mənfi təsirini minimuma endirmək mümkün olsun. Bu gün iqtisadi islahatları uğurla aparmaq üçün sabit manat və inflyasiyanın aşağı olması vacibdir.

Buna nail olmaq üçün möhkəm iqtisadiyyata söykənən əsl maliyyə sabitliyi olan mikromaliyyə sabitliyinin yaradılması zəruridir. Bunun üçün pul-kredit siyasəti iqtisadi siyasətin digər blokları ilə əlaqə aparmalı və bütövlükdə iqtisadiyyatın səmərəli fəaliyyət göstərməsinə xidmət etməlidir.

Büdcə-vergi siyasəti (fiskal siyasət) isə dövlətin sosial-iqtisadi inkişafın müvafiq tapşırıqlarının yerinə yetirilməsinə yönəldilmiş dövlət xərclərinin, vergilərin və dövlət büdcəsinin ümumi vəziyyətinin dəyişdirilməsi ilə əlaqədar xüsusi tədbirlərinin məcmusu kimi ortaya çıxır [10, səh.126]. Fiskal siyasət antiböhran tənzimlənməsi, yüksək məşğulluğun təmin edilməsi, inflyasiya ilə mübarizə kimi strateji məsələlərdən asılı olaraq çox dəyişir.

Fiskal siyasət hökumətin iqtisadiyyatı stabilləşdirmək məqsədilə dövlət büdcəsinin gəlir və xərclərinin həcmini dəyişməklə həyata keçirdiyi tədbirlər məcmusu kimi çıxış edir. Buna görə də fiskal siyasəti həm də büdcə-vergi siyasəti də adlandırırlar.

Bütün stabilləşdirici siyasətlər kimi məqsədi iqtisadiyyatın tsiklik dalğalanmalarının yumşaldılmasına yönəlmiş fiskal siyasət aşağıdakıların təmin olunmasını özündə ehtiva edir:

1) Stabil iqtisadi artım;
2) Resursların tam məşğulluğu (ilk növbədə tsiklik işsizlik probleminin həlli);
3) Qiymətlərin stabil səviyyəsi (inflyasiya probleminin həlli) [9, səh.52].

Fiksal siyasət – ilk növbədə dövlət tərəfindən məcmu tələbin tənzimlənməsi siyasətidir. Bu halda, iqtisadiyyatın tənzimlənməsi məcmu xərclərin həcminə təsir nəticəsində mümkün olur. Bundan başqa, fiskal siyasətin bəzi alətləri əmək fəaliyyətinin səviyyəsinə təsir vasitəsi ilə məcmu təklifin həcminə də təsir etmək üçün istifadə oluna bilər. Fiskal siyasəti hökumət həyata keçirir. Fiskal siyasətin alətləri kimi dövlət büdcəsinin gəlir və xərcləri, yəni dövlət satınalmaları, vergilər, transferlər çıxış edir [8, səh.82].

Fiskal siyasətin alətlərinin məcmu tələbə təsiri müxtəlifdir. Məcmu tələbin düsturu aşağıdakı kimidir:

$$AD=C+I+G+Xn$$

Burada C – istehlak xərcləri, I – investisiya xərcləri, G – dövlət satınalmaları, Xn – xalis ixracdır.

Bu düsturdan belə çıxır ki, dövlət satınalmaları məcmu tələbin bir komponenti olduğuna görə onun dəyişimi məcmu tələbə birbaşa təsir göstərir, vergilər və transferlər isə istehlak xərclərinin (C) və investisiya xərclərinin (I) həcmini dəyişərək dolayı təsir göstərir. Bu zaman dövlət satınalmalarının artımı məcmu tələbi artırır, onların ixtisarı isə məcmu tələbin azalmasına gətirib çıxarır, belə ki, dövlət satınalmaları məcmu xərclərin bir hissəsidir [10, səh.127].

Transferlərin artımı da məcmu tələbi artırır. Bir tərəfdən sosial transfer ödənişlərinin (sosial müavinətlərin) artması zamanı ev təsərrüfatlarının fərdi gəlirləri artır, nəticə olaraq isə digər bərabər şərtlərdə birdəfəlik gəlir artır ki, bu da istehlak xərclərini artırır. Digər tərəfdən firmalara sosial transfer ödənişlərinin (subsidiyaların) artımı firmaların daxili maliyyələşmə və istehsalın genişləndirilməsi imkanlarını artırır ki, bu da investisiya xərclərinin artımına səbəb olur. Transferlərin ixtisarı məcmu tələbi azaldır.

Vergilərin artımı əks istiqamətdə fəaliyyət göstərir. Vergilərin artırılması həm istehlak (belə ki, birdəfəlik gəlirləri azaldır), həm də investisiya xərclərinin (belə ki, xalis investisiyaların mənbəyi olan bölüşdürülməmiş mənfəət azalır) azalmasına gətirib çıxarır. Buna görə də məcmu tələbin azalmasına səbəb olur. Müvafiq olaraq, vergilərin azalması isə məcmu tələbi artırır.

Buna görə də fiskal siyasətin alətləri iqtisadi tsiklin müxtəlif fazalarında iqtisadiyyatı stabilləşdirmək üçün istifadə oluna bilər.

Keynsin sadə modelinə görə fiskal siyasətin bütün alətləri (dövlət satınalmaları, vergilər və transferlər) iqtisadiyyata multiplikasiya effekti verir, buna görə də Keynsin və onun davamçılarının fikrinə görə, iqtisadiyyatın tənzimlənməsi məhz fiskal siyasətin alətləri ilə aparılmalıdır və hər şeydən əvvəl, daha çox multiplikasiya effektinə malik dövlət satınalmalarının həcmini dəyişmək yolu ilə.

Yuxarıdakıları nəzərə alaraq, dövləti makroiqtisadiyyata təsir etməyə vadar edən əsas amillər cəmiyyətin müəyyən məqsədlərə çatmaq arzusudur. Makroiqtisadiyyatda 4 əsas məqsəd var:

1. Təbii, sosial fəlakətlərin təsiri altında və ya istehsalın dövri xarakterindən irəli gələn kəskin dəyişiklik olmadan məhsulun illik artımının yüksək faiz dərəcəsi ilə milli istehsalın sabit artımı;
2. Stabil qiymət səviyyəsi. Bu zaman qiymətlər azad bazar rəqabəti əsasında formalaşır və çox tez artmır;
3. Yüksək məşğulluq səviyyəsi. Bu zaman hər bir iş axtaran işi, iş yerinə məcburi bağlayan iş yerləri istisna olmaqla uyğun gəlirlə tapır;
4. Xarici ticarət balansının saxlanması, bu, ixrac və idxal arasında nisbi tarazlıq və milli valyutanın sabit məzənnəsi deməkdir.

**Nəticə**

Tədqiqat nəticəsində məlum olmuşdur ki:

- Bazar iqtisadiyyatı şəraitində makroiqtisadi tarazlığa nail olmaq ən prioritet məsələlərdən biridir. İqtisadi artım üçün səmərəli bazarlar və makroiqtisadi sabitlik vacibdir. Makroiqtisadi sabitlik ölkənin ümumi rəqabətqabliyyətliliyi üçün böyük əhəmiyyət kəsb edir.

- İqtisadi nəzəriyyədə iqtisadi tarazlığın bir neçə növünü ayırırlar ki, onlardan biri də makroiqtisadi tarazlıqdır. İqtisadiyyatın sabitləşməsi və bərpasına normal şərait yaratmaq üçün dövlət maliyyə, elmi-texniki, investisiya, qiymət, amortizasiya, pul-kredit və digər siyasət növlərindən ibarət olan müvafiq iqtisadi siyasəti tətbiq etməlidir.

- Dövlət maliyyə əlaqələrini təşkil etmək yollarını qanuni olaraq qurur. Eyni zamanda dövlət ÜDM-in bölgü metodlarını, pul yığımlarının formalarını, ödənişlərin növlərini, dövlət maliyyə resurslarının istifadə prinsiplərini və istiqamətlərini müəyyən edir. Bu zaman maliyyə mexanizmindən istifadə edir.

- Dövlət pul və maliyyə siyasəti vasitələrindən istifadə edərək bazarları balanslaşdırmağa çalışır. Maliyyə siyasətinin əsas hissəsini maliyyə sahəsində dövlətin bütün fəaliyyətinin həyata keçirilməsinə şərait yaradan maliyyə mexanizmi təşkil edir.

- Maliyyə böhranı maliyyə sektorunda baş versə də, qeyri-stabil iqtisadi perspektivlər yaradaraq makroiqtisadi nəticələr yaradır. Bu səbəbdən makroiqtisadi tarazlığa nail olmaq üçün düzgün maliyyə siyasəti aparılmalıdır.

- Makroiqtisadi tarazlığın təmin olunması üçün həyata keçirilən pul-kredit siyasəti yalnız makromaliyyə sabitliyi naminə deyil, istehsalın canlandırılması və sağlamlaşdırılmasına və bütövlükdə iqtisadi konyunkturanın yaxşılaşdırılmasına kömək etməlidir.

- Fiskal (büdcə-vergi) siyasətin alətləri iqtisadi tsiklin müxtəlif fazalarında iqtisadiyyatı stabilləşdirmək üçün istifadə oluna bilər.

**Lalə Vəliyeva**

**Makroiqtisadi tarazlığın təmin olunmasında maliyyə mexanizmlərinin rolu**

**Xülasə**

Məqalədə makroiqtisadi tarazlıq və onun təmin olunmasında maliyyə mexanizmlərinin rolu araşdırılmışdır. Makroiqtisadi tarazlığın qorunmasının vacibliyi qeyd olunmuş və makroiqtisadi stabilliyə nailolmanın yolları göstərilmişdir. Makroiqtisadi sabitlik haqqında Maastrixt meyarları verilmiş və makroiqtisadi tarazlığa təsir göstərən əsas səbəblər aydınlaşdırılmışdır. Maliyyə mexanizmlərinin makroiqtisadi tarazlığa təsiri göstərilmiş, pul-kredit siyasətinin və fiskal siyasətin rolu haqqında məlumat verilmişdir. Pul-kredit siyasətinin həyata keçirilməsi metodları və fiskal siyasətin alətləri göstərilmişdir. Makroiqtisadi tarazlıqla bərabər iqtisadi artımın da təmin olunmasının vacibliyi qeyd olunmuşdur. Milli istehsalın sabit artımı, stabil qiymətlər səviyyəsi, yüksək məşğulluq səviyyəsi, xarici ticarət balansının qorunub saxlanması və ümumilikdə iqtisadi konyunkturanı yaxşılaşdırmaq üçün makroiqtisadi tarazlığa nail olmaq əsas məqsəd kimi göstərilmişdir.

Məqalədə informasiya mənbələri kimi təqdim edilmiş arqumentlərin əsaslandırılması üçün cədvəl və düsturlardan istifadə olumuşdur.

**Лала Валиева**

**Роль финансовых механизмов в обеспечении макроэкономического баланса**

**Резюме**

В статье рассматривается макроэкономическое равновесие и роль финансовых механизмов в его обеспечении. Была подчеркнута важность поддержания макроэкономического баланса и пути достижения макроэкономической стабильности. Приведены Маастрихтские критерии макроэкономической стабильности и выявлены основные причины, влияющие на макроэкономический баланс. Было продемонстрировано влияние финансовых механизмов на макроэкономическое равновесие, а также роль денежно-кредитной и фискальной политики. Представлены методы реализации денежно-кредитной политики и инструменты фискальной политики. Отмечена важность обеспечения экономического роста наряду с макроэкономическим балансом. Основной целью достижения макроэкономического баланса является обеспечения стабильного роста национального производства, стабильного уровня цен, высокого уровня занятости, сохранения баланса внешней торговли и общей экономической конъюнктуры.

В статье используются таблицы и формулы для обоснования аргументов, представленных в качестве источников информации.

**Lala Valiyeva**

**The role of financial mechanisms in ensuring macroeconomic balance**

**Summary**

The article examines macroeconomic equilibrium and the role of financial mechanisms in its provision. The importance of maintaining macroeconomic balance and ways to achieve macroeconomic stability are highlighted. Maastricht criteria on macroeconomic stability are given and the main reasons affecting macroeconomic balance are clarified. The influence of financial mechanisms on the macroeconomic balance has been demonstrated, the role of monetary policy and the role of fiscal policy has been shown. Methods of implementation of monetary policy and tools of fiscal policy are presented. It is also important to ensure economic growth along with macroeconomic balance. The main objective of achieving macroeconomic balance is to achieve stable growth of national production, stable level of prices, high employment level, maintenance of foreign trade balance and overall economic conjuncture.

Tables and formulas to justify the arguments presented as sources of information have been used in the article.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi saytı: www.stat.gov.az
2. Prof.Dr.Cihan Bulut, Elçin Süleymanov./Dövlət maliyyəsi/ Qafqaz Universiteti nəşri. Bakı-2013
3. A.Ş.Şəkərəliyev. Dövlətin iqtisadi siyasəti: reallıqlar və perspektivlər. Bakı-2009
4. The REUT İnstitude. //Macroeconomic Stability// December 2006
5. The World Economic Forum 2017//The Global Competitiveness Report 2017–2018// P.381
6. UN System Task Team On The Post-2015 UN Development Agenda // Macroeconomic stability, inclusive growth and employment // May 2012, P.12
7. World Economic Forum. Macroeconomic environment //Global Competitiveness Report-2015-2016// P.385
8. А.И.Авраменко. Экономическая теория 2-ое изд. Мн.: Академия МВД РБ, 2004. стр. 252
9. В.Л.Василенок. Экономика. Микроэкономика и макроэкономика: Учеб. пособие/ В.Л.Василенок, М.А.Макарченко. СПб.: СПбГУНиПТ. 2003, стр. 217.
10. И.М.Лемешевский. Макроэкономика (экономическая теория Ч.3.). Учебное пособие для вузов. Мн.: ООО «ФУАинформ», 2004, стр. 576.

# AZƏRBAYCANDA ƏHALİNİN SAĞLAMLIQ STATİSTİKASI

***Fərhad Qubatov***
*Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi*
*Sosial statistika şöbəsi müdirinin müavini*
*AZ 1136, Bakı şəhəri, İnşaatçılar prospekti 81*
*e-poçt: farhadg@azstat.org*

**Açar sözlər:** əhali, səhiyyə, xəstələnmə, tədbirlər, diaqnoz, tibb, profilaktika.
**Ключевые слова:** население, здравоохранение, заболевание, меры, диагноз, медицина, профилактика.
**Keywords:** population, health, disease, measures, diagnosis, medical, prophylaxis.

Ölkəmizdə baş verən sürətli iqtisadi inkişaf bütün sosial sahələrin, o cümlədən səhiyyənin inkişafına da əsaslı təkan vermişdir.

Səhiyyə sektorunun inkişafı ilə bağlı islahatlar dövlətin həyata keçirdiyi sosial siyasətin başlıca istiqamətlərindən birini təşkil edir. Təbii ki, bu da dövlətimizin vətəndaş amilinə verdiyi dəyərdən irəli gəlir. İnsanların sağlam, əmin-amanlıq şəraitində yaşaması dövlətin siyasətində əsas yer tutur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin apardığı sosialyönümlü siyasətin məntiqi nəticəsi olaraq son illər ərzində səhiyyənin inkişafı istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilmişdir. Belə ki, atılan addımlar, həyata keçirilən məqsədyönlü siyasət bu sahəni keyfiyyət və kəmiyyət göstəriciləri ilə zənginləşdirmiş, səhiyyə sektoru yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Səhiyyə ilə bağlı mühüm dövlət proqramlarının hazırlanaraq həyata keçirilməsi, əhalinin sağlamlığının daha etibarlı şəkildə qorunması, onların ən yüksək səviyyədə tibbi xidmətlərlə təmin olunması bu istiqamətdə həyata keçirilən siyasətin prioritetləridir.

Ölkədə uğurla həyata keçirilən sosialyönümlü siyasət səhiyyənin inkişaf etdirilməsinə və əhalinin sağlamlığının qorunması problemlərinin həll edilməsinə imkan yaradır. Səhiyyənin maddi-texniki bazasının möhkəmləndirilməsi, yeni tibb müəssisələrinin tikintisi, əsaslı təmiri və yenidən qurulması, onların ən müasir tibbi avadanlıqlarla təchiz edilməsi bu sahəyə göstərilən dövlət qayğısının bariz nümunəsidir.

2017-ci ildə dövlət büdcəsindən səhiyyəyə ayrılan vəsaitin məbləği 2012-ci illə müqayisədə 15,6 faiz, 2016-cı illə müqayisədə isə 0,3 faiz artaraq 704,7 milyon manat təşkil etmiş, 2018-ci ilin büdcəsində isə bu məqsədlə 739,3 milyon manat vəsait ayrılmışdır [4].

Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 27 fevral tarixli 118 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq, ölkədə aparıcı texnologiyalarla, müasir tibbi avadanlıqlarla təchiz olunmuş yeni tibb mərkəzlərinin yaradılması işi davam etdirilmişdir.

2018-ci ilin əvvəlinə ölkədə 31,9 min həkim və 52,8 min orta tibb işçisinin çalışdığı 566 xəstəxana, 1737 ambulator-poliklinika, 79 təcili tibbi yardım stansiyası (şöbəsi), 130 qadın məsləhətxanası və ya qadın məsləhətxanası şöbəsi olan müəssisə fəaliyyət göstərmişdir. Əhalinin hər 10 min nəfərinə 32,6 həkim və 54,0 orta tibb işçisi düşmüşdür [4].

2017-ci ildə ölkənin ali və orta ixtisas təhsili müəssisələrində min dörd yüz nəfər həkim və min səkkiz yüz nəfər orta tibb işçisi hazırlanmışdır [4].

Səhiyyədə tətbiq edilən profilaktika, diaqnostika və müalicə üsullarından, tibbi texnologiyalardan, dərman və dezinfeksiya vasitələrindən, immunobioloji preparatlardan qanunvericilikdə müəyyən edilmiş qaydada istifadə edilir.

Səhiyyənin profilaktikası universal səhiyyənin əsasını təşkil etməklə xəstəliklərin qarşısının vaxtında alınması və sağlamlığın təşviqi, qeyri-infeksion xəstəliklərin aradan qaldırılması kimi əsas aspektləri özündə cəmləşdirir.

2017-ci ildə ilk dəfə qoyulmuş diaqnozla qeydə alınan xəstələrin sayı 1875,7 min nəfər və ya

əhalinin hər 10 min nəfərinə hesabı ilə 1927 nəfər olmuşdur. İlk dəfə diaqnoz qoyulmuş xəstələrin ümumi sayında 18 yaşadək uşaqların xüsusi çəkisi 41,6 faiz təşkil etmiş və bu yaşda olan uşaqların hər 10 min nəfəri hesabı ilə xəstələnmə səviyyəsi 2014-cü ilin göstəricisindən 165 nəfər, 2015-ci ilin göstəricisindən 123 nəfər, 2016-cı ilin göstəricisindən isə 22 nəfər aşağı olmaqla 2990 nəfərə bərabər olmuşdur [4].




Şəkil 1. 2017-ci ildə əsas xəstəlik sinifləri üzrə əhalinin xəstələnməsi (faizlə)

Tənəffüs orqanlarının xəstəlikləri əhalinin xəstəliklərinin ümumi sayında böyük paya malikdir. Belə ki, 2017-ci ildə ilk dəfə diaqnoz qoyulmuş tənəffüs orqanlarının xəstəlikləri ölkə üzrə qeydə alınmış xəstəliklərin ümumi sayının 39,2 faizini təşkil etmişdir. Əhalinin 10 min nəfərinə hesabı ilə bu diaqnozla xəstələnənlərin sayı 2013-cü ilin göstəricisindən 30 nəfər, 2014-cü ilin göstəricisindən 31 nəfər, 2015-ci ilin göstəricisindən 34 nəfər, 2016-cı ilin göstəricisindən isə 22 nəfər aşağı olmaqla 756 nəfər təşkil etmişdir [4].

Yoluxucu xəstəliklərin profilaktikası sahəsində həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində nəzərəçarpacaq nailiyyətlər əldə edilmişdir. Yoluxucu xəstəliklərin profilaktikası, bu xəstəliklər səbəbindən əlilliyin azaldılması və qarşısının alınması işində uşaqların yeni təqvim əsasında vaxtında müasir vaksinlərlə peyvənd olunması xüsusi əhəmiyyət kəsb edir. 2017-ci ildə Azərbaycanda inkişaf etmiş Avropa ölkələrində olduğu kimi yoluxucu xəstəliklərdən qorunması məqsədilə uşaqlara 11 xəstəliyə qarşı peyvənd edilmişdir [2].

Həyata keçirilmiş profilaktik tədbirlər nəticəsində ötən il ayrı-ayrı yoluxucu xəstəliklərlə xəstələnənlərin sayı azalmışdır. Belə ki, 2005-ci ildə məxmərəklə xəstələnənlərin sayı 1025 nəfər, malyariya ilə xəstələnənlərin sayı 243 nəfər, qızılca ilə xəstələnənlərin sayı 1238 nəfər, epidemik parotit ilə xəstələnənlərin sayı 303 nəfər olduğu halda, 2017-ci ildə bu səbəblərdən xəstələnənlər qeydə alınmamış, viruslu hepatitlə xəstələnənlərin sayı 1691 nəfərdən 373 nəfərədək, pedikulyoz ilə -1139 nəfərdən 117 nəfərədək, qoturluq ilə xəstələnənlərin sayı isə 1263 nəfərdən 168 nəfərədək azalmışdır [4].

Səhiyyənin prioritet sahələri olan ana və uşaqların sağlamlığı, şəkərli diabet, irsi qan xəstəlikləri, xroniki böyrək çatışmazlığı, vərəm, yoluxucu xəstəliklərin immuno-profilaktikası üzrə həyata keçirilən tədbirlər nəticəsində xəstələrə göstərilən tibbi xidmətin səviyyəsi yüksəlmiş, bu xəstəliklər üzrə müayinələrin sayı artırılmışdır.




Şəkil 2. 2017-ci ildə profilaktik peyvəndlə əhatə olunmuş uşaqlar (faizlə)

2017-ci ildə ilk dəfə qoyulmuş diaqnozla qeydə alınan şəkərli diabetlə xəstələnənlərin sayı 24,9 min nəfər və ya əhalinin hər 100 min nəfərinə hesabı ilə 256 nəfər təşkil etmiş və 2013-cü ilə nisbətən 5 nəfər, 2014-cü ilə nisbətən isə 12 nəfər az olmuşdur [4].

Talassemiya xəstəliyinin müalicəsi və diaqnostikası istiqamətində mühüm tədbirlər görülmüşdür. "Hemofiliya və talassemiya irsi qan xəstəliklərinə düçar olmuş şəxslərə dövlət qayğısı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 18 iyul tarixli 264 nömrəli Fərmanına uyğun olaraq, Nazirlər Kabinetinin qərarları ilə təsdiq edilmiş tədbirlər proqramlarının həyata keçirilməsi bu xəstələrin donor qanına və dəmirqovucu dərman preparatlarına ehtiyacının tam ödənilməsinə, onların sağlamlıq vəziyyətinin yaxşılaşmasına imkan yaratmışdır.

Heydər Əliyev Fondunun təşəbbüsü ilə Respublika Talassemiya Mərkəzinin yaradılması nəticəsində bu xəstələrin müalicəsinin müasir səviyyədə təşkili mümkün olmuşdur.

Görülən tədbirlər nəticəsində talassemiyalı xəstələrin normal həyat fəaliyyəti təmin olunmuş, bu xəstəlikdən əlillik və ölüm halları azalmışdır.

"Talassemiya ilə mübarizəyə dair 2015-2020-ci illər üçün Dövlət Proqramı" talassemiyanın profilaktikasının gücləndirilməsinə, əhali arasında maarifləndirmə işlərinin genişləndirilməsinə və ümumən, talassemiyalı xəstələrə göstərilən tibbi yardımın təkmilləşdirilməsinə yönəlmişdir. Talassemiyanın profilaktikası baxımından cənab Prezidentin təşəbbüsü ilə nikaha daxil olanların tibbi müayinəsi çox böyük əhəmiyyət kəsb edir.

İlk dəfə qoyulmuş diaqnozla qeydə alınan talassemiya ilə xəstələnənlərin sayı 2017-ci ildə 561 nəfər, hemofiliya ilə xəstələnənlərin sayı isə 76 nəfər olmuşdur. Tibb müəssisələrində qeydiyyatda olan talassemiya və hemofiliya ilə xəstələrin əhalinin hər 100 min nəfərinə düşən sayı müvafiq olaraq 39 və 12 nəfər olmuşdur [4].

Son illər strateji əhəmiyyətli məsələ kimi qan xidmətinin inkişafına xüsusi diqqət yetirilir. Əhalinin donorluğa cəlb edilməsi işinin aktivləşdirilməsi nəticəsində tədarük olunan qan və onun komponentlərinin miqdarı ilbəil artırılır.

Bədxassəli şişlərlə mübarizə işində də nəzərəçarpacaq irəliləyiş əldə olunmuşdur. Mütəmadi olaraq onkoloji yardım göstərən tibb müəssisələrinin maddi-texniki bazası yaxşılaşdırılır, yeni texnologiyalarla işləmək bacarıqlarına malik müvafiq mütəxəssislər hazırlanır.

Qanın bədxassəli xəstəlikləri ilə xəstələnmənin və bu səbəbdən ölüm hallarının yüksək

göstəriciləri, bu xəstəliklərə əsasən əmək qabiliyyəti yaşında olan insanların və uşaqların düçar olması, müayinə və müalicənin xəstələr üçün ağır maddi yük olması nəzərə alınaraq, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 11 noyabr tarixli 447 nömrəli qərarı ilə “2017-2021-ci illər üçün qanın bədxassəli xəstəlikləri ilə mübarizə üzrə Tədbirlər Proqramı” təsdiq edilmişdir.

Qeyd olunan Proqram qanın bədxassəli xəstəliklərinin diaqnostikasının və müalicəsinin müasir səviyyəyə çatdırılmasına və 2017-ci ildən başlayaraq, xəstələrin dövlət hesabına innovativ preparatlarla təminatına imkan yaratmışdır.




Şəkil 3. Əhalinin bədxassəli şişlərlə xəstələnməsi
(əhalinin hər 100 000 nəfərinə)

2017-ci ildə 11,2 min nəfərdə və ya əhalinin hər 100 min nəfərinə hesabı ilə 115 nəfərdə ilk dəfə bədxassəli şiş aşkar edilmişdir [4]. Cari ilin əvvəlinə əhalinin hər 100 min nəfərinə hesabı ilə tibb müəssisələrində qeydiyyatda olan belə xəstələrin sayı 468 nəfər olmuşdur [4]. Kişilər arasında traxeya, bronx və ağciyərin, mədənin, limfoid, qanyaradıcı və onlara mənşə və quruluşca yaxın toxumaların, prostat vəzinin, sidik kisəsinin, çənbər bağırsağın, qadınlar arasında isə süd vəzinin, uşaqlıq boynunun, yumurtalığın, mədənin, uşaqlıq cisminin bədxassəli şişlər ilə xəstələnmə halları daha çox olmuşdur.

Xroniki böyrək çatışmazlığı olan xəstələrin müalicəsi də ən ağır problemlərdən biridir. 2018-ci ilin əvvəlinə xroniki böyrək çatışmazlığı diaqnozu ilə dispanser qeydiyyatında olan xəstələrin sayı 4798[1] nəfər təşkil etmişdir. Ölkənin şəhər və rayonlarında fəaliyyət göstərən 43 mərkəzdə bu cür xəstələr hemodializ seansları və müvafiq dərman vasitələri ilə tam həcmdə pulsuz təmin olunurlar.

2017-ci ildə Masallı, Zərdab, Sabirabad, Neftçala rayonlarında yeni hemodializ şöbələri açılmış, Respublika Klinik Xəstəxanasının II hemodializ şöbəsində təmir işləri başa çatmışdır, Sumqayıt şəhəri və Bakı şəhəri 3 saylı Klinik xəstəxanasında fəaliyyətdə olan mövcud mərkəzlərə isə əlavə aparatlar quraşdırılmışdır. Qeyd etmək lazımdır ki, bu kateqoriya xəstələrə hazırda hemodializlə yanaşı, xəstəliyin radikal müalicə üsulu olan böyrəkköçürmə əməliyyatları da həyata keçirilir.

Vərəmlə mübarizə işinə xüsusi diqqət yetirilir. Ölkədə vərəm xəstələrinin müayinə və müalicəsi ödənişsiz həyata keçirilir. Vərəm əleyhinə dərmanlar Səhiyyə Nazirliyi tərəfindən müvafiq səhiyyə müəssisələrinə təqdim edilir. Müalicə tədbirləri ilə yanaşı, vaxtaşırı olaraq xəstələrin vəziyyəti ilə bağlı monitorinqlər aparılır.

Xəstəliyin diaqnostikasının yaxşılaşdırılması, dərmanlara davamlı vərəm xəstələrinin aktiv müalicəyə cəlb olunması, genişmiqyaslı profilaktik tədbirlərin görülməsi nəticəsində epidemioloji vəziyyətin stabilləşməsinə nail olunmuş, ölkə üzrə yeni doğulanların 97,1 faizi vərəmə qarşı vaksinlə peyvənd edilmişdir [4].




Şəkil 4. Əhalinin aktiv vərəmlə xəstələnməsi
(əhalinin hər 100 000 nəfərinə)

2017-ci ildə ilk dəfə qoyulmuş diaqnozla qeydə alınan vərəmlə xəstələnənlərin sayı 3871 nəfər olmuş və əhalinin hər 100 min nəfərinə hesabı ilə vərəmlə xəstələnmə səviyyəsi 2010-cu ildəki 54 nəfərdən 40 nəfərə qədər azalmışdır [3].

Cinsi yolla keçən bəzi xəstəliklərdə azalma müşahidə olunmuşdur. Belə ki, 2016-cı illə müqayisədə ötən il əhalinin hər 100 min nəfərinə hesabı ilə qonokokk infeksiyası ilə xəstələnmə səviyyəsi 5 nəfərdən 4 nəfərə qədər azalmışdır[1].

Ölkədə İİV/QİÇS epidemiyasına qarşı mübarizə beynəlxalq tələblərə uyğun qurulmuş və İİV ilə əlaqədar müayinələrin sayı artmışdır. Donor qanının təhlükəsizliyini təmin etmək məqsədi ilə ölkədə tədarük edilən qanın İİV-ə yoxlanılması tam həcmdə həyata keçirilir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 17 fevral tarixli 63 nömrəli qərarı ilə təsdiq edilmiş “2016-2020-ci illər üçün İİV/QİÇS-lə mübarizə üzrə Tədbirlər Proqramı”nın uğurla həyata keçirilməsi nəticəsində Azərbaycan hazırda insanın immunçatışmazlığı virusuna yoluxma səviyyəsi aşağı olan ölkələr sırasındadır.

2017-ci ildə insanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliklə xəstələnən ölkə vətəndaşlarının sayı 559 nəfər olmuşdur. Bu dövr ərzində 166 nəfər QİÇS mərhələsinə keçmişdir. Müalicə-profilaktika müəssisələrində qeydiyyatda olan İİV-ə yoluxmuş xəstələrin sayı 6538 nəfər və ya əhalinin hər 100 min nəfərinə hesabı ilə 67 nəfər, onlardan QİÇS mərhələsində olan xəstələrin sayı isə müvafiq olaraq 2007 və 21 nəfər olmuşdur [4].

“Dağınıq skleroz xəstəliyinin müalicəsi, profilaktikası və onunla mübarizə tədbirlərinə dair Dövlət Proqramı” çərçivəsində bu xəstəliyə tutulmuş şəxslərin dövlət tibb müəssisələrində müayinə və müalicəsi aparılmaqla bütün xəstələr yüksək effektli dərman preparatları ilə pulsuz təmin olunmuşdur. Görülən tədbirlər, bu xəstəlikdən əlilliyin və ölüm hallarının azalmasına şərait yaratmışdır.

2017-ci ildə ilk dəfə qoyulmuş diaqnozla qeydə alınan dağınıq skleroz ilə xəstələnənlərin sayı əvvəlki illə müqayisədə 24,9 faiz azalaraq 160 nəfər olmuş və ya əhalinin hər 100 min nəfərinə hesabı ilə 2 nəfər təşkil etmişdir[1].

[1] Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin rəsmi statistika hesabatlarının məlumatları əsasında hesablanmışdır.

Ana və uşaqların sağlamlığının qorunması işinin dövlət siyasətinin ən vacib istiqamətlərdən olduğunu bir daha sübut edən “Uşaqların icbari dispanserizasiyası haqqında” Azərbaycan Respublikası Qanunu və Dövlət Proqramı, “Ana və uşaqların sağlamlığının qorunması üzrə Dövlət Proqramı” qəbul edilmişdir. Qəbul olunmuş dövlət proqramları uşaqlar arasında xəstələnmənin, sağlamlıq imkanlarının məhdudluğunun və ölümün səviyyəsinin azaldılmasına, perinatal yardım islahatlarının davam etdirilməsinə, gənclərə göstərilən reproduktiv sağlamlıq və ailə planlaşdırılması xidmətlərinin yaxşılaşdırılmasına yönəldilmişdir.

Ölkənin səhiyyə sistemində aparılan köklü islahatlar nəticəsində 2017-ci ildə 2006-cı ilə nisbətən körpə ölümü hər 1000 nəfər diri doğulana 11,9-dan 11,1-ə qədər azalmışdır [4].

Hamiləlik dövründə və doğumdan sonrakı dövr üçün işləyən qadınlara 126, doğum çətin olduqda, iki və ya daha çox uşaq doğulduqda isə 140 təqvim günü müddətində ödənişli məzuniyyət verilir. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 23 fevral tarixli 3711 nömrəli Sərəncamına əsasən 2018-ci il mart ayının 1-dən hər bir uşağın anadan olmasına görə birdəfəlik müavinətin məbləği 10 faiz artırılaraq 109 manata çatdırılmışdır [1].

Ölkədə hər 10 min fertil yaşlı qadına 17 hamilə və zahı qadınlar üçün olan çarpayı düşür [4]. Əhalinin sağlamlığının qorunması hər bir insanın fiziki və ruhi sağlamlığının mühafizəsinə, onun fəal uzun ömürlüyünün artırılmasına, tibbi yardımla təminatına yönəldilmiş siyasi, iqtisadi, hüquqi, elmi, tibbi, sanitariya-gigiyena xarakterli tədbirlərin məcmusundan ibarətdir.

## Nəticə

“Azərbaycanda əhalinin sağlamlıq vəziyyəti” başlığı altında yazılan məqalənin nəticələrinin ümumiləşdirərək aşağıdakıları qeyd etmək olar:

1. Səhiyyə ilə bağlı mühüm dövlət proqramlarının hazırlanaraq həyata keçirilməsi, əhalinin sağlamlığının daha etibarlı şəkildə qorunması, onların ən yüksək səviyyədə tibbi xidmətlərlə təmin olunması bu istiqamətdə həyata keçirilən siyasətin prioritetləridir.

2. Səhiyyənin prioritet sahələri olan ana və uşaqların sağlamlığı, şəkərli diabet, irsi qan xəstəlikləri, xroniki böyrək çatışmazlığı, vərəm, yoluxucu xəstəliklərin immuno-profilaktikası üzrə həyata keçirilən tədbirlər nəticəsində bu sahədə xəstələrə göstərilən tibbi xidmətin səviyyəsi yüksəlmiş, bu xəstəliklər üzrə müayinələrin sayı artırılmışdır.

3. Həyata keçirilmiş profilaktik tədbirlər nəticəsində 2017-ci ildə ayrı-ayrı yoluxucu xəstəliklərlə xəstələnənlərin sayı əhəmiyyətli dərəcədə azalmış, bəzi yoluxucu xəstəliklərlə xəstələnənlər isə ümumiyyətlə qeydə alınmamışdır.

**Fərhad Qubatov**

**Azərbaycanda əhalinin sağlamlıq statistikası**

**Xülasə**

Məqalədə son illərdə əhalinin sağlamlığı ilə bağlı həyata keçirilən və uğurlu tədbirlər nəticəsində səhiyyə sahəsində əldə edilən müsbət dəyişikliklər hərtərəfli təhlil edilmişdir. Həmçinin ölkədə fəaliyyət göstərən müalicə-profilaktika müəssisələrinin şəbəkəsi, onlarda çalışan həkim və orta tibb işçilərinin sayı haqqında məlumatlar verilmişdir. Bununla yanaşı, əhalinin əsas xəstəlik sinifləri, ayrı-ayrı xəstəliklər üzrə xəstələnmə hallarının dinamikası göstərilmiş və təhlil olunmuşdur. Məqalədə həmçinin əhalinin sağlamlığına dair qəbul edilmiş və həyata keçirilmiş dövlət proqramları barədə məlumat verilmişdir.

**Фархад Губатов**

**Статистика здоровья населения в Азербайджане**

**Резюме**

В статье всесторонне проанализированы положительные изменения в области здравоохранения, полученные в результате проводимых успешных мер за последние годы, связанных с состоянием здоровья населения. Также дана информация о сети действующих

лечебно-профилактических учреждений в стране, о числе работающих в них врачей и среднего медицинского персонала. Наряду с этим, была показана и проанализирована динамика заболеваний населения по основным классам болезней и отдельным болезням. В статье также представлена информация о принятых и реализованных государственных программах по состоянию здоровья населения.

**Farhad Gubatov**

**Health statistics of population in Azerbaijan**

**Summary**

The article comprehensively analyzes the positive changes in the field of health, resulting from ongoing and successful measures in recent years related to the public health state. It also provides information on the network of existing medical and preventive treatment facilities in the country, on the number of doctors and nurses working there. Along with this, the dynamics of the diseases of the population by major classes of diseases and separate diseases was shown and analyzed. The article also provides information on the adopted and implemented state programs on the public health state.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikası Prezidentinin rəsmi internet səhifəsi: www.president.az
2. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin rəsmi internet səhifəsi: sehiyye.gov.az
3. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi internet səhifəsi: www.stat.gov.az
4. "Azərbaycanda səhiyyə, sosial müdafiə və mənzil şəraiti 2018" adlı statistik məcmuə.
5. Sədi Hacıyev. Statistikanın ümumi nəzəriyyəsi. Bakı-2005.

“Statistika xəbərləri, № 1/2019”
İl 5, Cild 1, Yanvar-mart, səh. 66-72

*METODOLOGİYA*

# MÜHAFİZƏ EDİLƏN İNFORMASİYALARLA İŞLƏYƏN İSTİFADƏÇİLƏRƏ MƏXSUS İNFORMASİYANIN İNTERNET MÜHİTİNDƏ TƏHLÜKƏSİZLİYİNİ TƏMİN EDƏN SİSTEMİN KONSEPTUAL MODELİ

***Səyavuş Əhmədov***
*Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi*
*İnformasiya texnologiyaları şöbəsinin müdirinin müavini*
*AZ 1136, Bakı şəhəri, İnşaatçılar prospekti 81*
*e-poçt: siyavush@azstat.org*

**Açar sözlər:** təhlükəsizlik, sanitarizasiya metodu, konseptual model, veb-separator, veb-total, haker, Kali Linux, Nikto, Nmap, websploit, test metodologiyaları.
**Ключевые слова:** безопасность, метод санации, концептуальная модель, веб-разделитель, общий веб-сайт, хакер, Kali Linux, Nikto, Nmap, websploit, методологии тестирования.
**Keywords:** security, sanitation method, conceptual model, web separator, web total, hacker, Kali Linux, Nikto, Nmap, websploit, test methodologies.

## Giriş

Müasir dövrdə informasiya texnologiyaları insanların bütün fəaliyyət sahələrini əhatə edir və həyat səviyyəsinin dəyişməsinə öz təsirini göstərir. İnternetin sürətli inkişaf tendensiyası isə bu prosesə daha da təkan verir. Genişzolaqlı İnternetin tətbiqi istifadəçilərin hər hansı məkan və qurğudan asılı olmayaraq istənilən kontentə çıxışını təmin edir. Qlobal informasiya cəmiyyətində informasiya və biliklər ən mühüm resurs və əsas əmtəə hesab olunur. “İnformasiya təhlükəsizliyi” anlayışına “informasiyanın konfidensiallığının, tamlığının və əlyetənliyinin təmin olunduğu vəziyyət” kimi tərif verilir. “İnformasiya təhlükəsizliyi” anlayışı həmişə müəyyən şəraitdə olan konkret subyekt ilə bağlı olur.

İnternet istifadəçilərə məhdudiyyətsiz, müxtəlif məzmunlu informasiya əldə etmək üçün unikal imkanlar təklif edir və onların informasiya cəmiyyətinin fəal üzvü kimi formalaşmasında mühüm rol oynayır. İnternetdə müxtəlif məzmunlu məlumatların olması istifadəçilərin virtual məkanda təhlükələrlə qarşılaşmasını reallaşdırır. Hazırda istifadəçilərin İnternetdən təhlükəsiz istifadəsi problemlərinin həllinə yönəlmiş çoxlu sayda proqram təminatları və təhlükəsizlik sistemləri mövcuddur.

Şəbəkə təhlükəsizliyi şəbəkələrin hücumlardan və icazəsiz girişlərdən mühafizəsinə yönəlmiş kompleks tədbirdir. Təhlükəsizliyin təmin edilməsi məsələləri həm xüsusi proqram təminatının, həm də müvafiq aparat vasitələrinin tətbiqi ilə həll edilir. Şəbəkələrin təhlükəsizliyinə baxarkən iki qrup problemləri qeyd etmək olar: kompüterlərin təhlükəsizliyi və kommunikasiyanın təhlükəsizliyi. Kompüterlərin təhlükəsizliyinə kompüterlərdə saxlanılan və emal olunan verilənlərin mühafizəsinin bütün məsələləri aid edilir və bu zaman kompüterlərə muxtar sistem kimi baxılır. Bu məsələlər əməliyyat sistemlərinin və tətbiqlərin (məsələn, verilənlər bazasının), həmçinin kompüterlərin aparat vasitəsilə həll olunur. Kommunikasiyanın təhlükəsizliyi dedikdə şəbəkədə qurğuların qarşılıqlı əlaqəsi ilə bağlı məsələlər, hər şeydən əvvəl əlaqə kanalları vasitəsi ilə ötürülən verilənlərin mühafizəsi və şəbəkəyə uzaqdan icazəsiz girişdən mühafizə məsələləri başa düşülür. İnternetdən gələn təhlükələrin qarşısını almaq üçün bəzi yanaşmalarda şəbəkə təhlükəsizliyi monitorinqi sisteminin işlənməsi təklif edilir. Şəbəkə təhlükəsizliyi monitorinqi sistemindən istifadə etməklə İnternet istifadəçilərinin təhlükəsizliyi, konfidensiallığı və mühafizəsini həyata keçirmək mümkündür [1]. Lakin bu tip sistemlərin tətbiq olunmasına baxmayaraq, şəbəkədə istifadəçilərin təhlükəsizliyinin təmin edilməsi üçün daha optimal üsulların, etibarlı proqram vasitələrinin və mexanizmlərinin yaradılmasına ehtiyac duyulur.

Şirkətlərdə və müəssisələrdə bütün kompüterlər şəbəkə üzərindən bir-biri ilə bağlıdır və

bu şəbəkə vasitəsi ilə İnternetə çıxışı əldə edə bilirlər. İnternetə çıxışın əldə edilməsi, kompüter şəbəkələrində böyük təhlükəsizlik problemləri yaradır. Hakerlər İnternet üzərindən kompüterlərə girə bilir və bununla kompüter şəbəkələrində olan digər kompüterlərə giriş əldə edə bilirlər. Son illərdə hakerlər tərəfindən edilən məşhur hücumlardan bir neçəsini nümunə gətirə bilərik.

Google Play Google şirkətinin yaratdığı android əməliyyat sistemlərində olan aplikasiya yükləmə bazasıdır. Google Play bazasında 2014-cü ildə türk hakeri tərəfindən sistemdə nasazlıq yaradılaraq sistemin əlyetənliyinə xələl yetirildi, haker hazırladığı aplikasiyanı android verilən bazasına yükləyərək aplikasiya vasitəsi ilə boşluqları test etdi və bu hadisə Google Play-in xidmətdən imtinası ilə nəticələndi. 2015-ci ildə haker qrupu Sony şirkətinə hücum edərək böyük maddi zərər vurdu. Sony şirkətinin məlumatına əsasən hakerlər korporativ şəbəkəyə girərək gizli biznes sənədlərini oğurlayıb, şəbəkədə olan bütün kompüterləri nasaz vəziyyətə gətirərək şirkətə 15 milyon dollar maddi ziyan vurublar. Breachlevelindex.com saytına əsasən 2017-ci ildə dünyada 1.901.866.611 çox məlumat itirilir və ya oğurlanır. Bu hər gün üçün 10.507.550 məlumat, hər saat üçün 437.815 məlumat, hər dəqiqə üçün 7297 məlumat, hər saniyə üçün 122 sayda məlumatın itməsi və ya oğurlanması deməkdir. Bu məlumatların 56.59%-i pərakəndə, 9.63%-i texnologiya, 5.13%-i təhsil, 4.23%-i hökumət və 20.55%-i maliyyə sahəsini əhatə edir [2].

**Ziyanlı kontentin qarşısının alınması üçün konseptual modelin ümumi sxemi**

İnternetdən əldə olunan veb-səhifələrin trafikinin sanitarizasiyası əsasında model yaradılmasını nəzərdən keçirək. İstifadəçilərin informasiya təhlükəsizliyinin təmini üçün verilənlərin sanitarizasiyası metodundan istifadə etməklə daha əhəmiyyətli və faydalı, məlumatın konfidensiallığına uyğun İnternet resurslarının təqdim olunması nəzərdə tutulur. Verilənlərin sanitarizasiyası İnternet qlobal şəbəkəsindən daxil olan təhlükələrdən qorunma metodlarından biridir. Bu metodun mahiyyəti həssas, sensativ, fərdi, məxfi, tövsiyə olunmayan və s. məlumatların geniş ictimaiyyətə çatdırılmasının qarşısını almaqdan və ya müəyyən məhdudiyyətlərin tətbiq olunmasından ibarətdir [3]. Məxfiliyin qorunmasını da nəzərdə tutan bu metod, əsasən, məxfi olmayan və müəllif hüquqları ilə qorunmayan məlumatların konfidensiallıq səviyyəsini azaldır və əlyetərli edir [4].

Təqdim edəcəyimiz modelə əsasən *mühafizə edilən informasiyalarla işləyən istifadəçilərin* təhlükəsizliyi, marağı, bilik səviyyəsi və s. əlamətləri nəzərə alınmaqla süzgəcdən keçirilmiş veb-səhifələr təqdim olunur. İlk növbədə istifadəçilərin təhlükəsizliyi üçün internetdə axtarılan və ya müraciət olunan məlumatın təhlükəsizliyi və əhəmiyyətliliyi vacibdir. İnternetdə axtarış və ya müraciət zamanı bizə daxil olan məlumatları veb separator vasitəsi ilə çeşidləyə bilərik. Təklif olunmuş konseptual modelin bir sistem şəklində fəaliyyətini təmin etmək məqsədilə iyerarxik düzülmüş müəyyən komponentlərdən istifadə olunur: veb-separator, veb-total, istifadəçinin identifikasiyası.

Separatorlar bir növ kontentin bölücü, ayrıcı funksiyasını yerinə yetirir. Bu modeldə veb-separatorlardan veb-kontentin tipinə görə bölünməsi üçün istifadə olunur. Veb-kontentin tipinə görə sorğuların toplanması və semantikanın müəyyən edilməsi üçün veb-separatordan sistemin girişində istifadə olunması nəzərdə tutulur. Müasir veb-səhifələrdə reklam, audio, video, şəkil və s. multimedia fayllarının, onlayn xidmətlərinin geniş yayılması bu səhifələrin məzmununu daha da zənginləşdirir. Səhifələrin əsas aparıcı mövzusundan başqa əlavə mövzuların formalaşması üçün səhifənin dizaynında olan dəyişikliklər isə onun strukturunu mürəkkəbləşdirir. Müxtəlif əlavə elementlərin daxil edilməsi veb-səhifələrin quruluşunu zənginləşdirməklə yanaşı, onların təhlilini daha da çətinləşdirir. Veb-səhifələri təhlil etmək üçün bəzi yanaşmalarda səhifə üfüqi və şaquli xətlər vasitəsilə çərçivələrdən ibarət hissələrə bölünür [5]. Digər yanaşmalarda isə veb-səhifələrin kontent-təhlili mövzuya uyğun olaraq klasterləşdirmə metodlarına əsaslanır [6].

Lazım olan veb-səhifələrin aşkarlanması üçün bu səhifələrdəki kontentin separator vasitəsilə resursların tipinə görə kateqoriyalara bölünməsi nəzərdə tutulur:

1) Mətn tipli informasiya;
2) Şəkil faylları;
3) Audio və video fayllar;

Separatorun süzgəcindən təmizlənmiş trafik toplanır və məlumatların yenidən mövzuya uyğun olanlarının klasterləşməsinə ehtiyac yaranır. Beləliklə də, proses növbəti mərhələyə keçir.




Şəkil 1. Trafikin sanitarizasiyasının konseptual modeli

Təmizlənmiş trafik veb-totalın girişinə daxil olur. İnternetdən daxil olan trafikin üzərində təmizləmə, aqreqatlaşdırma və strukturlaşdırma işləri yerinə yetirilir. Veb-səhifələrin təmizlənməsi texnoloji səviyyədə aparılır. Şəkil 2-də veb-səhifələrin məzmununa daxil olan məlumatların xüsusiyyətlərinə görə bölünməsi təsvir olunmuşdur. Həmin məlumatlar 3 yerə 1) ziyanlı informasiya 2) əhəmiyyətli informasiya 3) az əhəmiyyətli informasiyalara bölünür.




Şəkil 2. Veb-səhifələrin kontentə uyğun bölünməsi

Açılan əlavə pəncərələrə blokun qoyulması əlavə JavaScript və Flash proqram təminatları vasitəsilə həyata keçirilir. Təqdim olunan kontent tələbləri ödəmirsə, yəni səhifələrdə qadağan olunmuş teq, söz, jarqon ifadələr, şəkil və ya videoçarxlar mövcuddursa, həmin səhifələrin bağlanması və həmçinin uyğun olmayan reklamların bloklanması da nəzərə alınır [7].

Müasir dünyada biometrik texnologiyalar müxtəlif xidmət növlərinin təqdimatında şəffaflığı, dəqiqliyi, həm də təhlükəsizliyi təmin edir. Biometrik texnologiyalardan istifadə etməklə, eyni zamanda müxtəlif obyektlərə təhlükəsiz girişi əldə etmək olar. Biometrik eyniləşdirmə sistemin unikal biometrik parametrinin istifadəçisinin təqdim etdiyi məlumatdır və mövcud məlumatların bütün məlumat bazası ilə müqayisə edilməsi prosesidir [8].

Texnologiyanın inkişafı ilə əlaqədar yeni texnoloji sahələr yaranmaqdadır və bu inkişaf yeni hücum vektorlarının yaranmasına da səbəb olmuşdur, hazırda hakerlər tərəfindən *Cloud Texnologiyası təhdidləri üzrə, Qabaqcıl inadkar təhdidlər üzrə, Virus və Soxulcanlar ilə Mobil təhdidlər üzrə, Daxili hücum ilə və Botnet* üzrə hücum vektorları geniş şəkildə istifadə olunur [9, 10].

**Kali linux əməliyyat sistemi**

Kali Linux Debian əsaslı təhlükəsizliyin yoxlanılması üçün nəzərdə tutulmuş əməliyyat sistemidir. Kali Linux BackTrack tərtibatçıları olan Offensive Security tərəfindən 2013-cü ildə yaradılmışdır və hal-hazırda da dəstəklənməkdədir. BackTrack-dəki bütün alətlər və sonradan əlavə olunanlarla birlikdə Kali Linux-da işləmək üçün 600-dən çox alət var.

Offensive Security komandası 2007-ci ildə yaradılıb. Komanda üzvləri hücum sistemləri sahəsində geniş təcrübəsi olan təhlükəsizlik mütəxəssislərindən ibarətdir. Onlar hücum sistemləri ilə bağlı informasiyaları, təlimləri, pulsuz alətləri bölüşürlər.

Kali Linux əməliyyat sistemində verilənlər bazasının qiymətləndirilməsi, informasiyanın toplanması, exploit alətləri, skanerlər, şifrələrə hücum, stress test, snifinq, simsiz şəbəkələrə hücumlar, texnikanın hakinqi, backtrack xidmətləri və “reverse engineering” kateqoriyaları üzrə yoxlamalar aparmaq mümkündür [11].

Kompüter şəbəkələrinin təhlükəsizliyini qiymətləndirmək üçün müxtəlif üsullar mövcuddur. Bunlar kompüter şəbəkələrinin təhlükəsizliyinin auditi, boşluqlarının qiymətləndirilməsi və nüfuzetmə testləridir. Onlar arasındakı fərqləri aşağıdakı kimi göstərmək olar:

*Təhlükəsizliyin auditi* - təşkilatda qəbul edilmiş standart, təhlükəsizlik siyasəti və prosedurlarının yerinə yetirilməsinin uyğunluğunu yoxlayır [12].

*Boşluqların qiymətləndirilməsi* - əsas hədəfi informasiya sistemlərində boşluqların tapılmasına istiqamətlənmişdir, lakin boşluqlardan istifadə zamanı dəyə biləcək hər hansı zərərin indeksi göstərilmir.

*Nüfuzetmə testləri* - kompüter şəbəkələrinin təhlükəsizliyinin qiymətləndirilməsinə

metodoloji yanaşmadır, təhlükəsizliyin auditini və boşluqların qiymətləndirilməsini əhatə etməklə hakerin müvəffəqiyyətlə boşluqlardan istifadə edərək sistemə vura biləcəyi zərəri nümayiş etdirir.

Kali linux əməliyyat sistemindən və NMAP, NİKTO və WebSploit alətlərindən istifadə edərək veb saytlara nüfuzetmə testini nəzərdən keçirək. İlk olaraq domenin hansı İP ünvana bağlı olduğunu aydınlaşdıraq. Bunun üçün domenə ping əmri verməyimiz kifayət edir. Müəyyənləşdirdiyimiz İP ünvana Brauzer üzərindən giriş edərək veb səhifəni açıb veb platformanı müəyyən edə bilərik. Məsələn, müəyyən bir veb səhifədə açıq mənbə kodlu "LAMP stack" veb platforması istifadə edilir. Bu Linux, Apache, MySQL, and PHP/Python/Perl dəstəkləyir. Göstərilmiş platforma SSL sertifikatı dəstəkləyir. SSL kompüter şəbəkələri üzərindən informasiya ötürülməsi zamanı təhlükəsizlik və gizliliyi təmin edən Netscape tərəfindən yaradılan protokoldur. Bu platforma istifadə edilən veb saytların İP ünvanlarında, 12322 port vasitəsi ilə mysql verilən bazasının admin idarəetmə panelinə, 12321 portu vasitəsi ilə sistem idarəetmə paneli, 12320 portu ilə isə veb əsaslı əmrlər sətri olan terminala girmək mümkündür. Əgər bu portlar açıq olsa, müxtəlif növ şifrəyə hücum metodlarından istifadə edib bu panellərə girmək mümkün olardı.

***NMAP ilə web platformada olan portların yoxlanılması***

NMAP, kompüter şəbəkələri mütəxəssisi Gordon Lyon (Fyodor) tərəfindən yaradılan təhlükəsizlik skaneridir. Yoxladığı şəbəkənin xəritəsini yarada bilir və həmçinin şəbəkəyə bağlı sistemlərin vəziyyətini, əməliyyat sistemlərini, portlarının vəziyyətini göstərir.

Nmap-dan istifadə edərək kompüter şəbəkəsinə bağlı hər hansı kompüterin əməliyyat sistemini, işləmə vaxtını, proqramların hansı xidmətlərdən istifadə etdiyini, proqramların versiyalarını, kompüter sistemində şəbəkələrarası ekranın olub-olmadığını, şəbəkə interfeysinin hansı şirkətə aid olduğunu öyrənmək mümkündür.

***Websploit ilə mövcud giriş panellərinin yoxlanışı***

Websploit açıq mənbə kodlu məsafədən idarə edilən sistemlərdə boşluqları axtararaq təhlil edən alətdir. Websploit çağırmaq üçün terminalda "websploit" komandası yığılmalıdır. Websploit alətindən istifadə edərək veb saytda daxili inzibatçı panellərini axtarmaq mümkündür. Bunun üçün Websploit-in "web/pma" modulundan və modulu çağırmaq üçün "wsf> use web/pma" komandasından istifadə edilir.

***NİKTO ilə veb saytında boşluqların axtarışı***

NİKTO təhlükəsizlik üzrə veb server skaneridir və 6700 potensial boşluq üzrə axtarış apara bilir. Həmçinin server konfiqurasiyalarını, plaqinləri və onların yeniləmə versiyalarını və vaxtlarını göstərə bilir.

**Modelin icrası üçün zəruri praktiki işlər**

Yuxarıda qeyd etdiklərimizi nəzərə almaqla təhlükəsizlik siyasəti ilə əlaqədar Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin həyata keçirdiyi funksiyalardan asılı olaraq müəyyən təhlükəsizlik sistemləri tətbiq olunmaqdadır. Təhlükəsizlik siyasətinin həyata keçirilməsində əlçatanlıq, təhdid, filtrasiya və s. siyasətlərdən bəziləri müəyyən mərhələlərdə yerinə yetirilməlidir. Dövlət Statistika Komitəsində təhlükəsizlik siyasətinin tətbiqində əlçatanlığın tam tətbiqi yol verilməzdir, çünki Komitənin əsas funksiyalarından biri vətəndaşlara, hüquqi və fiziki şəxslərə xidmətlər göstərmək, onların müraciətlərinə sorğularına baxmaq, lazımi informasiya ilə onları təmin etmək və cavablandırmaqdır. Digər tərəfdən daxil olan kontentlərə tam məhdudiyyət qoyulması Komitənin ictimaiyyətdən və anında lazım ola biləcək məlumatların əldə olunmasından təcrid edilməsinə, ictimai sosial məlumatlardan və hadisələrdən kənarda qalmasına gətirib çıxara bilər. Bunları nəzərə alaraq, təklif etdiyimiz konseptual modelin Statistika Komitəsində tətbiqi məqsədəuyğundur. Bu modelin tətbiqi ilə veb səhifələrin trafikinin sanitarizasiyası əsasında istifadəçilər üçün əhəmiyyətli informasiyanın daxil olmasını digər əhəmiyyətsiz informasiyaların daxil olmasına qadağa qoymaq mümkündür. Beləliklə, daxil olan kontentin idarə olunması və təhlükələrdən maksimum müdafiə olunması həyata keçirilir. Bildiyimiz kimi, hazırkı dövrdə, həmçinin təhdidlərdə informasiyanın tamlığına, məxfiliyinə, dəqiqliyinə yönəlmiş bir təhlükədir. Bunun qarşısının alınması üçün də Kali Linux əməliyyat sistemindən istifadə etməklə nüfuzetmə testləri vasitəsi ilə boşluqları müəyyən etmək və bunun əsasında təhdidlərdən təhlükəsizliyi həyata keçirmək mümkündür. Bunun üçün Kali Linux əməliyyat sistemində işləyə biləcək yüksək bilikli və bacarıqlı kadr lazımdır. Nəzərə

alsaq ki, Kali Linux əməliyyat sistemi yeni proqram təminatıdır və bu sahədə kadr çatışmazlığı var, onda belə kadrların təşkilatın özü tərəfindən hazırlanması daha məqsədəuyğundur. Eyni zamanda Kali Linux əməliyyat sistemin dəstəkləyən kompüter və digər zəruri avadanlıqlar alınmalıdır. Digər tərəfdən mühafizə edilən informasiyalarla işləyən istifadəçilərə məxsus informasiyanın internet mühitində təhlükəsizliyini təmin edən sistemin modelini lokal ərazidə test edib mövcud çartışmazlıqları müəyyən etmək və onları aradan qaldırmaq daha məqsədəuyğun hesab edilir. Belə ki, modelin az sayda kompüterin qoşulduğu lokal şəbəkədə tətbiqi qarşıya çıxa biləcək problemlərin daha tez aşkar olunması və həlli üçün vacibdir. Təklif etdiyimiz modelin və metodun tətbiqi üçün müəyyən sayda işçi heyət (proqramçılar, sistem adminstratoru, texniki heyət və s.) və bu sistemi dəstəkləyən avadanlıqlar tələb olunur. Bu konsepsiyanın həyata keçirilməsi üçün əvvəlcə lokal bir şəbəkə qurulmalıdır və konsepsiyanın proqram təminatı, lazımi aparat vasitələri hazırlanmalıdır. Eyni zamanda mütəxəssislərin bu sahədə bilik və bacarıqlarından asılı olaraq müəyyən vaxt ərzində sistemin çatışmazlıqları aşkar edilərək aradan qaldırılmalıdır. Əgər sistem tam hazırdırsa, onda onu müəssisənin təhlükəsizlik siyasətinin hissəsi kimi tətbiq etmək olar.

Beləliklə, hər iki təhlükəsizlik sisteminin birlikdə Dövlət Statistika Komitəsində tətbiqi və digər texniki təhlükəsizlik tədbirlərinin həyata keçirilməsi ilə informasiya təhlükəsizliyini tam təmin etmək mümkündür.

## Nəticə

Araşdırmalardan məlum olur ki, müasir dövrdə İnternet yalnız maraqlı və əhəmiyyətli məlumatlarla deyil, həm də ziyanlı və təhlükəli veb-səhifələrlə də dolu olan qlobal bir məlumat bazasıdır. Bu informasiya xaosunun içərisindən zərərsiz olan veb-səhifələrin axtarışı, aşkarlanması və əldə olunması üçün xüsusi metod və vasitələrdən istifadə olunmalıdır. Mühafizə olunan məlumatlarla işləyən istifadəçilərin İnternetdə təhlükəsizliyinin təmin olunması ilə əlaqəli yaranmış problemlərin həllində və digər təhlükəsizlik məsələlərində də bu konseptual modeldən istifadə etmək olar.

Kompüter sistemlərinin tətbiqi və istifadə sahələri artdıqca onlara olan təhlükələrin və hücumların sayı artır. Belə məsələlərə hazırlıqlı olmaq üçün kompüter sistemlərinin təhlükəsizliyinin qiymətləndirilməsi və boşluqların aşkarlanması əsas məsələlərdən birinə çevrilir.

Texnologiyanın inkişafı, yeni İT sahələrinin yaradılması yeni növ hakerlərin inkişafına gətirib çıxarır. Hakerlərin aqressiv hücumlarının və informasiya oğurluğunun qarşısını almaq üçün daim inkişaf edən texnologiya ilə birlikdə yeni təhlükəsizlik sistemləri, bu sistemləri müdafiə və konfiqurasiya edən savadlı mütəxəssislərə, həmçinin boşluqların axtarılması üçün yeni metodların yaradılmasına ehtiyac yaranır.

Müasir hücum alətlərindən istifadə edərək nüfuzetmə testləri vasitəsi ilə mövcud kompüter şəbəkələrinin cari təhlükəsizlik vəziyyətini öyrənmək mümkündür.

**Səyavuş Əhmədov**

**Mühafizə edilən informasiyalarla işləyən istifadəçilərin İnternetdə təhlükəsizliyini təmin edən sistemin konseptual modeli**

**Xülasə**

Məqalədə intellektual təhlil metodlarından və Kali Linux test alətlərindən istifadə etməklə mühafizə edilən informasiyalarla işləyən istifadəçilərə məxsus informasiyanın internet mühitində təhlükəsizliyinin təmin edilməsini nəzərdə tutan sistemin yaradılması araşdırılmışdır. Eyni zamanda təhdidlərə qarşı təhlükəsizliyin təmin olunması üçün Kali Linux əməliyyat sistemi, kali test alətləri olan Websploit, Nmap, Websploit və onların istifadəsi, nüfuzetmə test metodologiyası, kompüter şəbəkəsi üzərində nüfuzetmə testi haqqında informasiya verilmişdir. Məqalədə verilənlərin sanitarizasiyası metodundan istifadə etməklə ziyanlı informasiyanın qarşısının alınması üçün konseptual model və şəbəkənin təhlükəsizliyində kiber hücum alətləri ilə boşluqların müəyyən edilməsi təklif olunmuşdur.

**Сиявуш Ахмедов**

**Концептуальная модель системы, обеспечивающей безопасность пользователей в Интернете, работающих с защищенной информацией**

**Резюме**

В статье рассматриваются вопросы создания системы, учитывающей обеспечение информационной безопасности в среде Интернета для пользователей, работающих с защищенной информацией с использованием методов интеллектуального анализа и средств тестирования Kali Linux. В то же время, представлена информация об операционной системе Kali Linux, о таких средствах тестирования, как Websploit, Nmap, Websploit и их использовании, о методологии тестирования на проникновение, о тестировании на проникновение в компьютерных сетях. Используя метод санации данных, в статье рассматриваются инструменты кибератак для определения пробелов в концептуальной модели и сетевой безопасности с целью предотвращения поступления вредоносной информации.

**Sayavush Ahmadov**

**The conceptual model of the system that ensures safety of Internet users working with protected information**

**Summary**

The article investigated the creation of a system that provides information security in the Internet environment for users working with protected information using the methods of intellectual analysis and testing tools Kali Linux. At the same time, information about Kali Linux operating system, Websploit, Nmap, Websploit and their use, penetration testing methodology, penetration testing on computer networks as presented to provide security against threats. Using the data sanitization method, the article proposes cyber attack tools to define gaps in the conceptual model and network security to prevent malicious information.

**Ədəbiyyat**

1.R.M.Əliquliyev, Y.N.İmamverdiyev, B.R.Nəbiyev. Şəbəkə təhlükəsizliyinin monitorinqi metodlarının analizi // İnformasiya texnologiyaları problemləri. 2014, №1, səh. 60-68.

2. Breach Level Index, “2017 First Half Report”. http://breachlevelindex.com/assets/Breach-Level-Index-Report-H1- 2017-Gemalto.pdf

3. https://en.wikipedia.org/wiki/Sanitization_(classified_information).

4.S.S.Allahverdiyeva.“Uşaqların İnternetdə təhlükəsizliyinin təmin edilməsi problemləri”. İnformasiya Texnologiyaları. Bakı-2016, 91 səh.

5. L.W.Zheng. Visual separator detection in web pages using code analysis, https://www.google.com/patents/US20130124684

6. R.M.Alguliev, R.M.Aliguliyev, I.Ya.Alekperova. Cluster approach to the efficient use of multimedia resources in information warfare in Wikimedia // Automatic Control and Computer Sciences, 2014, vol. 48, no. 2, pp. 97-108.

7. М.С.Перевозчикова, А.Н.Сапегин. Способы контроля доступа компьютерным ресурсам // Концепт, 2014, №> 10, с.56-60.

8. https://ru.wikipedia.org/wiki/biometriya

9. Y.N.İmamverdiyev, G.B.Qarayeva. “Botnetlər və onların aşkarlanması üsulları”. İnformasiya Texnologiyaları Problemləri, 2017, №1, səh.100- 111.

10. K. Bicakci, D. Unal, “Mobile Authentication Secure Against Man-In- The-Middle Attacks,” Procedia Computer Science, vol. 34, 2014, pp. 323-329.)

11. Kali Linux, official website, https://www.kali.org/about-us/

12. H.S.B. Herath, T.C. Herath. “IT security auditing: A performance evaluation decision model,” Decision Support Systems, vol. 57, 2014, pp. 54-63.

# STATİSTİK FƏALİYYƏTİN KEYFİYYƏTİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ MƏSƏLƏLƏRİ

***Aynur Sultanova***
*Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi*
*Keyfiyyətin idarə edilməsi və metaməlumatlar şöbəsinin məsləhətçisi*
*AZ 1136, Bakı şəhəri, İnşaatçılar prospekti 81*
*e-poçt: aynurs@azstat.org*

**Açar sözlər:** keyfiyyət, keyfiyyət menecmenti sistemi, prinsip, standart, təkmilləşmə.

**Ключевые слова:** качество, система менеджмента качества, принцип, стандарт, усовершенствование.

**Keywords:** quality, Quality Management System, principle, standard, improvement.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin (Komitə) keyfiyyət sahəsində fəaliyyəti "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanunu və digər normativ-hüquqi aktları, Birləşmiş Millətlər Təşkilatının (BMT) "Rəsmi statistikanın əsas prinsipləri", "Keyfiyyətin təmin olunmasının milli baza prinsipləri", həmçinin "Avropa Statistikasının normalar məcəlləsi" və ISO 9000 standartlar ailəsi üzərində qurulmuş keyfiyyət menecmenti sisteminə əsaslanır [1-5].

ISO keyfiyyət menecmenti standartlarının İstehlakçıya yönəlmə, Liderlik, İşçilərin cəlb edilməsi, Prosesli yanaşma, Təkmilləşmə, Sübuta əsasən qərarın qəbul edilməsi və *Əlaqələrin idarə edilməsi* kimi 7 prinsipinə uyğun Komitənin davranışına nəzər salaq [6].

2008-2012-ci illəri, 2013-2017-ci illəri və 2018-2025-ci illəri əhatə edən Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafına dair dövlət proqramlarında keyfiyyət təminatına xüsusi yer verilməklə onların icrası nəzərdə tutulmuşdur.

Komitə maraqlı tərəflərlə münasibətlərini qiymətləndirir. Metodologiyalarda baş verən yenilik və s. açıqlanması üçün istifadəçilərlə davamlı görüşlər təşkil edir. 2000-ci, 2009-cu, 2010-cu illərdə və 2013-cü ildən başlayaraq hər il onlayn istifadəçi məmnunluğu sorğuları keçirmiş, 2011-ci, 2013-cü və 2017-ci illərdə işçilərin rəyi öyrənilmiş, bundan başqa, 2014-cü ildə respondentlərin məmnuniyyəti araşdırılmışdır.

Beynəlxalq səviyyədə qəbul edilmiş Statistik Biznes Prosesin Ümumi Modelinin (Generic Statistical Business Prosess Model, GSBPM, 5.0) milli versiyasını tətbiq edərək statistik istehsalı *Tələbatların müəyyənləşdirilməsi, Layihələndirmə, İstehsal sisteminin yaradılması, Toplanma, İşlənmə, Təhlil, Yayılma, Qiymətləndirmə* mərhələlərinə bölərək izah, müqayisə və nəzarət etməyə imkan yaradılmışdır [7].

2013-cü ildən başlayaraq Aparatın struktur bölmələrində daxili auditlər aparılır. ISO 9001 və ISO 19011 standartları üzrə Moody Intertek, SGS LTD və s. təşkilatlarının keçirdiyi təlimlərdə Komitənin 16 mütəxəssisi iştirak edərək sertifikatlaşdırılmışdır.

Komitə 2010-cu ildən tətbiq etdiyi keyfiyyəti idarəetmə sisteminə 2013-cü ildə rəsmi statistika məlumatlarının istehsalı və yayılması fəaliyyəti üçün ISO 9001:2008 standartının tələblərinə uyğunluq sertifikatını əldə edib, 2017-ci ildə isə Aparat ilə yanaşı, Komitənin 13 yerli statistika idarəsinin (*Bakı, Gəncə, Mingəçevir* və *Sumqayıt* şəhərləri, həmçinin Ağdam, Ağstafa, Balakən, Bərdə, Qax, Lənkəran, Saatlı, Samux və *Zaqatala* rayonları üzrə) keyfiyyəti idarəetmə sistemi ISO 9001:2015 standartına müvafiq olduğu SGS LTD beynəlxalq sertifikatlaşma təşkilatı tərəfindən təsdiqlənib. Hazırda sistem 30 yerli statistika idarəsində tətbiq edilir. Komitə MDB üzv ölkələrinin statistika qurumları və Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanları sırasında ISO 9001:2015 standartının tələblərinə uyğunluq sertifikatına layiq görülmüş ilk təşkilatdır.

Komitə heyətinin sahə üzrə təcrübəsi və əldə edilmiş nailiyyətlər haqqında məqalələri də dərc olunur. Nümunə kimi A.Vəliyevin "Создание системы управления качеством: от теории к практике", T.Budaqovun "Azərbaycanda rəsmi statistikanın əsas inkişaf istiqamətləri", Y.Yusifovun "Keyfiyyətin təmin olunmasının və rəsmi statistikanın əsas prinsiplərinin milli statistikada nəzərə

alınması məsələləri", A.Sultanovanın "Mərkəzi icra hakimiyyəti orqanlarında beynəlxalq səviyyəyə uyğun keyfiyyətin idarə edilməsi sisteminin qurulmasının faydaları", "О роли Общей системы метаданных в развитии статистики Азербайджана", "GSBPM как инструмент качественной модернизации производственной системы официальной статистики Азербайджана" və s. sadalamaq olar [8-13].

*Komitənin son illərdə verdiyi qərarlardan görünür ki, o keyfiyyət sahəsində bəyan etdiyi siyasətinə sadiq olmağa çalışır. Buna baxmayaraq, etiraf da edilməlidir ki, zaman keçdikcə siyasətin özünün, yəni sənədin yaxşılaşdırılmasına ehtiyac duyulur. Bu baxımdan, məqalədə Avropa Statistika Sisteminin (ASS) Keyfiyyət Bəyannaməsinin yeni redaksiyasının [14] Komitənin keyfiyyət sahəsində siyasətinin təkmilləşdirilməsinə verə biləcəyi töhfə və sənədin inkişafının digər məsələləri təqdim ediləcək.*

**1. Avropa Statistika Sisteminin Keyfiyyət Bəyannaməsinə baxış**

"Avropa Statistikasının normalar məcəlləsi"nin əsaslandığı ASS-nin Keyfiyyət Bəyannaməsi Statistik Proqram Komitəsi tərəfindən 2001-ci ildə qəbul edilmişdir. Atılmış bu addım ASS-də Ümumi keyfiyyət menecmenti (Total Quality Management, TQM) uğrunda ilk addım idi.[1] 2016-cı ildə yenidən baxılmış Keyfiyyət Bəyannaməsi "Avropa Statistikasının normalar məcəlləsi"nin 2017-ci ilin redaksiyasında da öz əksini tapmışdır.

Keyfiyyət Bəyannaməsinin birinci redaksiyasında ASS-nin missiyası, gələcəyə baxışı və onlara nail olunması üçün İstifadəçiyə yönəlmə, Davamlı yaxşılaşma, Məhsul keyfiyyəti üçün öhdəçilik, İnformasiyanın əlçatanlığı, ASS-də və ondan kənarda əməkdaşlıq, Məlumat təchizatçılarının ehtiyaclarına hörmət, Rəhbərliyin öhdəçiliyi, Sistemli keyfiyyət menecmenti, Effektiv və səmərəli proseslər, İşçi heyətinin məmnunluğu və inkişafı prinsiplərinə sadiqlik qeyd edilirdi.[2]

Sənədin ikinci redaksiyası isə bir qədər fərqli – lakonik və daha keyfiyyətli[3] hazırlanıb, yuxarıda sadalanmış prinsiplərə[4] deyil, "Avropa Statistikasının normalar məcəlləsi"ndə[5] nəzərdə tutulmuş prinsiplərə sadiqlik vurğulanır. Sənədin birinci buraxılışının gələcəyə baxışında qeyd etdiyi kimi statistik informasiya xidməti sahəsində dünya lideri və Avropa İttifaqı (Aİ) və onun üzv dövlətləri üçün daha önəmli informasiya təchizatçısı olacağı iddiasını ASS artıq bildirmir. Birinci redaksiyadan fərqli olaraq ikincidə ASS təmsil olunduğu və missiyasını birgə həyata keçirəcək qurumları aydın açıqlayır.

Sənəddə ümumilikdə aşağıdakılar bəyan edilir:

– ASS-nin Avrostat və Aİ üzv dövlətlərin milli statistika orqanlarının, həmçinin Avropa Azad Ticarət Assosiasiyası ölkələrinin əməkdaşlıq etdiyi bir ortaqlıq olduğu, yəni ASS-nin kimliyi və ənənəvi olaraq missiyası - Avropa, milli və regional səviyyələrdə müstəqil yüksək keyfiyyətli statistik məlumatların təqdim edilməsi və bu məlumatların qərarların qəbulu, araşdırma və müzakirə üçün əlçatanlığının təmin edilməsi;

– Statistik proqramların ASS-nin üzvləri tərəfindən müzakirə edilərək və razılaşdırılaraq qanunvericilik prosedurlarına uyğun demokratik qaydada qəbul edilməsi;

– Fəaliyyətin "Avropa Statistikasının normalar məcəlləsi" kimi keyfiyyət sistemini də nəzərə alan möhkəm hüquqi baza çərçivəsində idarə olunması, həmçinin "Avropa Statistikasının normalar məcəlləsi" ilə uyğunluğuna baxış keçirməklə və yaxşılaşma tədbirlərini görməklə zamanla

---

[1] Avropa Komissiyasının Avrostatın Haqqımızda veb-səhifəsinin Keyfiyyət bölməsinin Əlaqəli keyfiyyət təşəbbüsləri altbölməsi. https://ec.europa.eu/eurostat/web/quality/related-quality-initiatives (19.07.2018)

[2] ASS-nin Keyfiyyət Bəyannaməsinin birinci redaksiyası. https://ec.europa.eu/eurostat/documents/64157/4373735/01-ESS-quality-declaration.pdf/af730008-cc68-4a00-834e-82b09e3a5f0e (19.07.2018)

[3] Yeni redaksiyada mahiyyəti eyni olan ifadələr, cümlələr təkrarlanmır.

[4] Əslində birinci buraxılışda baxılmış prinsiplər TQM fəlsəfəsinə (məs.:tam da olmasa, ISO keyfiyyət menecmenti standartlarının bir çox prinsiplərinə) uyğun idi.

[5] "Avropa Statistikasının normalar məcəlləsi" ilk dəfə 2005-ci ildə hazırlanmışdır. Bu səbəbdən 2001-ci ildə təsdiq edilmiş ASS-nin Keyfiyyət Bəyannaməsində "Avropa Statistikasının normalar məcəlləsi"nin prinsipləri qeyd edilmir.

qiymətləndirilməsi;

– Hazırda cəld hazırlanan, lakin keyfiyyət sübutu olmayan informasiyanın yayıldığı trendinin artması və dünyada rəqabət üstünlüyü kimi keyfiyyətin əsas olması. ASS-nin işi peşəkar müstəqillik, bütün istifadəçilərlə qərəzsiz münasibət, obyektivlik, etibarlılıq, statistik məxfilik və qənaətçilik ilə idarə edilməsi, statistikanın inkişafı, istehsalı və yayılması əsaslı metodologiyalar, qabaqcıl beynəlxalq standartlar və şəffaf şəkildə sənədləşdirilmiş müvafiq prosedurlara əsaslanması, keyfiyyət prinsiplərinin isə aktuallıq, dəqiqlik, vaxtlı-vaxtında və yayım qrafikinə uyğun, əlçatanlıq və aydınlıq, müqayisəlilik və uyğunluq olması;

– Respondent yükünün minimumlaşdırılması, məlumat təminatçıları və elmi ictimaiyyətin də daxil olduğu maraqlı tərəf qrupları ilə intensiv əməkdaşlığın edilməsi;

– Statistik mükəmməllik öhdəçiliyinin ümumi keyfiyyət çərçivəsinin davamlı inkişafı ilə, yəni güclü və zəif cəhətlərin, həmçinin risklərin nəzərə alınması ilə təmin edilməsi. Yeni göstəriciləri davamlı modernləşdirmək, yeniləmək və tərtib etməklə məhsul və xidmətlərin keyfiyyətini artırmaqla yanaşı, əmələ gələn hadisələri və istifadəçi ehtiyaclarını qarşılamaq cəhdin edilməsi.

*Yeni sənədin lakonikliyi və üslubu, sahədə keyfiyyətə sadiqliyini vurğulayan əsas məqamlar, dayanıqlığı Komitənin keyfiyyət sahəsində siyasətinin yenidən baxılmasında* nəzərə alına bilər.

**2. Komitənin keyfiyyət sahəsində siyasətinin inkişafı üzrə təkliflər**

Komitə ilk dəfə keyfiyyət sahəsində siyasətini 2010-cu ildə bəyan etmişdir. Komitənin keyfiyyət sahəsində siyasəti 2013-2016-cı illərdə, ümumilikdə 4 dəfə yenidən baxılmışdır.[6]

Komitədə tətbiq edilən PDCA[7] dövrəsinin fəlsəfəsi ilə sənəddə bəzi çatışmazlıqların mövcudluğu etiraf edilə bilər, məsələn, bənzər cümlələr, siyasətin məhz hansı prinsiplər üzərində reallaşdırılmasının dəqiq qeyd edilməməsi, keyfiyyət sahəsində ümumi siyasətin, strateji istiqamətin deyil, sanki daha çox məqsədlərin təqdimatını əks etdirir.

*Komitənin keyfiyyət sahəsində siyasətinin aktuallığını saxlamaq və dayanıqlığını təmin etmək üçün yerli qanunvericiliyi və Komitədə tətbiq edilən ISO 9000 standartlar ailəsinin tələblərini nəzərə alaraq, ASS-nin 2016-cı ildə yenidən baxılmış keyfiyyət bəyannaməsinə uyğunlaşdırmaq məqsədəuyğun hesab edilir.*

Əvvəldə təqdim edilmiş sənəddə (Azərbaycanın Rəsmi Statistika Sisteminin nümunəvi Keyfiyyət Siyasəti) Azərbaycanın rəsmi statistika sisteminin kimlərlə təmsil olunduğu, vəzifəsi, tətbiq etdiyi keyfiyyət sistemi, onun qiymətləndirilməsinin aparıldığı, “Azərbaycan Respublikası Dövlət Statistika orqanlarının Normalar Məcəlləsi”nə[8] [15] uyğun institusional quruluşun, statistik proseslərin və çıxış statistik məlumatların əsaslandığı prinsiplər, həmçinin ISO keyfiyyət menecmenti standartlarının prinsipləri üzrə təkmilləşmə tədbirlərinin görülməsi öhdəçiliyi qeyd edilir.

**Azərbaycanın Rəsmi Statistika Sisteminin nümunəvi Keyfiyyət Siyasəti**

⌖ Azərbaycanın Rəsmi Statistika Sistemi Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi və onun yerli statistika orqanları, tabe təşkilatı - Elmi-Tədqiqat və Statistik İnnovasiyalar Mərkəzi, Naxçıvan Muxtar Respublikasının Dövlət Statistika Komitəsi və onun yerli statistika orqanları, həmçinin Statistik İşlər Proqramının digər icraçıları ilə təmsil olunur.

⌖ Azərbaycanın Rəsmi Statistika Sisteminin vəzifəsi statistika sahəsində dövlət siyasətini və tənzimlənməsini həyata keçirərək keyfiyyətli statistik informasiya[9] ilə maraqlı tərəfləri[10] təmin

[6]Komitənin keyfiyyət sahəsində siyasəti rəsmi saytının “Haqqımızda” səhifəsinin Keyfiyyətin idarə olunması bölməsində yerləşdirilib. http://www.stat.gov.az/menu/2/quality/az/policy_az.pdf (19.07.2018)

[7]PDCA (Plan, Do, Check, Act), yəni “Planlaşdır, Yerinə yetir, Yoxla, Tədbir gör” dövrəsi fəaliyyətin daim təkmilləşdirilməsi niyyətini gerçəkləşdirməyə kömək edən keyfiyyət menecmenti sisteminin məntiqidir.

[8]Nümunəvi sənəddə adı çəkilən hazırkı “Azərbaycan Respublikası Dövlət Statistika orqanlarının Normalar Məcəlləsi”nin həm “Avropa Statistikasının normalar məcəlləsi”nin 2017-ci ilki redaksiyasına uyğun yenidən baxılması, həm də Azərbaycan Respublikasının rəsmi statistika sisteminin bütün üzvlərinə şamil edilməsi zərurəti yaranacaq.

[9]Keyfiyyətli statistik informasiya dedikdə aktual (istifadəçi ehtiyaclarına uyğun), dəqiq, etibarlı, vaxtlı-vaxtında və yayım qrafikinə uyğun hazırlanan, əlçatan və aydın, uyğun və müqayisə oluna bilən informasiya nəzərdə tutulur.

[10]Maraqlı tərəflər dedikdə işçilər, istifadəçilər, məlumat təchizatçıları, maliyyə qurumları, rəhbər orqanlar, ictimai təşkilatlar, KİV və s. nəzərdə tutulur.

etməkdir.

⌖ Azərbaycanın Rəsmi Statistika Sistemi “Rəsmi Statistika haqqında” Azərbaycan Respublikasının Qanunu, “Azərbaycan Respublikası Dövlət Statistika orqanlarının Normalar Məcəlləsi” və digər yerli normativ-hüquqi aktlar, həmçinin beynəlxalq ictimaiyyətdə rəğbət qazanmış qabaqcıl standartlar, metodologiyalar, prosedurlar kimi keyfiyyət sisteminə əsaslanır.

⌖ Statistikanın müxtəlif sahələri üzrə dövriliyi və hazırolma vaxtı müəyyənləşdirilmiş məlumatları, illik dövrilikdə görüləcək işləri sistemləşdirən sənəd - Statistik İşlər Proqramı “Rəsmi Statistika haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq Statistika Şurasında müzakirə edildikdən sonra Azərbaycan Respublikasının Nazirlər Kabineti ilə razılaşdırılır və bütün ictimaiyyət üçün açıqdır.

⌖ Azərbaycanın Rəsmi Statistika Sistemi institusional quruluşunu Peşəkar müstəqillik, Məlumatların toplanması üzrə səlahiyyət, Ehtiyatların kifayətliliyi, Keyfiyyətin təmin edilməsi üzrə öhdəçilik, Statistik məlumatların konfidensiallığı, Obyektivlik və qərəzsizlik, Peşəkar etikanın və fəaliyyətin idarə edilməsi, Fəaliyyətin səmərəliliyi, Daimi təkmilləşmə prinsiplərinə uyğun inkişaf etdirmək, statistik prosesləri Statistik metodologiyaların əsaslılığı, Statistik üsulların uyğunluğu, Statistik fəaliyyətin həyata keçirilməsində tərəfdaşlıq əlaqələri (Respondentlərə düşən yükün azaldılması), Qənaətçilik prinsipləri ilə səmərəli icra etmək, çıxış statistik məlumatların keyfiyyətini Aktuallıq, Dəqiqlik və etibarlılıq, Vaxtlı-vaxtında və yayım qrafikinə uyğun, Əlçatanlıq və aydınlıq, Uyğunluq və müqayisəlilik prinsipləri əsasında yüksəltmək strategiyasını güdür.

⌖ Azərbaycanın Rəsmi Statistika Sistemi İstehlakçıya yönəlmə, Liderlik, İşçilərin cəlb edilməsi, Prosesli yanaşma, Təkmilləşmə, Sübuta əsasən qərarın qəbul edilməsi, Əlaqələrin idarə edilməsi kimi keyfiyyət menecmenti standartlarının prinsipləri üzərində qurulmuş və tətbiq edilən sistemə uyğun olaraq daxili və sertifikatlaşdırma auditləri, ekspert-analitik təhlillər, həmçinin beynəlxalq səviyyəli qiymətləndirmə mexanizmlərlə institusional quruluşun, statistik proseslərin və çıxış statistik məlumatların güclü və zəif cəhətlərini, həmçinin riskləri nəzərə alaraq müvafiq təkmilləşmə tədbirlərinin görülməsini öhdəsinə alır.

Nümunəvi sənəd Azərbaycanın Rəsmi Statistika Sisteminin ümumi konseptini “nə?, necə? və hansı?” prinsiplər çərçivəsində istehsal etdiyini başa düşməyə kömək edir.

*Nümunəvi sənədin yalnız Komitəyə deyil, Azərbaycanın Rəsmi Statistika Sisteminə şamil edilməsi, onun böyük auditoriyaya yayılması məqsədilə müstəqil sənəd olmaqla yanaşı, “Azərbaycan Respublikası Dövlət Statistika orqanlarının Normalar Məcəlləsi”nin, Statistik İşlər Proqramının*[11] və gələcəkdə hazırlanacaq statistikanın inkişafına dair dövlət proqramlarının preambulasında da dərc edilməsi təklif olunur.

Görüləcək bu yenilikçi tədbir ISO 9001:2015 beynəlxalq standartının [16] “5.2 Siyasət” maddəsinin “5.2.2 Keyfiyyət siyasəti barədə məlumatlandırmaq” alt-maddəsinin “c) müvafiq maraqlı tərəflər üçün əlçatan olmalıdır” bəndinə əsasən keyfiyyət siyasətinin əlçatanlığı daha geniş səviyyədə təmin ediləcək. Qeyd edilməlidir ki, “b) təşkilat daxilində ötürülməli, başa düşülməli və tətbiq edilməli” bəndinin şərtlərini yerinə yetirmək üçün hal-hazırda qüvvədə olan sənəd Komitənin saytında, intranetdə, “Keyfiyyətin idarə edilməsi sistemi” sənəd toplusunda dərc edilib və hər bir iş otağında yerləşdirilib.

*Nəzərə alsaq ki, siyasətin əlçatanlığı həm sayt, həm intranet vasitəsilə, həm də “Keyfiyyətin idarə edilməsi sistemi” sənəd toplusunda dərc edilməklə təmin edilir, hər bir iş otağında sənədin nəşr olunaraq divarlara və ya şkaflara bərkidilməsi, rəflərin üzərinə qoyulması təcrübəsindən imtina etmək arzu olunandır. Əvəzində sənədi binanın foyesində və ya diqqət çəkən digər məkanlarda iri həcmdə elektron vasitələrlə və ya çap üsulu ilə vizuallaşdırmaq olar. Bu, işçilərdə korporativ ruhun yüksəlməsi və Komitənin imicinin artırılması kimi bonuslar verə bilər.*

[11] Statistikanın müxtəlif sahələri üzrə istehsal olunan məlumatları sistemləşdirən, dövriliyini və hazırolma vaxtını müəyyənləşdirən sənəd. https://www.stat.gov.az/menu/2/work_program/ (19.07.2018)

TQM-nin ayrı sistem kimi deyil, bütün statistik sistemə inteqrasiya edilməsinin vacibliyini nəzərə alsaq, standartın həmin "5.2 Siyasət" maddəsinin keyfiyyət üzrə siyasətin tərtib edilməsi tələblərini əks etdirən 5.2.1 alt-maddəsinin "b) keyfiyyət üzrə məqsədləri formalaşdırmaq üçün çərçivə təmin edən" bəndinə uyğun olaraq nümunəvi sənəddə keyfiyyət üzrə məqsədləri formalaşdıran Statistik İşlər Proqramına istinad edilir, institusional quruluşun, statistik proseslərin, çıxış statistik məlumatların müəyyən prinsiplər üzərində inkişaf hədəfləri və nəhayət, "c) müvafiq tələblərə cavab vermək üçün öhdəliklərə sahib olan" və "d) keyfiyyət menecmenti sisteminin davamlı inkişafı üçün müvafiq öhdəliklərə sahib olan" bəndlərinə müvafiq olaraq audit və s. qiymətləndirmə mexanizmlərlə keyfiyyət menecmenti sisteminin davamlı inkişafı üçün və s. öhdəliklər də qeyd olunur.

## Nəticə

Keyfiyyət sahəsində siyasətinə yenidən baxmaqla və təklif edilən digər tədbirləri həyata keçirməklə Komitə ölkənin rəsmi statistika sisteminin Avropa və beynəlxalq standartlara uyğun inkişafını bir daha yaxınlaşdıracaq. Məqalədə baxılmış Azərbaycanın Rəsmi Statistika Sisteminin nümunəvi Keyfiyyət Siyasəti daha dayanıqlı görünməklə keyfiyyət fəlsəfəsini rəsmi statistikanın bütün istehsalçılarına şamil edəcək. Sistemi vahid keyfiyyət prinsipləri üzərində qurmaqla rəsmi statistik məlumatların zamanla daha keyfiyyətli istehsalı müşahidə oluna bilər.

Təklif olunan yaxşılaşdırma tədbirləri ilə Azərbaycanın Rəsmi Statistika Sistemi təcrübəsinin MDB-yə üzv ölkələr arasında qabaqcıl nümunəsi olacağı, növbəti Qlobal Qiymətləndirmə proseslərində də müsbət hal kimi qarşılanması şansı var.

**Aynur Sultanova**

**Statistik fəaliyyətin keyfiyyətinin təkmilləşdirilməsi məsələləri**

**Xülasə**

Məqalədə Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin ISO keyfiyyət menecmenti standartlarının prinsiplərinə uyğun keyfiyyət sahəsində fəaliyyətinin, əldə edilmiş nailiyyətlərinin qısa icmalı verilir. Avropa Statistika Sisteminin Keyfiyyət Bəyannaməsinin qəbul edilməsi haqqında informasiya, yeni redaksiyasının xülasəsi, eyni zamanda sənədin köhnə redaksiyası ilə nəzərə çarpan fərqlər qısaca baxılır.

Avropa Statistika Sisteminin Keyfiyyət Bəyannaməsinin yeni redaksiyasının müsbət cəhətlərini nəzərə alaraq, onun əsasında Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin keyfiyyət sahəsində siyasətinin təkmilləşdirilməsi məsələlərinə diqqət ayrılır. Azərbaycanın rəsmi statistika sisteminin kimlərlə təmsil olunduğu, vəzifəsi, tətbiq etdiyi keyfiyyət sistemi, onun qiymətləndirilməsinin aparıldığı, "Azərbaycan Respublikası Dövlət Statistika orqanlarının Normalar Məcəlləsi"nə uyğun institusional quruluşun, statistik proseslərin və çıxış statistik məlumatların əsaslandığı prinsiplər, həmçinin ISO keyfiyyət menecmenti standartlarının prinsipləri üzrə təkmilləşmə tədbirlərinin görülməsi öhdəçiliyi qeyd edilən "Azərbaycanın Rəsmi Statistika Sisteminin nümunəvi Keyfiyyət Siyasəti" və sənədin təşviqi üçün təkliflər təqdim edilir.

Məqalədə təqdim edilən "Azərbaycanın Rəsmi Statistika Sisteminin nümunəvi Keyfiyyət Siyasəti"nin beynəlxalq ISO 9001:2015 standartının tələblərinə də uyğunluğu əsaslandırılır.

**Айнур Султанова**

**Вопросы усовершенствования качества статистической деятельности**

**Резюме**

В статье дается краткий обзор деятельности и достижений в области качества Государственного Комитета по Статистике Азербайджанской Республики в соответствии с принципами стандартов менеджмента качества ISO. Вкратце рассматриваются информация о принятии Декларации качества Европейской статистической системы, резюме новой редакции, а также значимые отличия от старой версии документа.

Учитывая положительные стороны новой редакции Декларации качества Европейской

статистической системы, рассматриваются вопросы совершенствования на ее основе Политики качества Государственного Комитета по Статистике Азербайджанской Республики. Представлены «Типовая политика качества официальной статистической системы Азербайджана», которая отражает представителей официальной статистической системы Азербайджана, ее задачи, применяемую систему менеджмента качества, проведение ее оценки, принципы «Кодекса норм государственных статистических органов Азербайджанской Республики», на которые опираются институциональная среда, статистические процессы и выходные статистические данные, обязательство проведения мер по улучшению в соответствии с принципами стандартов менеджмента качества ISO, а также предложения по продвижению документа.

Обосновывается соответствие представленной в статье « Типовой политики качества официальной статистической системы Азербайджана» требованиям международного стандарта ISO 9001:2015.

**Aynur Sultanova**

**Issues of improving the quality of statistical activities**

**Summary**

The article provides a brief overview of the activities of the State Statistical Committee of the Republic of Azerbaijan in the field of quality in accordance with the principles of ISO Quality Management standards and its achievements. A brief information about adoption of the Quality Declaration of the European Statistical System, summary of its new version, as well as significant differences with the old version of the document are presented.

Taking into account the positive features of the Quality Declaration of the European Statistical System the issues of improving the Quality Policy of the State Statistical Committee of the Republic of Azerbaijan on the basis of its new edition are considered. The Sample Quality Policy of the Official Statistical System of Azerbaijan, which reflects the representatives of the Official Statistical System of Azerbaijan, its tasks, the applied Quality Management System, its assessment, the principles of the Code of Practice of the State Statistical Bodies of the Republic of Azerbaijan, on which the institutional environment, statistical processes and outputs are based, the commitment to carry out improvement measures in accordance with the principles of ISO Quality Management standards, as well as proposals for the promotion of the document.

The correspondence of the Sample Quality Policy of the Official Statistical System of Azerbaijan presented in the article to requirements of the international ISO 9001: 2015 standard is substantiated.

## Ədəbiyyat

1. “Rəsmi statistika haqqında” Azərbaycan Respublikasinin Qanunu. 1994. http://www.e-qanun.az/framework/8882 (20.07.2018).
2. Fundamental Principles of National Official Statistics. 2014. https://unstats.un.org/unsd/dnss/gp/fundprinciples.aspx (12.07.2018).
3. National Quality Assurance Framework. https://unstats.un.org/unsd/dnss/qualitynqaf/nqaf.aspx (20.07.2018).
4. European Statistics Code of Practice, 2018. https://publications.europa.eu/en/publication-detail/-/publication/661dd8ef-7439-11e8-9483-01aa75ed71a1 (12.07.2018).
5. Selection and use of the ISO 9000 family of standards. https://www.iso.org/publication/PUB100208.html (12.06.2018).
6. Quality management principles. http://www.iso.org/iso/pub100080.pdf (12.06.2018).
7. Statistik Biznes-Prosesin Ümumi Modeli. https://www.stat.gov.az/menu/2/quality/az/00_2.pdf (11.09.2018).
8. A.M.Велиев. Создание системы управления качеством: от теории к практике./Вопросы

статистики/№ 4, Москва-2014, стр. 69-71.
9. T.Budaqov. Azərbaycanda rəsmi statistikanın əsas inkişaf istiqamətləri./“Statistika Xəbərləri” elmi-praktik jurnalı/№1, Bakı-2015, səh. 9-15.
10. Y.Yusifov. Keyfiyyətin təmin olunmasının və rəsmi statistikanın əsas prinsiplərinin milli statistikada nəzərə alınması məsələləri./“Statistika Xəbərləri” elmi-praktik jurnalı/№1, Bakı-2016, səh. 24-32.
11. A.Sultanova. Mərkəzi icra hakimiyyəti orqanlarında beynəlxalq səviyyəyə uyğun keyfiyyətin idarə edilməsi sisteminin qurulmasının faydaları./“Statistika Xəbərləri” elmi-praktik jurnalı/№ 3, Bakı-2016, səh. 36-43.
12. А.С.Айдын кызы. О роли Общей системы метаданных в развитии статистики Азербайджана./Научно-информационный журнал «Вопросы статистики»/ 5(25), Москва, 2018, стр. 70-77.
13. Айнур Султанова. GSBPM как инструмент качественной модернизации производственной системы официальной статистики Азербайджана./“Statistika Xəbərləri” elmi-praktik jurnalı/№ 3, Bakı-2018, səh. 82-91.
14. Quality declaration of the European statistical system. 2017. http://ec.europa.eu/eurostat/en/web/products-catalogues/-/KS-02-17-428 (12.07.2018).
15. Azərbaycan Respublikası Dövlət Statistika orqanlarının Normalar Məcəlləsi. 2011. https://www.stat.gov.az/menu/2/quality/az/regulations_SK.zip (20.07.2018).
16. ISO 9001:2015 Quality management systems – Requirements.

# ƏHALİNİN SİYAHIYAALINMASININ BƏZİ MƏSƏLƏLƏRİ

***Zülfüqar Məhərrəmov***
*Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin*
*Samux Rayon Statistika İdarəsi, aparıcı məsləhətçi*
*AZ 5100, Samux şəhəri, Heydər Əliyev prospekti 44*
*e-poçt: zulfubey@mail.ru*

**Açar sözlər:** əhalinin siyahıyaalınması, statistik məlumatların keyfiyyəti və etibarlılığı, kritik an, əhali kateqoriyası, daimi əhali, vahid proqram, siyahıyaalma vərəqi.
**Ключевые слова:** перепись населения, качество и достоверность статистической информации, критический момент, категории населения, постоянное население, единая программа переписи, переписной лист.
**Keywords:** population census, quality and reliability of statistical information, critical moment, population category, permanent population, single census program, census form.

Dünya praktikasında hər bir ölkədə əhalinin sayı, sosial-demoqrafik strukturu haqqında əsas informasiya mənbəyi kimi həmin ölkədə aparılan siyahıyaalmanın məlumatları əsas götürülür [2]. Ölkəmizdə də əhali, onun tərkibi, həyat şəraiti, sosial-demoqrafik vəziyyəti haqqında dəqiq məlumat əhalinin siyahıyaalınması əsasında əldə edilir.

Azərbaycan Respublikası Prezidentinin "2019-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıyaalınmasının keçirilməsi haqqında" 2016-cı il 7 sentyabr tarixli 1040 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin "2019-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıyaalınmasına hazırlıq və onun keçirilməsi ilə bağlı tədbirlər planı haqqında" 2016-cı il 16 dekabr tarixli 517 nömrəli qərarı qəbul edilmişdir. Bu plana əsasən Azərbaycanda əhalinin siyahıyaalınması 2019-cu il 1 oktyabr tarixinin saat 00.00 vəziyyətinə, sorğu yolu ilə aparılacaqdır [1, səh. 5]. Nəzərə almaq lazımdır ki, əhalinin siyahıyaalınmasına hazırlıq və onun keçirilməsinə yerli icra hakimiyyəti orqanları və Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi məsuliyyət daşıyır [1, səh. 5]. Əhalinin siyahıyaalınması ölkə ərazisində vahid metodologiya və proqram əsasında həyata keçiriləcəkdir.

200 ilə yaxın bir müddətdə əvvəlcə Çar Rusiyasının, sonra isə keçmiş Sovet İttifaqının tərkibində olmuş Azərbaycanda əhalinin siyahıyaalınması sahəsində görülən işlər az əhəmiyyət kəsb etmir. Rusiya imperiyasında əhalinin ilk dəfə siyahıyaalınması 1897-ci ildə 9 fevral vəziyyətinə aparılmışdır. Siyahıyaalma zamanı şəhərlərdə özüqeydetmə, kənd yerlərində isə sorğu üsulundan istifadə olunmuş və aşağıdakı üç əhali kateqoriyası nəzərə alınmışdır: 1) mövcud əhali; 2) daimi (oturaq) əhali; 3) təhkim olunmuş əhali. Hesablama əsas etibarilə mövcud əhali üzrə aparılmış, üç formada siyahıyaalma vərəqəsindən istifadə olunmuşdur. "A" formasında təhkim olunmuş kəndlilər nəzərdə tutulmuşdur. "B" formasında sahibkarlıq təsərrüfatları, xüsusi evlər və həyətlər. "V" formasında isə şəhərlərdə yaşayan əhali siyahıya alınmışdır. Əhali arasında maarifləndirmə işi kifayət qədər aparılmadığı üçün həmin formaların çox hissəsi sayıcılar tərəfindən doldurulmuşdur. Siyahıyaalma vərəqində dini etiqad və hərbi mükəlləfiyyətlə əlaqədar sualların nəzərdə tutulması əhalinin müəyyən hissəsini qorxu altında saxlayırdı [4]. Qeyd etmək lazımdır ki, Azərbaycan ərazisinin müxtəlif yerlərində bu və ya digər dərəcədə əvvəllər də əhalinin siyahısı tərtib olunmuşdur. Məsələn,1590-cı ildə tərtib olunmuş *"İrəvan əyalətinin müfəssəl dəftəri"* [5], yaxud 1727-ci il tarixdə osmanlı məmurları tərəfindən tərtib olunmuş *"Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri",* yaxud *"Naxçıvan sancağının müfəssəl dəftəri*"ndə Azərbaycan ərazisinin bölgələrində əhali, onun bütün əmlakı da siyahıya alınırdı [6]. Yaxud "Naxçıvan əyalətinin statistik təsviri" kitabının müəllifi V.Qriqoriyev yazır ki, bu sənədlərdə əhali, onun bütün əmlakı-əkin yeri, mal-heyvanı da siyahıya alınırdı ki, kimin nə qədər vergi verməli olduğu dəqiq müəyyən edilsin [7, səh. 61]. Aydın məsələdir ki, həmin ərazilərə aid bu cür sənədlər Rusiya İmperiyası tərəfindən vaxtaşırı tərtib edilirdi. Bu sənədlərə "Kameral təsvir" deyilirdi. "Kameral təsvir"də əhalinin siyahısı ilə yanaşı, ərazidə yerləşən

dağlar, su ehtiyatları, tarixi abidələr, faydalı qazıntılar, vergilər və s. haqqında məlumatlar da yer alırdı. Bir sözlə, həmin ərazi bir növ inventarlaşdırılırdı. Bu "Kameral təsvir"lər Naxçıvan şəhəri haqqında 1831-ci, 1843-cü, 1848-ci, 1859-cu, 1873-cü və 1886-cı illərdə tərtib edilmişdir. 1886-cı ilin kameral siyahısından müəyyən nümunələrə baxaq:

"444 (498). Məmmədqulu Usta Hüseynqulu oğlu. 50 yaşında; həyəti olan evi var, vergi mükəlləfiyyətlidir, ildə 6 rubl vergi ödəyir. İltizamcıdır (otkupşik). Ailədə 2 qadın var. Oğlanları; 1) Yusif 21 y.; 2) Cəlil 18 y.; 3) Hüseyn (onun adı həm də Ələkbərdir) 14 y." [6].

Azərbaycanda Çar Rusiyası və SSRİ dövründə əhalinin siyahıyaalınması 1897, 1926, 1939, 1959, 1970, 1979 və 1989-cu illərdə geniş proqram əsasında aparılmış və bunlar bir-birindən bir sıra cəhətlərinə görə fərqlənmişlər.

Arxiv materialları və bir sıra digər tarixi nəşrlər göstərir ki, tarixçilər hələ 19-cu əsrin əvvəlində Azərbaycanda əhali, sənaye, kənd təsərrüfatı, ticarət, xarici ticarət və s. haqqında çoxsaylı statistik məlumatlara istinad etmiş və araşdırmalar aparmışdır. Bu kimi məlumatlara Azərbaycanda qeyri-müntəzəm və ya az-çox müntəzəm statistika fəaliyyətinin təşkil edildiyi 19-cu əsrdə, xüsusilə də 19-cu əsrin ortalarından sonra, yəni Azərbaycanın Rus İmperiyasının tərkibində olduğu dövrdə daha çox rast gəlmək olur [14].

Müstəqil Azərbaycan Respublikasında əhalinin siyahıyaalınması 1999 və 2009-cu illərdə aparılmış və bu zaman beynəlxalq təcrübədən istifadə olunmuşdur. Əhalinin siyahıyaalınmasının kritik anı, bütün ölkə üçün vahid bir zaman anlığını təşkil edir. Əhalinin siyahıyaalınması zamanı toplanan məlumatlar, adətən, əvvəlcədən gecə yarısı (2019-cu ildə bu sentyabrın 30-dan, oktyabrın 1-nə keçən gecə saat 00,00 anına) aparılacaqdır. Siyahıyaalınmanın kritik anın yaradılması, davamlı olaraq dəyişən əhalinin bir görünüşünü (fotosunu) əldə etmək imkanı verir, mövcud əhalinin sayını daha dəqiq nəzərə almaqla təhrifləri və insanların ikiqat sayılması imkanlarını minimuma endirir.

Siyahıyaalma qısa müddətdə, bir neçə gün ərzində, ilin insanların az hərəkətdə (yerdəyişmədə) olduğu vaxt aparılır. Bu zaman iqlim şəraiti də nəzərə alınır. Toplanan məlumatların hadisəni tam əhatə etməsindən və dəqiqliyindən asılı olmayaraq, onlar tələb olunan səviyyədə "işlənmədikdə" keyfiyyəti xeyli aşağı düşür, odur ki, siyahıyaalma başa çatdıqdan sonra müəyyən olunmuş müddətdə toplanmış məlumatların elmi əsaslarla işlənməsinə diqqət yetirmək lazımdır. Siyahıyaalma və sorğu vərəqələrində qeyd edilmiş və toplanmış məlumatlar ümumiləşdirilməlidir.

**Siyahıyaalmanın keçirilməsinin əsas prinsipləri**

Əhalinin siyahıyaalınması nəticəsində dövlət və digər istifadəçilər əhali, onun sayı, strukturu, ərazilər üzrə paylanması, sosial-iqtisadi xarakteristikası, milli və etnik tərkibi, onların təhsil səviyyəsi haqqında əhəmiyyətli dərəcədə böyük informasiya alırlar. Alınan bu informasiya sonrakı dövrdə ölkənin sosial-iqtisadi inkişaf perspektivində istifadə olunur [9]. Əhalinin sayı və tərkibi haqqındakı informasiya, büdcənin formalaşdırılması və regionların sosial-iqtisadi inkişafı üçün hesabatlarda istifadə olunur. Əhalinin siyahıyaalınmasının əsas prinsipləri aşağıdakılardır [10].

1. Universallıq (bütün ərazini və bütün əhalini əhatə edir);
2. Məlumatların eyni dövrə aid olması (siyahıyaalmanın tarixinin və vaxtının əvvəlcədən müəyyən edilməsi);
3. Məlumatların vahid proqram üzrə toplanması (toplanan məlumatlar siyahıyaalma vərəqində vahid xarakteristika əsasında aparılır);
4. Məlumatların adbaad toplanması (hər bir şəxsdən identifikə olunmuş fərdi məlumatlar toplanır);
5. Şəxsə etibar-özünü təyinetmə (bütün məlumatlar şifahi sorğu yolu ilə aparılır, sorğu aparılan şəxsdən hər hansı bir sənəd tələb etmək qadağandır);
6. Məxfilik (siyahıyaalma zamanı sorğusu götürülən şəxs haqqında fərdi informasiyanın başqasına verilməməsi);
7. Siyahıyaalmanın mərkəzləşdirilməsi (siyahıyaalmanın keçirilməsini, ona nəzarəti və maliyyələşdirilməsini dövlət öz üzərinə götürür);

8. Siyahıyaalmanın müntəzəmliyi (BMT-nin təklifi ilə hər 10 ildən bir, bəzi ölkələrdə isə hər 5 ildən bir keçirilir);

**Siyahıyaalınmanın keçirilməsi metodları**

Əvvəldə qeyd edildiyi kimi, əhalinin sayı və strukturu haqqında ən dolğun statistik informasiya əhalinin siyahıyaalınması hesab olunur. Əhalinin siyahıyaalınması statistik məlumatların xüsusi təşkil edilmiş bir dövrü, yaxud birdəfəlik toplanması (yığılması) prosesidir ki, bütün ölkədə, eyni zamanda vahid proqram və metodologiya üzrə keçirilir. Bu məlumatların toplanması (yığılması) bir sıra metodlarla aparılır [10].

1. Birbaşa (sorğu) - bu metodla siyahıyaalma vərəqəsi sayıcı tərəfindən siyahıya alınacaq şəxsin sorğusu əsasında doldurulur. Bu metoddan Rusiyada və digər MDB dövlətlərində istifadə edirlər.
2. Seçmə - bu metodla siyahıyaalınan şəxslər siyahıyaalma vərəqələrini özləri doldururlar. Sayıcı isə siyahıyaalma vərəqəsinin düzgün doldurulmasına və məlumatların səhihliyinə nəzarət edir. Bu metoddan bir sıra Avropa ölkələri istifadə edirlər.
3. Qarışıq (anket) - bu metoddan, əsasən, ABŞ-da istifadə olunur. Burada anket siyahıyaalınan şəxsə göndərilir, həmin şəxs anketi dolduraraq siyahıyaalma bürosuna qaytarır. Bu metodla əhalinin siyahıyaalınması xeyli ucuz başa gəlir. Bu zaman çəkilən xərclər sorğu yolu ilə aparılan xərclərdən az olmasına rəğmən geri qaytarılan anketlərin sayında 15-20 faiz azalma müşahidə olunur.

**Siyahıyaalmanın məqsədinin müəyyənləşdirilməsi**

